Əbdüləziz
ibn Abdullah
əl-Humeydi



# İSLAM QARDAŞLIĞI
## BEYNƏLXALQ ƏLAQƏDİR

Tərcüməçi:
Sahib Əsədov

Sələfin Əxlaqı
selefinexlaqi

# İSLAM QARDAŞLIĞI

## BEYNƏLXALQ ƏLAQƏDİR

**Müəllif:**
Əbdüləziz ibn Abdullah əl-Humeydi

**Tərcüməçi:**
Sahib Fərman oğlu Əsədov

Bakı: 2010

Mərhəmətli və Rəhimli Allahın adı ilə

# Tərcüməçinin ön sözü

Mərhəmətli və Rəhimli Allahın adı ilə. Həmd yalnız Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan yardım və bağışlanma diləyirik! Nəfslərimizin və pis əməllərimizin şərindən Allaha sığınırıq! Allahın doğru yola yönəltdiyini azdıran olmaz, Allahın azdırdığını isə doğru yola yönəldən olmaz! Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun heç bir şəriki yoxdur, Məhəmməd ﷺ Onun qulu və elçisidir! Sonra isə deyirəm ki:

Dəyərli oxucu! "İslam Qardaşlığı Beynəlxalq Əlaqədir" adlı kitabı tərcümə etmək fikri 2010-cu ildə bu kitabın Ahmet Gündüz tərəfindən ərəbcədən türkcəyə tərcümə edilmiş nüsxəsini əldə etdiyim zaman meydana gəldi. Elə həmin ilin yayında bu kitabın tərcüməsini orijinalından deyil, türkcə tərcüməsindən Azərbaycan dilinə tərcümə etməklə kifayətləndim. Lakin kitabın işıq üzü görməsinə mane olan səbəb həmin vaxtlarda mənə Beynəlxalq Mədinə İslam Universitetinə qəbul olunmağım haqda xəbərin gəlməsi, daha doğrusunu desəm, əsas iki səbəb oldu:

1.Türkcədən Azərbaycan dilinə edilmiş tərcümənin kitabın ərəbcə orijinalı ilə üst-üstə düşməməsi narahatçılığı.

2.Mədinədə ərəbcə təhsil almaq fürsəti yarandığı üçün sonradan ərəbcəmi təkmilləşdirdikdən sonra kitabı orijinalı ilə müqayisə edib tərcümə xətalarının olub-olmamasını dəqiqləşdirmək istəyi.

Belə də oldu və kitabın yenidən yoxlanılması məsələsi gecikdi. Çünki həyatımda yeni bir mərhələ başlamışdı.

Ərəbcə yazıları öz dilimizə çevirməyi öyrəndikdən sonra orijinala baxmağın mümkün olduğu halda, ikinci dildən üçüncü dilə çevrilmiş bir kitabı oxuculara təqdim etmək mənə ağır gəlirdi. Nəhayət, ilkin tərcümədən on dörd il keçdikdən sonra türkcədən edilmiş tərcüməni kitabın ərəbcə orijinalı ilə tutuşdurub tərcüməni tam şəkildə yenidən nəzərdən keçirdim və Allahın müvəffəq etməsilə oxuculara təqdim etdim.

۞ **Tərcümənin ilkin səviyyəsi:** Tərcümənin ilkin səviyyəsinə gəldikdə, bu haqda üç məsələdən danışmaq olar;

a) *Türk tərcüməçinin ərəbcədən türkcəyə etdiyi tərcümənin keyfiyyəti.*
b) *Türkcədən Azərbaycan dilinə edilmiş tərcümənin keyfiyyəti.*
c) *Azərbaycan dilinə edilmiş tərcümənin kitabın ərəbcə orijinalı ilə tutuşdurulması və ya müqayisəsi.*

- Türk tərcüməçinin ərəbcədən türkcəyə etdiyi tərcümənin keyfiyyətinə gəldikdə isə ilk öncə qeyd etmək olar ki, tərcümə səhvləri həddindən çox nəzərə çarpmasa da, mövcud idi. Dini terminlərə gəldikdə bəzi terminlər tam fərqli və ictimai üslubda tərcümə edilmişdi. Tam fərqli mənaya yozulan azsaylı cümlələrə də rast gəlmək olurdu. Bunlara misallar çəkərək yazını uzatmaq fikrim yoxdur. Hər bir halda tərcüməçi bacardığını etmiş və anlaşılan cümlələr qurmağa çalışmışdı. Türk tərcüməçinin işinin keyfiyyəti ilə bağlı ən mühüm qeydlərdən biri də onun kitabda nəzərə çarpan dərəcədə bir ixtisara yol verməsi idi. O ən böyük ixtisarı kitabın girişində etmiş, növbəti səhifələrdə isə bəsit ixtisarlara yol vermişdi.

● Türkcədən Azərbaycan dilinə edilmiş tərcümənin keyfiyyətinə gəldikdə isə bu tərcümə kitabın dilimizə uyğun hala salınmasının iki mərhələsindən birincisidir. Birinci mərhələ 2010-cu ildə, yəni on dörd il öncə baş verdiyi üçün tərcüməçi kimi özümü tənqid etməyim və bu tərcüməni öz nəzərimdə qeyri-qənaətbəxş hesab etməyim kifayətdir. Bunun səbəbləri çox olsa da, bu qeydlə kifayətlənirəm.

● Kitabın dilimizə uyğun hala salınmasının ikinci mərhələsi isə 2010-cu ildə türkcədən Azərbaycan dilinə çevrilmiş tərcümənin 2024-cü ildə ərəbcə orijinal mətni ilə tutuşdurulmasıdır. Çox uzatmadan qısa şəkildə deyim ki:

- Türk tərcüməçinin ixtisarları olduğu kimi saxlanılıb.
- Cümlələrin daha aydın şəkildə izahlarının verilməsinə cəhd edilib.
- Kitabın 95 faizindən daha yüksək nisbəti kitabın ərəbcə orijinalı ilə tutuşdurulub, azsaylı cümlələrdə mənaların aydın olması səbəbilə orijinala baxmağa ehtiyac qalmayıb.
- Tərcümənin təkmilləşdirilməsi prosesində qəliz sözlərin izahları üçün ərəbcə lüğət kitablarına və elektron lüğətlərə müraciət edilmişdir.
- Tərcümə əsnasında türk dilində verilmiş bəzi sözlərin Azərbaycan türkcəsinə çevrilməsi zamanı məna boşluqları yarandığı üçün orijinala qayıtmaq yoluyla bu boşluqlar da doldurulmuş, daha anlamlı cümlələr ərsəyə gəlmişdir.

۞ **Müəllif haqqında:** O, Əbdüləziz ibn Abdullah əl-Humeydidir. 1943-cü ilin fevral ayının 19-da Səudiyyə Ərəbistanının Uneyzə şəhərində anadan olmuşdur. İbtidai və orta təhsilini də həmin şəhərdə bitirmiş, 1960-cı ildə "Elmi

kollec"dən məzun olmuşdur. Həmin kollecdə təhsil aldığı müddətdə dörd il ərzində böyük İslam alimi Məhəmməd ibn Saleh əl-Useymindən (Allah ona rəhmət etsin) elm öyrənmişdir. 1964-cü ildə ər-Riyad şəhərindəki İslam universitetinin "Şəriət" fakültəsindən məzun olmuşdur. 1980-ci ildə Məkkə şəhərində yerləşən "Ümmül-Qura" İslam Universitetində "Quran və Sünnə" ixtisası üzrə doktorantura dissertasiyasını müdafiə etmişdir. 1981-ci ildən 1987-ci ilə kimi həmin universitetin "Dəvət və dinin əsasları" fakültəsinin dekanı olmuşdur. 1989-cu ildən 1998-ci ilə kimi mərkəzi Məkkə şəhərində yerləşən "İslam Dünyası Cəmiyyəti"nin (İDC) tabeçiliyində olan İslam təbliğatçılarının hazırlanması üzrə "Ali institut"da dekan vəzifəsində çalışmışdır. 2001-ci ildən eyni cəmiyyətin "Ümumi Dəvət İdarəsi"nin rəhbəri vəzifəsinə təyin edilmişdir. Eyni zamanda o, Məkkədə Kəbə məscidində və "Ümmül-Qura" İslam Universitetində müəllim olaraq da çalışmışdır. Universitet müəllimliyi dönəmində məşhur yəmənli İslam alimi şeyx Muqbilə də dərs demişdir. Hal-hazırda səhhəti və yaşı ilə əlaqədar olaraq tədrisi və işini dayandırmışdır. Müəllif haqqında bu məlumatları əldə etmək mümkün oldu.

Müəllifin yalnız bu kitabını təsadüfən tərcümə etdikdən uzun illər sonra onun haqqında alimlərin elmi tənqidlərini müşahidə etməməyim, onun mənə tənqidlərdən kənar bir şəxs olaraq görünməsi amili də müəllifin bu kitabı üzərində yenidən çalışmağımın və bu kitabı oxuculara təqdim etməyimin başlıca səbəblərindən biri olmuşdur. Allah isə onu daha yaxşı tanıyır.

۞ **Mövzu haqqında**: "İslam qardaşlığı" mövzusu çox geniş bir mövzudur. Bizim bu tərcümə edilmiş kitabdakı mövzumuzun "İslam Qardaşlığı Beynəlxalq Əlaqədir" başlığı,

təbii ki, bu mövzuda danışmaq istədiyimiz bütün mövzuları əhatə etməmişdir. Lakin bu kitab "ümumi İslam qardaşlığı anlayışını oxucuya qənaətbəxş bir şəkildə çatdırır",- desək, yəqin ki, yanılmarıq. Kitabda İslam qardaşlığına aid bəzi təfsilatlara toxunulmamış və ya bəzi mövzulara səthi şəkildə toxunulmuşdur. Bu mövzulardan:

- Dini cəhətdən icazəli bir səbəblə əlaqələrin kəsilməsi nə zaman mümkündür (həcr) və bunun təfsilatı nədir?
- Müsəlmanların öz aralarında nəsihətləşməsi və buna aid bəzi məqamlar və təfsilatlar nələrdir?
- İslami camaat arasında ümumi və xüsusi qardaşlıq hansı forma və şəkillərdə mümkündür, hansı forma və şəkillərdə mümkün deyildir?
- "Ümmət" və "ümmətçilik" haqqında doğrular və yanlışlar nələrdir? Bu doğru və yanlışlar İslam ümmətinə nisbət olunan camaat, təriqətlər arasında hansı şəkildə təzahür edir? Bu mövzudakı sui-istifadə halları nələrdir?
- Müsəlmanlar arasında islah məsələsi, "xüsusi İslam qardaşlığı" əsnasında islah məsələlərinin tətbiqi necə yerinə yetirilməlidir?

Bu və ya digər mövzuların bu kitabda geniş ələ alınması mümkün olmasa da, qeyd edildiyi kimi bəzi mövzulara az da olsa, toxunulmuşdur. Bu kitab müsəlmanlar arasında xüsusi İslam qardaşlığı münasibətlərindən daha çox ümumi İslam qardaşlığı məsələlərini ələ aldığı üçün və xüsusi qardaşlığa aid metodiki bir kitab olmadığı üçün bu təfsilatlara çox da ehtiyac görülməmişdir. Hansı ki bu, kitabın adından da bəllidir. Həmçinin bu kitab keçən əsrin yetmişinci illərində yazıldığı üçün həmin dövrdən sonra İslam qardaşlığı mövzusunda yaranmış bəzi problemləri də əhatə etməyə bilər! Hər bir halda Allahdan istəyirəm ki, bu kitabı oxucular

üçün faydalı etsin!

**Yazdı:** Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov.

Səudiyyə Ərəbistanı. Mədinə şəhəri  Tarix: 2024.01.23

# Müəllifin müqəddiməsi

Allaha həmd-sənalar olsun! Təkcə Ondan yardım və məğfirət diləyir və tövbələrimizin qəbul olmasına ümid edirik. Nəfslərimizin şərindən və pis əməllərimizin aqibətindən də Allaha sığınırıq. Allah kimi hidayət etsə, heç kim onu azdıra bilməz, kimi də azdırsa, heç kim onu doğru yola yönəldə bilməz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq heç bir ilah yoxdur və Onun hər hansı bir şəriki də yoxdur. Yenə şəhadət edirəm ki, Məhəmməd ﷺ Onun qulu və elçisidir. Allahın mərhəməti və məğfirəti onun, ailəsinin və əshabının üzərinə olsun!

Ən vacib məsələlərdən biri də insanları bir-birinə isindirəcək şeylərin nələr olduğunu araşdırmaqdır. Çünki bu əlaqələrin vəziyyətinə əsasən cəmiyyətlərin sağlam və ya çürük olması ortaya çıxır.

İslam qardaşlığı dünyadakı müsəlmanları bir-birinə bağlayan ən uca vasitədir. Dil, ölkə, nəsil və rəng fərqliliyinə baxmayaraq, bütün insanların tək bir düstur və bayraq altında birləşmələrini mümkün edə biləcək yeganə vasitə budur.

Bu, içərisindəki bütün insanların eyni səviyyədə olduğu, heç kimin heç kimə rəngi, nəsli və vətəndaşlığı səbəbilə bir üstünlüyünün olmadığı bir düsturdur. Bu fərqliliklərin bu uca düstur qarşısında heç bir əhəmiyyəti yoxdur. Bu cür fərqliliklər əsas etibarilə qaranlıq cahiliyyə dövründə ədavət və düşmənçilik atəşini qızışdıran amillər olmuşdur.

Bu elə bir düsturdur ki, cahiliyyə cəmiyyətinin əzdiyi və haqlarını tapdadığı, nəsil, rəng və ya digər cahiliyyə meyarları səbəbindən hasil olan qəzəb və rəqabət anlayışı nəticəsində özünü gizlədən insanın etibarını artırmaqdadır. Bax bu düstur belə bir şəxsi hörmət olunan bir səviyyəyə gətirməkdə və ona insanlığın idarəsini təslim etməkdədir. Bax bunun sayəsində cahiliyyə cəmiyyətinin idarəetmədən uzaqlaşdırdığı zəiflər və qullar bəzən bir şəxsiyyət olaraq, bəzən də cəmiyyətlərin islah olma mərhələsində onların rəhbərləri və bələdçiləri olaraq qarşımıza çıxmışlar.

Bu düstur zalımcasına davranan cahiliyyə dəyərlərilə deyil, əksinə, mərhəmətli, adil İslam tərəzisilə dəyərləndirilən bir düsturdur.

Artıq bəşəriyyət müxtəlif dövrlərdə ortaya çıxaraq dünyada sülhü bərqərar etmək uğrunda cəhd göstərdiklərini, insanlar arasında qarşılıqlı anlayış və sevgi təməlinə söykənən bir birlik kəşf etməyə çalışdıqlarını, bir də bəzən müxtəlif cəmiyyətlərdə cahiliyyə anlayışının azad olması səbəbilə ortaya çıxan qorxu və narahatlığı aparmağa çalışdıqlarını iddia edən böyük dövlətlərin siyasətçilərinin təkrar-təkrar ortaya çıxardıqları uydurma düsturlardan usanmışdır.

Bu gün insanlıq özünü əxlaqsızlıq müharibəsindən, yoxedici çaşqınlıqdan və yox edib mənimsəyən stresdən qurtaracaq, xəzinələrini keçici dünya mənfəətlərilə doldurmaq uğrunda insanlığın həlakı üçün planlar quran bir çox kimsələri uzaqlaşdıracaq və "insanlığın özünü" liderlik məqamına çatdıracaq bir yardım əli axtarmaqdadır.

Bu gün dünya vəhşətdən və döyüşdən təmizlənmiş, insanların bir-birinə gözəl bir şəkildə davrandığı xoş bir həyatın bütün imkanlarını təmin edən, əmin-amanlıq içində yaşanılan xoşbəxt bir həyat axtarışındadır.

Bu və buna bənzər bütün məsələlər yalnız iyrənc cahiliyyə təəssübünə boyun əyməkdən, zalımlıqdan və düşmənçilikdən tamamilə uzaq olan İslam əqidəsinin yayılması, yer üzündə əsas götürülməsi və İslam qardaşlığının ortaya çıxmasıyla mümkündür.

İslam əqidəsinin yayılması nəticəsində bütün dünya İslam qardaşlığından istifadə edəcəkdir. Bundan istifadə məsələsində müsəlmanlarla (tarix boyu) onların hakimiyyəti altında olan digər din mənsubları da bərabər haqlara sahib olmuşlar. Şərəfli İslam tarixi ilk hicri əsrdə İslam qardaşlığının kölgəsində yaşanan xoşbəxt insanlıq dövrünün canlı şahididir.

Diqqətə çatdırmaqdan xoşnud olacağım bir məsələ isə budur ki, bu araşdırma  yazmış olduğum ilk kitab olub, bunu (hicri 1391) 1970-ci ildə magistr pilləsinin ixtisaslaşma mərhələsinin elmi araşdırma fənni üçün yazdım. Ancaq daha əvvəl nəşr olunması gərəkdiyinə inandığım bəzi kitablarımı nəşr etməyim və bu kitaba sonradan bəzi əlavələr etməyim səbəbindən bu çalışmanın nəşri bir qədər gecikmişdir.

**Əbdül-Əziz ibn Abdullah əl-Humeydi**. Məkkə şəhəri.

## İslamdan əvvəlki cəmiyyətlərin vəziyyəti

Bu mövzuya başlamazdan əvvəl, uca Allahın İslam ilə bu ümməti ucaltması məsələsinin aşkar olması üçün sosial əlaqələr baxımından İslamdan əvvəlki cəmiyyətlərin halını belə bir nəzərdən keçirmək, sonra da bu İslami əlaqələrin seçilən cəhətləri ilə bu əlaqələri gücləndirən və zəiflədən amillər haqqında və bu seçilən cəhətlərin tətbiqi nəticəsində İslam ümmətinin əldə etdiyi səmərələr məsələsinə diqqət çəkmək istərdim. İslamdan əvvəlki dönəmdə millətlər bir çox məsələlərdə tam bir tənəzzül halında idilər. Bu məqamda bizi maraqlandıran xüsus isə bu cəmiyyətlərdə olan ictimai əlaqələri təşkil edən amillər, hörmət və üstünlük meyarlarıdır.

O zamankı dünya quruluşu sadəcə özünü düşünən, lovğalığa söykənən dar çərçivəli yerlipərəst bir görüntü ərz edirdi. Bu prosesin gerçəkləşməsi cəmiyyətdəki fərdlərin bir-birinə dəstək olmasına bağlı idi ki, bu dəstək sayəsində camaat formalaşır, dövlətlər yaranırdı. O zamandakı ən böyük hədəf yer üzünün faydalarını öz inhisarına almaq istəyən və başqalarına zülm etmək üzərində ittifaq quran qövmlərin mənfəətlərini zəmanət altında saxlamaq idi.

Ancaq maraqların toqquşduğu zaman aralarında bir rəqabət və bölünmə meydana gəlir və bu səbəbdən də onların arasında dağıdıcı müharibələr meydana çıxırdı. Elə bir vəziyyətdə (azsaylı kitab əhlini çıxmaq şərtilə) yer üzərində tam bir azğınlıq yaranmışdı. Müslimin "Səhih" əsərində İyad əl-Mücaşidən (Allah ondan razı olsun) nəql olunan uzun bir hədisdə bununla əlaqədar olaraq Məhəmməd ﷺ peyğəmbər

belə buyurmuşdur: "Uca Allah dünya əhlinə nəzər yetirdi, Kitab əhlindən olan azsaylı toplum istisna olmaqla, ərəb və əcəm olan hər kəsə qəzəbi tutdu"[1].

İnsanların çoxu dünyaya könül bağlamış və axirət üçün çalışmağın nə demək olduğunu bilmirdilər. Onlardan bəziləri yalnız özlərini düşünərək dünya malı və məqamını necə əldə edəcəklərini araşdırarkən, çoxusu dünyalıq qazanclarını əldə etmək üçün daha üstün şərait qurmaq məqsədilə camaatı, kütləni, qəbilələri bir araya gətirməyə çalışırdılar. Birlik halında bir iş görərkən onların birliyi sevgi və qardaşlıq cəhətdən yoxsul olmuş, birlikdə olmalarının əsl məqsədi isə başqalarına olan təsirlərinin güclü olması və dünya nemətlərindən daha böyük bir paya sahib olmaq idi. Bax bu səbəbdən də onlar kütləvi quldur dəstələrinə bənzəyirdilər, bu dəstələrlə onların arasında heç bir fərq yox idi. Sadəcə kütləvi quldur dəstələrinin hədəfi aydın idi və etdikləri işi gizlədən heç bir himayələri yox idi. Bu səbəblə də mövcud dövlətlər hər fürsətdə onlardan intiqam almağa çalışırdı. Ancaq bu cür dəstələrin xaricində olan digər dəstələr isə din pərdəsi altında insanların haqlarını əllərindən almaq üçün, idarəetməni ələ almaq üçün çalışan düşüncəsiz bir dəstə idi. Bu dəstələr insanları idarə etmək və hakimiyyəti ələ keçirmək məqsədlərinə çatdıqda isə tərəfdarları ilə ittifaq etdikləri bu dəstənin rifahı uğrunda və insanlara zülm etmək yolunda ittifaq etdikləri insanları özlərinə kölə edir, onlara zülm edir, əziyyət verir, onları müharibə təhlükələri və həlak olmaqla qarşı-qarşıya qoyurdular. Beləcə, insanlar onlara kölə olmaqda davam edirdilər. Çünki onlar şər üzərində yardımlaşma məsələsində onların səviyyəsinə çatmamışdılar.

---

[1] Səhihi Müslim. Kitəbul-Cənnət. 2865.

Onlardan hansısa bir tayfa bu səviyyəyə çatdıqda isə aralarında müharibə baş verirdi. Necə ki bu, İslamdan əvvəlki xalqların həyatının bir həqiqəti olmuşdur.

## İslam himayəsində hərtərfli qardaşlıq

İslam dəvəti yayıldığı zaman İslam himayəsi altında hərtərəfli qardaşlıq başladı. Quran bizə bu anlayışı öyrədən və ona çağıran bir üslubla nazil oldu. Quran sadəcə bir milləti həmsöhbət etmədi. Əksinə, iman kimi uca mənəvi dəyərlərə xidmət edən ortaq ifadələrlə mümkün olduqca bütün insanlığın öz sancağı altında toplanmalarını istəyərək səsləndi:

"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun". (Ali İmran. 102).

"Ey iman gətirənlər! Allahdan qorxun və əgər, doğrudan da, möminsinizsə, sələmdən qalan məbləğdən vaz keçin!" (əl-Bəqərə. 278).

Və ya "Ey insanlar" ifadəsi kimi ümumi bir ləfzlə, ancaq dilə dəlalət edən məsələnin bütün insanlara işarət etdiyi bir üslubla səsləndi:

"Ey insanlar! Peyğəmbər Rəbbinizdən sizə haqqı (Quranı) gətirdi". (Nisa. 170).

"Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəlmişdir". (Nisa. 174).

"Ey insanlar! biz sizi bir kişi və bir qadından (Adəm və

Həvvadan) yaratdıq". (Hucurat. 13).

Quran dil, cins fərqliliklərinə baxmayaraq, bütün insanlara səslənməkdə, onları Allaha iman etməyə dəvət etməkdə, sonra da "iman" (iman gətirən, mömin) ifadəsilə də onlar içərisindən mömin olanlara səslənməkdədir. Bax bu gözəl nida bütün insanları tək simvol altında bir-birinə bağlamaqda və onları tək bir hədəfə yönəltməkdədir. Bu ipdən tutunmaqla digər kiçik iplər və kinlərin, döyüşlərin səbəbi olan təbəqəçilik anlayışı ortadan qalxar.

"Həqiqətən, möminlər (dində) qardaşdırlar". (Hucurat. 10), - ayəsində olduğu kimi Quranda verilmiş açıqlamalara görə dil və cins fərqliliklərinə baxmayaraq, bütün möminlər qardaşdırlar. İman qardaşlığı bütün möminləri bir-birinə bağlayan bir səbəbdir. Üstəlik də, bu səbəb qan, rəng, dil və cahiliyyə dövrünün başqa səbəblərindən daha güclü bir səbəbdir. Çünki iman qardaşlığı dini inancdan qaynaqlanan bir şeydir. Bu inanc isə könüllərdə cahiliyyə dövrünün xəyallarda canlana biləcək qardaşlıq əlaqələrindən daha sağlam bir şəkildə qurulmuş və kök atmışdır. Ona görə də bu inanc özünə bağlananların bu dünyadan daha gözəl olan başqa bir dünyanı təsəvvür etmələrini təmin edir. Beləcə, mənsubları əzabdan qorxaraq və savab umaraq hesab vermək şüuruna sahib olurlar.

Uca Allah isə iman qardaşlığını kamil bir imandan ibarət də saymır. Əksinə, geniş olan mərhəmətinə insan olmağın nəticəsi olaraq, tam itaət məsələsində küfrə salmayacaq keyfiyyətlə günahlar işləmək surətilə üst səviyyələrdən alt səviyyələrə düşən səxsləri də daxil etmişdir. Bax bu səbəblə Uca Allah yuxarıda keçən ayənin sonunda belə buyurmuşdur:

"Elə isə qardaşlarınızın arasını düzəldin". (Hucurat. 10).

Beləcə, uca Allah hücum edib zülm edən və zülmə uğrayan hər iki tərəfi iman məsələsində bizə qardaş etmişdir. Bu ayədə isə qatil öldürülmüş şəxsin varisinə qardaş hesab edilmişdir: "Əgər qatil öldürdüyü qardaşının varisləri tərəfindən qanbahası müqabilində bir şeylə əfv edilsə, onda varislər onunla insafla davranmalı, qatil isə qanbahasını gözəl tərzdə ödəməlidir" (Bəqərə. 178).

Necə ki, peyğəmbərin ﷺ bu hədisində də döyüşən hər iki qrup müsəlman hesab edilmişdir:

"Mənim bu oğlum seyyiddir. Ola bilsin ki, Allah onun vasitəsilə (döyüşən) iki müsəlman qrupun arasını düzəltsin"[2]. Müaviyənin (Allah ondan razı olsun) xəlifə olması üçün Həsənin (Allah ondan razı olsun) xilafətdən çəkilməsi vasitəsilə uca Allah İraq və Şam xalqının arasını düzəltmişdir[3].

Uca Allah aralarındakı düşmənçilikdən sonra qəblərini bir-birinə bağlamaq surətilə onlara etdiyi yaxşılıqla onların din qardaşlığını möhkəmləndirmişdir. Bu məsələ barədə uca Allah belə buyuruşdur: "Hamınız birlikdə Allahın ipindən möhkəm yapışın, parçalanmayın. Allahın sizə olan nemətini

---

[2] Səhih əl-Buxari. "əl-Fitən" Kitabı. Bab. 20. 1/109.

[3] Tövhid əhlindən olan günah əhlinin təkfir edilməməsi əqidəsi Əhli Sünnənin əqidəsidir. Qiblə əhlindən olub bu məsələdə şiddətli davaranan kiminsə sözü əsas götürülmür. Bu rəydə olanlar xəvariclərdir. Onlar və mötəzilələr böyük günah sahiblərini iman və küfr arasında olan bir mövqedə hesab edərək dindən çıxmış kafir sayırlar. Əhli sünnə isə qiblə əhlindən (müsəlmanlardan olan) belə şəxsləri imanı naqis olan şəxslər hesab edir və onların iman qardaşlığını təsdiqləyirlər. (Müəllifin qeydi).

xatırlayın. O zaman ki  siz bir-birinizə düşmən idiniz, o sizin könüllərinizi birləşdirmişdi, onun neməti sayəsində qardaş kimsələr olmuşdunuz". (Ali İmran. 103). Uca Allah cahiliyyə dövründən qalan övladlığa  götürmək məsələsini qadağan etdikdə (çünki bu cür övladlığa götürülənlər əsl atalarına nisbət olunmurdular) övladlığa qəbul edilənlərin ağalarına din səbəbilə qardaş olduqlarını bəyan etmişdir. Bu məsələ ilə bağlı olaraq Allahın bu ayətində iman qardaşlığını qüvvətləndirmə vardır: "Onları (övladlığa götürdüklərinizi) atalarına nisbət edərək çağırın. Allah yanında ən doğrusu budur. Əgər atalarının kim olduğunu bilmirsinizsə, bu təqdirdə onları din qardaşlarınız və qoruduğunuz insanlar olaraq qəbul edin". (Əhzab. 5). Kölənin öz ağasına qardaş olması səbəbilə bu vəziyyət yüksək əxlaqın zirvəsi sayılır. Bu səviyyə İslamdan əvvəl insanlığın çata bilmədiyi bir səviyyədir. Güclü bir Allah inancı olmadan könüllərdəki yer üzündə üstünlük arzusunu və təkəbbürlüyü silib atmaq çox çətindir. Belə ki bu iman könüllərdəki arzulara tabe olub nəfslərin istək və meyillərilə toqquşsa belə, onları Allaha boyun əyməyə yönəldir.

Həmçinin uca Allah qeyri-müslmanlardan iman edib İslamın vacibatlarını yerinə yetirən şəxslər üçün də din qardaşlığı haqqını təmin etmişdir: "Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, artıq onlar sizin qardaşlarınızdır". (Tövbə. 11).

Bu şəxslərin daha əvvəllər bütləri müdafiə etmələri və İslama düşmənlikləri onların qardaşlarımız olaraq qəbul edilmələrinə maneçilik törətmir. Çünki İslam dini özündən əvvəlkiləri (keçmişdəki pis əməlləri) silir. Bax bu da bu dinin əhatə etdiyi üstün əxlaqa və yolunun doğruluğuna dair bir

nümunədir. İnkar edən insan inkar etdiyi müddət boyunca İslam və möminlər üçün düşmən olaraq qalır. Xüsusən də, inkarında müqavimət göstərən şəxslər inadkar bir hal nümayiş etdirirlər. Bu şəxslərin çoxusu, bəlkə də, müsəlmanların bir çox əziyyət və sıxıntılara məruz qalmasına səbəb olmuşlar.

İslam dini müsəlmanlara bu şəxslər haqqında qəlblərində bəslədikləri kin və intiqam hissini dərhal kənara atmağı, bunun yerinə onları Allah üçün sevməyi və onlara qarşı din qardaşlığının bütün vacibatlarını yerinə yetirməyi zəruri edir. Bu gözəl əxlaqın İslamın xaricində başqa bir dində, nizamda tam olaraq gerçəkləşməsi mümkün deyil. Çünki qəlblərdəki qərəzləri silib təmizləyəcək və izini tamamilə siləcək, bunun yerinə mərhəmət duyğusunu qoyacaq yeganə varlıq Allahdır.

Allah elçisinin ﷺ zamanında həyata keçən yaşayış da bu mənanı dəstəkləməkdədir. Bu məsələdəki ən gözəl örnəklərdən biri də Ümeyr ibn Vəhb əl-Cumahinin müsəlman olmağına dair nəql edilən xəbərlərdir ki, bu şəxs müsəlmanların ən qatı düşmənlərindən olub, onun Peyğəmbərə ﷺ qarşı düşməncə hərəkətləri olmuş, özünü Peyğəmbəri ﷺ öldürməyə və bunun üçün planlar qurmağa sövq etmişdi.

İbn İshaq bu məsələ ilə əlaqədar xəbərləri açıqlayarkən belə demişdir: "Mənə Urvə ibn Zübeyrdən nəql edilənə görə Məhəmməd ibn Cəfər ibn əz-Zübeyr belə rəvəyət etmişdir: "Bədr döyüşündə qureyşlilərin başına gələnlərdən qısa bir müddət sonra Ümeyr ibn Vəhb əl-Cumahi Safvan ibn Ümeyyə ilə birlikdə "Hicr" deyilən yerdə oturdular. Ümeyr ibn Vəhb Qureyşin şeytani insanlarından biri olub Məkkə

dönəmində müsəlmanların özündən çox sıxıntı çəkdiyi və peyğəmbərə çoxlu əziyyət verən bir şəxs idi. Həmçinin oğlu da Bədr döyüşünün əsirləri arasında idi.

Bədr döyüşündə iştirak edənlər və onların başlarına gələnlərdən söhbət edilərkən  Safvan: "Vallahi, onlardan sonra həyatın heç bir mənası yoxdur", - dedi.

Ümeyr dedi: "Vallahi, doğru deyirsən. And içirəm ki, ödəməyim gərəkən bir borcum və məndən sonra pərişan olmalarından qorxduğum bir ailəm olmasaydı, miniyimə minib düz Məhəmmədi öldürməyə gedərdim. Çünki oğlumun əllərində əsir olması səbəbindən onlardan almalı olduğum bir qisasım var".

Bunu fürsət bilən Safvan dedi: ″Borcunu mən ödəyərəm, ailən həyatda olduğu müddətcə də ailəmlə birlikdə onlara mən baxaram və köməklik göstərərəm. Heç bir şey mənim onları himayə etməyimə mane ola bilməz, çəkindirə bilməz".

Ümeyr dedi: "O halda bu iş aramızda bir sirr olaraq qalsın". Safvan dedi: ″Dediyini olduğu kimi edəcəyəm".

İbn İshaqın nəql etdiyinə görə, Ümeyr bundan sonra qılıncının gətirilməsini istədi. Qılıncı yaxşıca itiləyib zəhərlədikdən sonra yola çıxıb Mədinəyə çatdı. Ömər ibn Xəttab (Allah ondan razı olsun) bir qrup müsəlmanla birlikdə Bədr döyüşündə Allahın onlara və düşmənlərinə göstərdiklərindən bəhs edərkən, birdən qılıncını qurşanmış, narahat bir halda məscidin qapısında dəvəsini çökdürən Ümeyr ibn Vəhbi gördü və dedi: "Bu it Allahın düşməni Ümeyr ibn Vəhbdir. Vallahi, pislik etməkdən başqa bir şey üçün gəlməmişdir".

Daha sonra Ömər ibn Xəttab (Allah ondan razı olsun) Allah elçisinin ﷺ hüzuruna gəlib: "Bu, Allahın düşməni Ümeyr ibn Vəhb olub qılıncını  qurşanmış, narahat bir halda gəlmişdir", -  deyəndə Allahın elçisi ﷺ: "Onu yanıma

gətirin",- dedi.

Ömər ibn Xəttab (Allah ondan razı olsun) Ümeyrin qılıncının kəmərini boğazına dolayıb yaxasından yapışdı və yanında olan ənsarlıya: "Peyğəmbərin yanına daxil olun və onu bu pis adamdan qoruyun",- dedi. Daha sonra Ümeyri Peyğəmbərin ﷺ hüzuruna gətirdi.

Allahın elçisi ﷺ Öməri Ümeyrin boğazına qılıncının kəmərini dolamış bir halda gördükdə: "Ey Ömər, onu burax, ey Ümeyr, sən də yaxınlaş",- dedi.

Ümeyr yaxınlaşıb: ″Sabahınız xeyirli olsun″, - dedi.

Bu salamlama üsulu cahiliyyə dövründən qalma salamlama üsulu idi. Buna qarşılıq olaraq Allahın Rəsulu ﷺ: "Ey Ümeyr, Allah bizə sənin salamından daha gözəl olan Cənnət əhlinin salamını ehsan etdi", - deyə buyurdu.

Ümeyr: "Vallahi, sən bu salamı təzə çıxartmısan, elə deyilmi?"

Allahın elçisi ﷺ: "Səni buraya gətirən nədir?"

Ümeyr: "Bu əsir üçün gəldim. Mənə onun barəsində yaxşılıq edin".

Allahın elçisi ﷺ: "Madam ki, belədir, bəs boynundakı bu qılınc nədir belə?"

Ümeyr: "Allahın çirkin gördüyü qılınclardan bir qılıncdır. Bizə bir faydası olubmu ki?!"

Allahın elçisi ﷺ: "Ey Ümeyr, mənə qarşı dürüst ol, səni buraya gətirən nədir?"

Ümeyr: "Mən bura sadəcə bunun üçün (əsir oğlunu göstərərək) gəldim".

Allahın elçisi ﷺ: "Əksinə, sən və Safvan ibn Ümeyyə Hicr deyilən yerdə oturmuşdunuz, Qureyşdən Bədr döyüşündə iştirak edənlərin vəziyyətindən şikayətləndiniz, sonra sən: "Ödəməyim gərəkən bir borcum və məndən sonra onlar üçün narahat olacağım bir ailəm olmasaydı,

Məhəmmədi öldürmək üçün yola düşərdim", - dedin. Safvan da məni onun üçün öldürməyinin əvəzində borcunu və ailənin məsuliyyətini öz üzərinə götürdü. Vallahi, Allah mənimlə etmək istədiyiniz şey arasında əngəl törətdi.
Ümeyr: "Mən sənin Allahın elçisi ﷺ olduğuna şəhadət edirəm. Ey Allahın elçisi, biz səma ilə gətirdiyin xəbərləri və sənə enən vəhyləri yalan sayırdıq. Sənin anlatdığın bu hadisəni mən və Safvandan başqa heç kim bilmirdi. İndi bilirəm ki, sənə bunu ancaq Allah xəbər verdi. Məni İslam hidayətinə yetişdirən və bu axına qovuşduran Allaha həmd olsun!"

Sonra səmimi bir şəkildə kəlmeyi-şəhadət gətirdi. Bundan sonra Allahın elçisi :ﷺ "Qardaşınıza dinini öyrədin, ona Quran oxudun və onun xətrinə əsirini sərbəst buraxın", - dedi.

Peyğəmbərin ﷺ dedikləri olduğu kimi yerinə yetrildi"[4].

Müsəlman olmadan əvvəl İslamın və müsəlmanların ən amansız düşmənlərindən biri olaraq qarşımıza çıxan Ümeyr ibn Vəhb qısa bir müddətdə möminlər üçün bir qardaş oldu və ona qarşı müsəlmanların içindəki düşmənçilik və kin tezliklə silinib getdi. Bax bu İslamın ucalığının bir göstəricisi və İslamın ilahi bir din olduğunun dəlillərindən bir dəlil sayılmaqdadır. Çünki  bəşəri cəhdlərlə keçmişdən gələn, qəlbdə kök salmış olan kinləri bu qədər tez bir şəkildə silib atmaq olduqca çətindir.

Peyğəmbərin ﷺ müsəlman olmadan əvvəlki dönəmlərində  İslamın ən qatı düşmənlərindən və inkarçıların

[4] Siratu ibn Hişam. 2/337.

ən cəsur ürəklilərindən olan bu iki şəxsi İslam ordusuna rəhbər olaraq təyin etməsi isə daha çox heyrətverici bir hadisədir.

Şübhəsiz ki, səhabələrin bu uca əxlaqı mənimsəmələri, Allaha iman yolunun Allahın metoduna uyğun bir şəkildə qəlblərə yerləşdiyi zaman onun nə qədər təsirli olmasının bir sübutudur. Nöqsanlardan uzaq və uca olan Allah Qurani-Kərimdə müsəlmanların özlərindən daha əvvəl olan səhabə qardaşlarıyla bağlı qəlblərində daşıdıqları hissləri izah etmiş və bu məsələyə dair belə buyurmuşdur: "Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" (Həşr. 10). Burada hədəfi bir etmək və qəlbləri birləşdirmək nöqtəsində iman qardaşlığından daha üstün bir prinsip yoxdur. Bax bu rənglərin, dillərin və cinslərin fərqliliklərinə baxmayaraq, əsl insanların yönəldiyi uca bir mövzudur və onlar bu uca mövzuya yönələrkən xoş olmayan cahiliyyə əlaqələrini dəyərsiz və lazımsız görürlər. Halbuki, onlar daha əvvəllər bu cahiliyyə əlaqələrini toxunulmaz, tənqiddən uzaq və təhrifi mümkün olmayan məsələ hesab edirdilər. Bu uca duada: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla". (Həşr. 10),- müsəlmanların keçmişləri ilə gələcəkləri arasında olması gərəkən ahəng və kamilləşmə bağlı Allahın bir istiqamətləndirməsi vardır. Buna görə də keçmiş (tövhid üzrə olan) nəsillər din qardaşlarımızdırlar. Hər nə qədər aramızda fiziki bir qarşılaşma və tanışlıq gerçəkləşməyibsə də, bütün ruhlar Allah vasitəsilə bir-birinə qovuşmaqdadır.

Bu isə insanların öyrəşdiyi bir vəziyyətin xaricinə çıxmaq

deməkdir. Çünki  insan bərabər yaşadığı, qaynayıb-qarışdığı insanlara qarşı bir yaxınlıq hiss edir. Ancaq özündən daha əvvəl yaşamış olan və aralarında hissi əlaqə (ünsiyyət) olmayan kəslərə qarşı bir yaxınlıq hiss etməz. Fəqət Allaha iman edib onun qoyduğu yolu izləyən möminlər eyni yol üzərində, eyni nizam üzərindədirlər. Buna görə də bu dövrdə yaşayan insan yüz illər keçməsinə baxmayaraq, Adəm ilə onun nəslindən gələn bütün möminlərlə özü arasında bir könül bağlantısı daşıyır.

Eyni zamanda bu insan özündən əvvəl bu dinə mənsub olan və Allahın özlərinə verdiyi iti zəka və sağlam ağılla dinə xidmət edib bu dini ixlasla və sağlam bir şəkildə çatdıran mömin qardaşlarının daha fəzilətli olduqları düşüncəsini daşıyır. Bu səbəbdən də onların bağışlanmağa nail olması üçün dua edir. Onların axirət yurduna köçdükləri üçün sadəcə bu gözəl duaya ehtiyac duyurlar. Bu da onların dini başa düşmək yolunda özlərindən sonra  gələn nəsillərə təqdim etdikləri xidmətlərə və doğru yol göstərmələrinə əvəz olaraq ən gözəl təşəkkür ifadəsi və bu duanın öz cəmiyyətlərində tətbiq edilməsinin ən gözəl nümunələrindən biridir.

Allahın elçisi ﷺ: "Ey Allahın qulları, qardaş olun!"[5],- dediyi zaman bizi bu qardaşlığa yönəldir və bu qardaşlığı bizə əmr edir.  Bu isə cəmiyyətdəki əlaqələrin kəsilməsi və fərdlərin bir-birinə qarşı pis rəftarda olması kimi cəmiyyəti rəzilliyə aparan səbəblərdən qoruyan sağlam bir əhddir.

---

[5] Səhih əl-Buxari. "əl-Fəraid" kitabı. Bab.2; Səhihi Müslim. "əl-Birr". 26.

Allahın elçisi ﷺ buyurmuşdur: "Əgər Rəbbimdən başqa dost (xəlil) seçsəydim, mütləq Əbu Bəkri seçərdim. Lakin onunla aramızda İslam qardaşlığı və onun sevgi bağlantısı vardır"[6].

Bir başqa rəvayətdə isə: "Əgər (bu ümmətdən) bir dost seçməli olsaydım, mütləq Əbu Bəkri dost seçərdim. Ancaq İslam qardaşlığı dostluqdan daha çox üstündür"[7],- deməklə bu qardaşlığın gücünü və dərinliyini izah etmişdir. Peyğəmbər ﷺ sağlam əlaqələrin və ünsiyyətin qurulmasını təmin etmək məsələsində din qardaşlığını özü ilə ﷺ Əbu Bəkr (Allah ondan razı olsun) arasındakı münasibəti örnək verərək açıqlayır. İslamda Allahın elçisi ﷺ ilə Əbu Bəkr (Allah ondan razı olsun) arasındakı münasibətdən daha güclü bir münasibət yoxdur. İman qardaşlığının fərdin inkişafında təsirlərini çox zaman "müsəlman müsəlmanın qardaşıdır" sözündə olduğu kimi, bu cür sözlərlə ifadə etmiş, sonra da bu İslam qardaşlığının doğru şəkildə həyata keçirilməsilə bağlı bəzi uca məqsədlərə xidmət edən tövsiyələr vermişdir. Onlardan biri də: "Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz və onu həqir görməz". Üç dəfə qəlbini işarət edərək (demişdir): "Bax, təqva burdadır. Müsəlmana pislik olaraq öz qardaşını aşağılaması bəs edər. Hər bir müsəlmana digər müsəlmanın qanı, malı və namusu haramdır"[8]. Necə ki bir başqa hədisində də belə buyurmuşdur: "Sizlərdən biri özü üçün istədiyini din qardaşı üçün də istəmədiyi müddətcə tam

---

6 Səhih əl-Buxari. "Fədailüs-Səhabə" kitabı. bab. 3-5.

7 Buxari öz "Səhih" əsərində təxric etmişdir. "Səhabələrin Fəziləti" babı, no. 3-5.

8 Müslim öz "Səhih" əsərində Əbu Hüreyrədən (Allah ondan razı olsun) rəvayət etmişdir. "əl-Birr" kitabı. No: 32.

olaraq iman etmiş olmaz".[9]

Yuxarıda verilmiş misallardan Peyğəmbərin ﷺ İslam qardaşlığına nə qədər yüksək əhəmiyyət verdiyini və buna nə qədər diqqət yetirdiyini anlayırıq. Necə ki bu da İslam cəmiyyətinin əxlaqının islahı və ortaq hədəf olan "Allahın sözünün uca tutulması" hədəfinin idarəsi istiqamətində özünün gözəl bəhrələrini vermişdir. Sonda bu hədəf gerçəkləşmiş və bütün insanların ədalətli İslam hökmü altında rəhmət və adilliyi hiss etdiyi bir beynəlxalq cəmiyyət qurulmuşdu.

## İslam qardaşlığının xüsusiyyətləri

Bundan əvvəlki fəsildə İslamın dünya miqyasında ona inananlar arasında iman qardaşlığına nə dərəcədə böyük əhəmiyyət verməsi bizə aydın oldu. Bu fəsildə isə bu İslam

[9] Müslim öz "Səhih" əsərində Ənəsdən (Allah ondan razı olsun) rəvayət etmişdir. Cild 1. No: 13.

qardaşlığının seçilən xüsusiyyətlərindən bir qismini təqdim etməyə çalışacağıq.

İslam qardaşlığının xüsusiyyətlərindən bəzilərini bu şəkildə məzmunlara ayırmağımız mümkündür:

**1 - Mənbəyinin ucalığı**

Möminlərin qəlbləri arasındakı İslam qardaşlığı əlaqəsi uca Allah tərəfindəndir. Həqiqətən də, buna işarə olaraq bu ayədə deyilmişdir: "Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi". (Ənfal. 63).

Bu qardaşlığın fövqünə yüksələn insani qardaşlığın ortaya çıxarılması üçün bəzi bəşəri cəhdlər də olmuşdur. Ancaq indi bu cəhdlərlə Allahın bütün insanlar üçün qoyduğu sevgi və qardaşlıq əlaqələri arasında müqayisə etməyin yeri deyil. Çünki İslami anlayışın özündə bir naqislik və xələl yayılmasının imkansız olduğu ilahi dinin hər hansı bir cəhəti ilə kamilliyə çatmamış naqis bəşəri düşüncə ilə qiyas olunması mümkünsüzdür. Bu müqayisə fikri möminin zehnindən və araşdırma metodundan çox uzaqdır. Çünki Allahın metodu ilə bəşərin metodu arasında qiyas etmək, İslami düşüncə nöqteyi-nəzərindən tam bir çöküş və Allahın dininin qədir-qiymətini aşağı göstərməkdir, belə ki bu müqayisə bəşər düşüncəsini bundan daha üstün və uca görmək mənasını daşıyır.

Deməli, İslam qardaşlığının ən böyük seçilən xüsusiyyəti onun Allah tərəfindən olmasıdır. Uca Allah isə dünya və axirətdə nələrin insanlığın xeyrinə olduğunu ən yaxşı biləndir.

**2 – Qəlbləri bir-birilə birləşdirməklə üstün bir gücə malik olması**

Uca Allah: "Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin" (Ənfal. 63), - sözü ilə bütün ərəblərin qəlblərinin (hansı ki onlar bütün müsəlmanların birləşdirilməsində ilk kərpiclərdir) tək bir hədəf istiqamətində birləşməsinin mümkün olmadığına işarət edir. Hətta insanların qəlblərinə təsir göstərmək kimi seçilmiş xüsusiyyətləri olan bir Peyğəmbər ﷺ belə bu yolda yer üzündəki bütün xəzinələri xərcləsə, yenə onun bunu gerçəkləşdirməsinin mümkün olmadığını ifadə edir. Bu halı Peyğəmbərin ﷺ göndərilməsindən öncə bütün dünyanın və ərəblərin reallığı, həmçinin Peyğəmbərin ﷺ göndərilməsi və İslamın yayılmasından sonrakı reallıq təsdiqləyir.

**3 - Təməlli quruluşu və dərinliyi**

İslam qardaşlığının dərinliyi və qəlblərdə kök salması kimi xüsusiyyətləri də var. Bu səbəbdən də Allah rzası üçün qardaş olanlar arasında belə bir qardaşlıq bağı gerçəkləşdiyi zaman bu qəlbə yerləşir və qəlbi öz nəzarətinə alır. Bu uca əlaqəyə əməl edildiyi müddətcə, artıq o qəlbdə bundan başqa bir münasibətə yer qalmır və yalnız bu qardaşlıqla bağlı əlaqələr o qəlbə hakim olur.

Allahın elçisi ﷺ bu qardaşlığın gücünü belə ifadə etmişdir: "Əgər Allahdan başqa bir dost seçsəydim, mütləq Əbu Bəkri dost seçərdim. Ancaq onunla aramızda İslam qardaşlığı və onun sevgi bağlantısı vardır". Başqa bir

rəvayətdə isə: "(Bu ümmətdən) bir dost seçməli olsaydım, Əbu Bəkri dost seçərdim. Lakin İslam qardaşlığı dostluqdan daha üstündür"[10], - deyə buyurmuşdur.

İslam qardaşlığının gücünü artıran səbəblərdən biri də Allahın  rzası üçün qardaş olanlara Allahın axirətdə hazırladığı mükafatdır. Bu səbəbdən də müsəlman kimsə axirətdə savabını umaraq İslam qardaşlığına və bunun töhfəsi olan gözəl davranışlar etməyə daha çox yönələr. O bunu sırf qarşılıqlı hisslər üçün gözəl davranışlar etdiyi zaman bunu mükafatlandıran kimsələrin mükafatını almaq üçün etməz. Əgər onun bu davranışları Allah rzası və axirət  savabı qazanmaq niyyətindən uzaq olaraq İslam qardaşlığı üzərinə bina edilməmişsə, o zaman bu edilənlər bir ticarət yönümlü mənfəət istəyinə dönər ki, bu da dərinlik (qardaşlığın qəlblərdə kök atması) və sağlamlıq xüsusiyyətlərini özündə daşımış sayılmaz.

İslam qardaşlığının dərinliyini təsvir edən örnəklərdən biri də Musab ibn Umeyrin (Allah ondan razı olsun) Bədr döyüşündəki davranışıdır. Musab qeyri-müsəlmanların sıralarında olan doğma qardaşı Əbu Əzizi Ənsardan birinin əsir etdiyini gördüyü zaman onda əsla nəsil qardaşlığı hissinə qapılma baş vermədi, əksinə, nəsil qardaşlığı ilə İslam qaradaşlığı rabitələri onun nəfsində qarşı-qarşıya gəldiyi zaman o yalnız İslam qardaşlığını seçdi.

Musabın qardaşı Əbu Əziz hadisəni belə rəvayət edir: "Qardaşım Musab ibn Umeyr məni əsir edən Ənsarın yanına gəldi və dedi: "Onu bərk tut, çünki anasının mal-mülkü çoxdur, ola bilsin ki, sənə ondan fidyə verər". Bundan sonra

---

[10] Mənbəsi əvvəldə qeyd olundu.

Əbu Əziz: "Mənim üçün edəcəyin tənbeh budurmu?", - dedi.

Musab (Allah ondan razı olsun) belə qarşılıq verdi: Sən qardaşım deyilsən, əslində mənim qardaşım odur"[11].

## 4 – Davranışlara güclü təsiri

İslam qardaşlığının bir başqa seçilən xüsusiyyəti də onun insanın davranışlarına fəal təsiridir. Bu fəallıq, bu qardaşlıq üçün yardımlaşma, sevgi, mərhəmət, özünə istədiyini başqasına istəmək kimi bəzi təbii xüsusiyyətlərin ortaya çıxarılmasında özünü göstərməkdədir. Allahın elçisi ﷺ bunu: "Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz buraxmaz və onu aşağılamaz"[12],- sözünü özünün doğru davranışlara yönəldən uca tövsiyələrini etməkdə bir müqəddiməyə çevirmişdi. Bu cür bir İslam qardaşlığına səhabələrin (Allah onların hamısından razı olsun) Mədinə dövründə qurduqları cəmiyyəti nümunə olaraq göstərmək olar. Allahın elçisi ﷺ Evs və Xəzrəc qəbilələrini bir-birilə, onları da mühacirlərlə qardaş edərkən bu qardaşlığın fəallığı cəmiyyətin ümumi inkişafında özünü göstərdi. Belə ki bəşər tarixində öz istədiyini qardaşı üçün istəməyin ən möhtəşəm nümunələri müşahidə edildi. Uca Allah: "Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar" (Həşr. 9), - ayəsilə Ənsarın bu gözəl əxlaqını tərifləmişdir. Bu isə öz istədiyini başqası üçün istəməyin ən yuxarı dərəcəsidir.

İmam Buxari bu ayənin nazil olma səbəbi ilə əlaqədar Əbu Hüreyrədən (Allah ondan razı olsun) gələn belə bir hədis

---

[11] Bax: Siratu ibn Hişam. 2/336.
[12] Bu hədis və onun haqqında söhbət əvvəldə keçdi.

rəvayət etmişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib: "Maddi sıxıntıya düşmüşəm",- deyərkən Peyğəmbər ﷺ xanımlarına xəbər göndərdi, ancaq onların yanında yeməyə bir şey tapılmadı. Bundan sonra o belə buyurdu: "İçərinizdə bu şəxsi bu axşamlığa müsafir edəcək bir şəxs varmı ki, beləcə, Allah da onu bağışlasın?" – Ənsardan biri qalxıb: "Ey Allahın elçisi, mən müsafir edərəm!...", - dedi və bu şəxsi götürüb evinə apardı. Evinə çatanda xanımına: "Bu şəxs Allah elçisinin qonağıdır. Ondan heç bir şeyi əsirgəmə", - dedi. Xanımı da: "Uşaqların axşam azuqəsindən başqa bir şeyim yoxdur",- dedikdə ənsarlardan olan şəxs dedi: "Uşaqlar axşam yemək istəyəndə onları yatızdır və gəlib işığı söndür. Qoy bu gecə də ac yataq". Xanımı da deyilənləri olduğu kimi etdi. Ənsarlı şəxs ertəsi gün də Allah elçisinin hüzuruna gəldikdə Allahın elçisi ﷺ dedi: "Filankəs və filankəsin etdiyindən Allah çox razı qaldı",- dedi. Bu hadisədən sonra uca Allah: "Hətta özləri ehtiyac içində olsalar belə", - ayəsini nazil etdi[13]".

## 5 - Davamlı və sabit olması

Sağlamlıq və davamlılıq, İslam qardaşlığının digər bir seçilən xüsusiyyətidir. Bu qardaşlıq zaman keçsə də, ardıcıl hadisələr ortaya çıxsa da, zədələnməz, əksinə, bu onun sabitliyini və möhkəmlənməsini artırar. Bunun təməl səbəbi isə sadəcə Allah üçün sevmək və Allahın rzasını ummaqdır. Bu səbəb könüllü şəkildə edildiyi və canlı tutulduğu müddətcə bu qardaşlıq nə zəifləyər, nə də yox olar. Başqa əlaqələrə gəldikdə isə bunlar bir sıra bəsit səbəblərin əsiridirlər, çox zaman bu səbəblərdən törəyən münasibətlər

---

[13] Səhih əl-Buxari, "Həşr surəsinin təfsiri" kitabı. No: 4889.

davamiyyətli olmur. Bu səbəbdən həmin əlaqələr səbəblərinin kəsilməsi ilə sona çatır.

İslam qardaşlığı sadəcə bu dünya həyatı ilə məhdud deyil. Əksinə, bu qardaşlıq axirətdə də davam edir. Mömin kimsə bu dünyada digər bir möminin qardaşıdır və uca Allahın: "Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar"(Hicr. 47), - ayəsində də işarə etdiyi kimi bu qardaşlıq  qiyamət günündə də, cənnətdə də əbədidir. Ancaq möminlərin cənnətdə gözlənilən qardaşlıqları dünyadakı qardaşlıqlarından daha mükəmməl olacaqdır. Buradakı qardaşlıq qərəzin və kinin silinib atılmasından sonrakı saf və səmimi bir qardaşlıqdır. İslam qardaşlığı xaricində, insanlar arasında mövcud olan digər əlaqələr isə uzun sürsə də, dünya həyatının sona çatması ilə aradan qalxar və uca Allahın: "O gün Allaha qarşı asi olmaqdan çəkinənlər istisna, dost olanlar bir-birlərinə düşmən kəsilərlər"(Zuxruf. 67),- ayəsinə müvafiq olarlar.

Dostlar bir-birlərini sevən kimsələrdir, sevgi isə dostluğun təməlində duran səbəblərdəndir. Dünyəvi mənfəət üçün bir-birini sevənlər axirətdə bir-birinə düşmən olduqları halda, Allah üçün bir-birlərini sevənlərin dostluğu axirətdə də eynilə davam edəcəkdir.

## 6 - Ümumi və beynəlxalq olması

İslam qardaşlığının ən seçilən xüsusiyyətlərindən biri də onun ümumi və beynəlxalq olmasıdır. Müsəlman eyni dinə mənsub olmaq şərtilə Allah rzası üçün bütün insanları qardaş qəbul etməklə və cahiliyyə dəyərlərindən hansı biri olursa-olsun, bunlardan heç biri üçün müsəlmanlar arasında fərq qoymadan hamısı ilə münasibətlərində qardaşlıq üzrə rəftar etməklə əmr olunmuşdur. Çünki İslam dini sadəcə bəzi kütlələrə deyil, bütün insanlara xitab etməkdədir: "Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə, Allahdan qorxasınız". (Bəqərə. 21). Uca Allahın başqa bir ayədə buyurduğu kimi: "Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir Peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir". (Səba. 28). Allahın elçisi ﷺ sadəcə ərəblərə deyil, bütün insanlığa göndərilmişdir.

Cabirdən (Allah ondan razı olsun) gələn rəvayətə görə Allahın elçisi ﷺ belə buyurmuşdur: "Mənə məndən öncə heç kimsəyə verilməyən beş cəhət verildi: Bir ay əvvəlcədən düşmənin qəlbinə qorxu salmaq ... Əvvəlki qövmlər sadəcə öz qövmlərinə göndərildikləri halda, mən bütün insanlara göndərildim"[14].

Bu səbəbdən də Qurandakı xitablar əsasən "Ey İsrailoğulları", "Ey qövmüm" şəklində xüsusi olaraq deyil, "Ey insanlar", "Ey iman gətirənlər" şəklində ümumi bir ifadə tərzi ilə gəlmişdir. Ona görə də beynəlxalq bir din olan bu son

---

[14] İmam Buxari "Səhih" əsərinin "Təyəmmüm" kitabında rəvayət etmişdir. No: 335. Rəvayət müxtəsər olaraq verildi.

dindəki "İslam qardaşlığı" anlayışı tarixdə ilk dəfə cins fərqliliklərinə baxmayaraq, insanları bir araya gətirən qardaşlıq anlayışıdır.

### 7 - Məsuliyyət hissiylə yaşamağın vacibliyi

İslam qardaşlığının ən bariz seçilən xüsusiyyətlərindən bir digəri isə İslamın müsəlmanlara İslam qardaşlığı ilə əlaqədar məsuliyyət hissini zəruri etməsidir. Müsəlman öz müsəlman qardaşına görə məsulliyyət daşıyır. Buna görə də Peyğəmbərin tövsiyələrində dürüst davranış məsələsi iman qardaşlığı ilə birlikdə xatırladılmışdır. Bunun ən gözəl nümunələrindən biri isə Allahın elçisinin ﷺ bu sözüdür: "Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu aşağılamaz və onu yardımsız qoymaz"[15].

İslam dini müsəlmanların bir-birinə yardım etməsini də eyni şəkildə zəruri etmişdir. Bu isə məzlumun üzərindəki zülmü qaldırmaq, zalımı da zülmdən çəkindirməklə olur. Bu haqda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Zalım da olsa, məzlum da olsa, qardaşına yardım et". Buna cavab olaraq səhabə: "Ey Allahın elçisi, məzluma məzlum olduğu üçün yardım edəcəyik, lakin zalıma necə yardım edə bilərik?" Peyğəmbər ﷺ buyurdu: "Onu zülmündən çəkindirməklə[16]". Müsəlmanın, zalımların həddi aşmalarını azaltmaq və zəifləri qurtarmaq üçün içində olduğu cəmiyyətdə cərəyan edən hadisələrdən xəbərdar olması gərəkdir.

[15] Bu hədis əvvəldə tam şəkildə keçdi.
[16] Buxari, "Məzalim" kitabı. No: 2244.

# İslam qardaşlığını gücləndirən və sabit edən amillər

Hökmlərinin bir-birini tamamlaması və ahəngdarlıq içində olması cəhətləri İslam dininin ən bariz xüsusiyyətlərindən biridir. Beləcə, görürsən ki, din hansısa bir əmrlə mükəlləf edir, eyni zamanda da bu əmr İslamın hansısa təməllərindən birini inkişaf etdirir, o təməl ki, müsəlmanların (fərdlər və camaat olaraq) İslami həyatları bunun üzərində dayanır.

Bu təməllərdən biri də İslam qardaşlığıdır. Biz bir çox İslami əmr və qadağalarda bu qardaşlığı gücləndirən və sabitləşdirən, onu bölünmədən və zəiflənmədən qoruyan amillərin olduğunu görə bilərik.

İslam qardaşlığını inkişaf etdirən və onu sabitləşdirən ən önəmli məsələlərdən bəziləri bunlardır:

## 1 - Ortaq hədəf

Məlumdur ki, bütün müsəlmanların özü üçün istədiyi ortaq hədəf Allahın razılığını, dünya səadətini əldə etməkdir. Bu cəhət isə uca Allahın səhabələri (onunla) təriflədiyi bir hədəfdir. "Allahdan lütf və razılıq istəyərlər...". (Fəth. 29). Allahın lütfü cənnət, razılığı isə bundan daha üstün bir şeydir.

Şübhəsiz ki, eyni yolda irəliləyərək kütlə halında ortaq bir məqsədi arayıb-axtaranlar arasında bir birlik və ahəng meydana gəlir. Əgər dünyəvi bir hədəf uğrunda belə bir şey ortaya çıxa bilirsə, bəs bu hədəf axirət yurdu və Allah rzası üçün olarsa, o zaman vəziyyət nə qədər mükəmməl olar?

Hətta onların arasında bu qardaşlığı əmr edən ilahi əmrlər olmasaydı belə, müsəlmanların sadəcə bu hədəfi təsəvvür etmələri, buna sidq-ürəkdən inanmaları və bunu

düşünmələri, aralarında İslam qardaşlığı bağlantısı olanları bir-birinə isindirməyə bəs edərdi.

Bu ona görədir ki, bu hədəfə çatmaq qayəsini gerçəkləşdirmək istəyi, bu yolun yolçularına bu hədəfə çatmaq üçün kütlə halında irəliləyərkən bir-birlərini sevən qardaşlar olmağı, aralarındakı heç bir anlaşılmazlıq və qərəzin onları bu hədəfdən çəkindirə bilməməsini zəruri edir. Hədəfə çatmaq yolundakı yarış, hal-hazırda olan dünyəvi hədəflərini əldə etməkdə olduğu kimi pis bir rəqabət və mənfəət qarşıdurmasına aparmaz. Çünki dünyalıq hədəflərdə "mənəm-mənəmlik" və lovğalıq ortaya çıxır, bu zaman qalib gələnlər isə daha güclü və daha çox hiyləgərlik edənlər olur. Bunun qarşılığında sadiq möminlər isə uca olan ortaq hədəflərinə doğru gedərkən özlərinə istədiklərini qardaşları üçn də istəyərlər və məhəbbət içində xoş vaxt keçirərlər. Onların içində qardaşlarını öz yerinə (öz nəfsi üçün istədiklərini özündən çox qardaşları üçün istəyənlər) əvəz edən və özünü onlara xidmətə həsr edənlər hədəfə ən tez çatanlardan olarlar.

## 2 - Allah üçün sevmək

Sevgi qardaşlıq anlayışının ən güclü amilidir. Bu səbəblə əlaqədar olaraq İslam dini bir-birini sevməyə və bir-birinə məhəbbət bəsləməyə təşviq etmişdir. Möminlərin bir-birini sevmələri də Peyğəmbərin ﷺ: "İman etmədikcə cənnətə girməzsiniz, bir-birinizi sevmədikcə də tam iman etmiş olmazsınız. Sizə onu etdiyiniz təqdirdə bir-birinizi sevməyinizə vəsilə olacaq bir şeyi deyimmi? Aranızda salamı yayın[17]",-

---

[17] Müslim "Səhih" əsərinin "İman" kitabında Əbu Hüreyrədən rəvayət

sözündə olduğu kimi, salamı imanın lazımlı bir hissəsi hesab etmişdir. Peyğəmbərin ﷺ də bildirdiyi kimi, cənnətə girmək və kamil bir imana sahib olmaq sevgi ilə əlaqəlidir. Hədisin son qismi isə bizə sevginin yollarından birini öyrədir ki, o da "cəmiyyətdə yayılmış bir hal almasıdır". Çünki o, sevgi və qardaşlıq münasibətlərini gücləndirir, köhnə münasibətlərdən axsayanları təzələyir.

İslamın aşıladığı sevgi Allah rzası üçün sevməkdir. Buna işarət edən Allahın elçisi ﷺ bir qüdsi hədisdə uca Allahın belə dediyini xəbər verir: "Mənim cəlalım yolunda bir-birini sevənlər haradadır? Mənim kölgəmdən başqa kölgə olmadığı bir gündə onları kölgələndirəcəyəm"[18]. Burada təkcə Allahın bu böyük mükafatı özləri üçün hazırlatdırdığı kəslər kölgələnə biləcəklər. Uca Allahın: "O gün müttəqilərdən başqa bütün dostlar bir-birinə düşmən kəsiləcəklər"(Zuxruf. 67),- ayəsində işarə etdiyi kimi, Allah üçün sevmək təsirini dünyada və axirətdə göstərəcək olan sağlam və güclü bir sevgidir. Bunun xaricində başqa məqsədlər üzərində qurulmuş sevgilər isə zəif və cılız olub, səbəblərinin itirildiyi zaman özləri də itən sevgilərdir. Kütləvi və fərdi əlaqələrin üzərində qurulan sevgini canlı saxlayan bir çox səbəblər vardır. Məsələn: Qohumluq, eyni dil, vətən, rəng kimi ünsürlər bunlardan bəziləridir. Ancaq İslam dini bu cür münasibətləri cahiliyyə dövrünün münasibətlərindən saymaqdadır.

Fəqət qohumluq sevgisilə din sevgisinin birgə olmasına heç bir maneə yoxdur. Həmçinin uca Allahın: "Allaha və

---

etmişdir. No: 93.

[18] Müslim "Səhih" əsərinin "İman" kitabında Əbu Hüreyrədən rəvayət etmişdir. No: 93.

Axirət gününə iman gətirən elə bir camaat  tapa bilməzsən ki, onlar Allaha və Onun elçisinə düşmən olanlarla (öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə) dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır"(Mücadilə.22),- ayəsində ifadə etdiyi kimi, din birliyi səbəbilə qohuma olan sevgi, din birliyi sona çatdıqda qohumluq əlaqəsi də kəsilə bilər. Bax bütün müsəlmanların səhabələrin yolunu izləmək surətilə bu uca prinsipə tabe olmaları lazımdır. Hətta, səhabələr Allah rzası üçün müsəlman olmayan qohumlarından uzaqlaşdılar və yeri gəldikdə qohumları ilə qarşı səflərdə dayandılar. Qohumluq və qan bağlılığı əsla onların din qardaşlığı şüuruna qalib gəlmədi. Bu hadisənin zehinlərdə canlandırılması, bəlkə, bir az asan bir şeydir. Ancaq bunu gündəlik həyatda tətbiq etmək elə də bəsit bir şey deyil. Bunu ancaq imanı hiss və düşüncələrini əhatə etmiş, məqsədləri bir olan, güclü bir imana sahib olan, bu səbəblə də geriyə dönüb Allah rzasından başqa heç bir şeyə fikir verməyən şəxslər edə bilərlər. O zaman insanlar gərək bir-birilə zidd gələn sevgiləri qəlblərindən çıxarsınlar ki, bu bir-birinə zidd gələn sevgilər qəlbdə toqquşmasın. İnsan ya sadəcə Allahı, ya sadəcə bütləri, ya  sadəcə müsəlmanları və ya sadəcə qeyri-müsəlmanları sevir, ya sadəcə İslamın metodunu sevir, ya da qeyri-müsəlmanların metodunu sevir. Ancaq bu ziddiyyətli sevgiləri bir-birinə qarışdıran kimsə həqiqi mömin deyildir. Bu səbəbdən də Peyğəmbər ﷺ belə demişdir:

"Kimdə bu üç xüsusiyyət varsa, o həqiqətən imanın

dadını bilmişdir: Allah və elçisinin ona hər şeydən daha sevimli olması, sadəcə Allah üçün sevməsi və atəşə atılmağı xoşlamadığı kimi, Allahın onu iman vəsiləsilə qurtarmasından sonra yenidən küfrə düşməkdən xoşlanmaması"[19].

İmanının şirinliyi möminin duyduğu sükunət və daxili hüzurudur. Lakin insan könlünün sevgisini Allaha, Allahın elçisinə, İslama və müsəlmanlara aid etmədikcə bu da mümkün deyildir.

Uca Allah qohum olsalar belə, qeyri-müsəlmanlarla dostluq etməyi bizə qadağan etmiş və bu məsələdə belə buyuraraq cahiliyyə münasibətlərində qalanları şiddətli bir əzabla təhdid etmişdir:

"Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır. De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz". (Tövbə. 23-24).

Habelə möminlərin bir-birinə olan sevgisi sadəcə Allah üçün sevmək təməlinə söykənməli və özlərindən maddi bir mənfəət əldə etdiyimiz kəslər (birlikdə işlədiyimiz) qohumlarımız olsalar belə, əgər onlar qeyri-müsəlman və münafiqdirlərsə, onları sevməməyimiz lazımdır. İslam

---

[19] Buxarinin "Səhih" əsərində "İman" kitabında Ənəsdən rəvayət olunmuşdur. No: 16.

qardaşlığının qurulmasında və onun sağlamlaşdırılmasında sırf Allah üçün sevməyin əhəmiyyətinə bağlı olaraq Peyğəmbər ﷺ bu qardaşlıq anlayışını gerçəkləşdirənlərə Allahın hazırladığı mükafatı belə xəbər vermişdir:

"Ey insanlar! Dinləyin, düşünün və bilin ki, Allahın elə qulları vardır ki, şəhid və Peyğəmbər olmadıqları halda, Allaha olan yaxınlıqları və məqamlarının böyüklüyü səbəbilə Peyğəmbərlər və şəhidlər onlara qibtə edərlər".

Kütlədən uzaqda yaşayan bir bədəvi gəlib diz çökdü və Peyğəmbərə ﷺ əlilə işarət edərək: "Peyğəmbərlərdən və şəhidlərdən olmayıb adi insan olduqları halda, Allaha olan yaxınlıqları və Allah qatındakı yerləri səbəbilə Peyğəmbər və şəhidlərin onlara qibtə etdiklərini deyirsən. Bu insanları bir az bizə izah edə bilərsənmi, yəni xüsusiyyətlərindən bir az bəhs edə bilərsənmi?

Bədəvinin bu sualı qarşısında üzü gülən Peyğəmbər ﷺ dedi: "Onlar aralarında qohumluq əlaqəsi olmayan bir kütlədir. Buna baxmayaraq, yalnız Allah üçün bir-birlərini sevərlər və bir-birlərinə qarşı son dərəcə saf duyğular daşıyarlar. Bu səbəblə Allah Qiyamətdə onlara nurundan minbərlər verər ki, onlar da orada əyləşərlər, bu da üzlərini və paltarlarını nurlandırar. Qiyamət günü insanları qorxu sardığı halda onları qorxu sarmaz. Onlar o gün kədərlənməz, qəmlənməzlər və onlar Allahın dostlarıdırlar".

Bu hədisi Hafiz əd-Dimyati nəql etmiş və bu hədis haqqında bunları demişdir: "Bu hədisi Əhməd ibn Hənbəl "həsən" (yaxşı) bir sənədlə rəvayət etmişdir. Həmçinin Əbu Yəla və Hakim də bu hədisi nəql ediblər. Bu hədis səhihdir"[20].

---

20 əl-Mətcər ər-Rabih. Səh. 446. No: 1783.

Hədisdə keçən "şəhidlər və peyğəmbərlər onlara qibtə edərlər" ifadəsi onların buna peyğəmbərlik və şəhidlik kimi fəzilətlərinin olmadığı bir halda, bu dərəcəni əldə etmələrinə diqqəti çəkir. Burada peyğəmbərlərin və şəhidlərin bu dərəcəyə layiq olmayacaqları mənası qəsd edilmir. Əksinə, ən birinci peyğəmbərlər bu məqama layiq olacaqlar. Çünki, onlar bəşər övladları arasında kamillik sifətlərini daşıdıqlarına görə kamil mükafat alacaqlar. Həmçinin bəzi şəhidlər Allah yolunda şəhadət və Allah üçün sevmək kimi iki cəhətə eyni anda sahib olduqlarına görə onlar üçün də tamamilə (xüsusi) gözəlliklər vardır. Bax biz bu gözəl mükafatlardan Allah üçün sevməyin nə qədər böyük bir şey olduğunu anlayırıq. Çünki İslam qardaşlığının təməli bunun üzərində qurulur, bununla möhkəmlənir və müsəlmanların sosial həyatında ən təsirli bir vasitə olacaq qədər də üstün bir dəyər qazanır.

### 3 – Camaatla ibadətə davam etmək

Uca Allah müsəlmanın çox zaman fərdi olaraq əda edəcəyi təhəccüd namazı və s. nafilələrdən ibarət olan ibadətlər təyin etmişdir.

Bununla belə bütün müsəlmanların camaat halında edəcəkləri hökmlər də təyin etmişdir. İslam cəmiyyətinin ən böyük nişanələrindən olan məscidlər camaat halında namaz qılmaq üçün inşa edilmişdir.

Məscid məhəllə camaatının toplaşdığı bir mərkəzdir. Məscid səbəbilə insanlar tanış olurlar. Məsciddə tez-tez qarşılaşmaq surətilə də müsəlmanların zaman keçdikcə bir-birlərinə qanları qaynayır. O, İslam ümmətini bir araya cəm edən və İslam qardaşlığı rabitəsinin güclənməsini təmin edən səbəblərdən biridir. Məscidlər sayəsində insanlar qonşularının halından və vəziyyətindən xəbərdar olur, onlardan xəstə

olanları ziyarət edər, sıxıntıda olanların ehtiyacı olduqda onlara köməkçi olar, ailəsindən uzaq olanların ailəsinin qayğısına qalar və qonşusunun olmadığı müddət ərzində qonşusunun ailəsi üçün etdiyi xeyirxah əməllərdən eynisini edər, borcu olub ödəyə bilməyənə və ya bir müsibətə düçar olana sıxıntısı qurtarana qədər malları ilə dəstək olarlar. Beləcə, eyni məhəllənin insanları tək bir ailə kimi olarlar.

Məscidlər olmadan insanların bir-birilə tanış olub ülfət qurması bir az çətindir. Belə bir cəmiyyətdə axırda lovğalıq və eqoistlik hakim kəsilər. Kasıb və xəstə kimsələr özlərinə uzanan bir yardım əli tapmaz, özlərilə qonşuları arasında bir ülfət və mehribançılıq bağlantısı olmadığı üçün ailəsini tək qoyub evindən ayrılan insanın da gözü intizarda qalar.

İslamdan uzaqda olan cəmiyyətlərdə belə bir yaşayış davam edər. Çünki belə cəmiyyətlər sosial yardımlaşma və qardaşlıq anlayışını ortaya çıxaran dəyərli prinsiplərə sahib deyillər.

Eyni məhəllə bəzən zənginlik və hörmət baxımından bir-birindən fərqli müxtəlif təbəqələrdən olan insanlar cəm edir. Bu fərqliliklər nəticəsində ev, minik, geyim və s. həyat göstəriciləri bir-birindən fərqlənir. Bu fərqli həyat göstəriciləri fərqli siniflər arasında boşluğun artmasına səbəb olur. Çünki möhtəşəm villalarda yaşayan, bənzərsiz maşınlara minən şəxslər mütəvaze evlərdə sadə bir həyat yaşayan insanlara qarşı lovğalıq edərlər. Həmçinin bu sadə insanlar da bu nüfuzlu insanlarla tanış olmaq üçün elə də bir cəhd etməzlər. Çünki onlar bunları özlərindən daha üstün bir təbəqə olaraq görərlər. Bununla da ictimai əlaqələr bir-birindən qopmuş olur və bu təbəqələrin fərdləri arasında bir anlaşılmazlıq baş

verir. Beləcə, İslam qardaşlığı zəifləyir və ictimai yardımlaşma amilləri gücdən düşər. Nəhayət, cəmiyyətdə əmin-amanlıq pozular, təcavüzkarlıq halları artar və cəmiyyətin bəzi hissələri son dərəcə sıxıntı və iztirab içində bir həyat sürər.

Ancaq məscidlərin varlığı ilə bu fərqliliklər aradan qalxar. Çünki birinin digərinə heç bir üstünlüyü olmadan bir imamın arxasında bir səfdə dayanarlar. Bu vəziyyət, camaatla namaz qılmayan nüfuzlu insanların kasıb insanlara qarşı hər zaman üstün olmayacaqlarını anlamaları üçün bir fürsətdir. Beləcə, onların cəmiyyətdəki kasıb insanlara qarşı qəlblərindəki üstünlük iddiası vaxt keçdikcə zəifləyər. Həmçinin bu vəziyyət kasıbların əziklik hissindən xilas olmaları, kasıbların varlılarla yanbayan səfdə dayanmasına mane olan bir şey olmadığını anlamaları üçün bir fürsətdir.

Bu səbəbdən də məsciddə camaatla qılınan namaz insanın təkcə qıldığı namazdan iyirmi yeddi dəfə daha fəzilətlidir.

Buxari bu mövzuda İbn Ömərdən (Allah ondan razı olsun) gələn bir rəvayətdə Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: "Camaatla qılınan namaz fərdi olaraq kişinin evində və ya bazarında qıldığı namazdan iyirmi yeddi qat daha fəzilətlidir"[21]. Bu hədisdə dəlil var ki, camaat namazına bu savab yalnız məsciddə qılındığı zaman verilir.

Məhəllə məscidi dostluq və tanışlığın başlanğıc nöqtəsidir. Çünki məscidin mənəvi ab-havasında camaat namazı qılmaq

---

[21] "Səhih əl-Buxari", "Namaz" kitabı. Hədis no: 645-647.

vəsiləsilə fərdlərin davamlı olaraq qarşılaşması, qardaşlıq və dostluq məsələlərində müsəlmanların daşıdıqları məsuliyyətləri xatırlatması səbəbilə məhəllə məscidi müsəlman kütləni bir-birinə yaxınlaşdıran ən əhəmiyyətli vasitələrdən biridir.

Müsəlmanların cümə günündə ya eyni kənddə yığışması, ya da şəhərin bir qisim əhalisinin məsciddə yığışması səbəbilə bu ünsiyyət və qardaşlaşma daha geniş bir tanışlığın və daha əhatəli bir qaynaşmanın ilk mərhələsi olur. Müsəlman camaatın bir çox məscidlərdə və digər yerlərdə başladıqları qardaşlıq anlayışını tamamlamaq nöqtəsində xətibin üzərinə böyük vəzifələr düşür. Bu vəzifə isə onları iman qardaşlığının mənalarına fikirləri cəmləşdirməyə və müsəlmanların camaatı ilə bir yerdə olmağa təşviq etməklə olur. Ta ki müsəlmanlar məsciddən çıxarkən Allah üçün özlərinə qardaş olanların sayının çox olduğunu hiss etsinlər və kifayət edir ki, onlar cümə günü bu böyük kütləni müşahidə etsinlər.

Bir müsəlmanın cümə günü məsciddəki ümmətdən olan bütün din qardaşları ilə tanış olması, əlbəttə ki, mümkün deyil. Ancaq onunla birlikdə eyni məsciddə namaz qılan bu şəxslərin hamısının onun iman qardaşları olduğunu bilməsi və bu insanların dünyanın digər yerlərində olan din qardaşlarının böyük toplumlarının yalnız bir nümunəsi olmasını hiss etməsi ona kifayət edir.

İslam qardaşlarına məsuliyyətlərini xatırlamaq, davamlı olaraq camaatla olmaq mövzusunda müşavirə etmək, cümə günü xütbə verənin üzərində ciddi dayanması gərəkən əhəmiyyətli mövzulardan biridir. Çünki bu, camaatla namaz

qılmaq və cümə namazı məsələsində qoyulan hökmlərin müəyyənləşməsini təmin edir.

İslam dinində cümə namazının son dərəcə vacib olmasıyla bağlı cümə namazını tərk edən kəslər məruz qalacaqları cəzalarla şiddətli bir şəkildə təhdid ediliblər. Bu məsələdə İmam Müslim, Əbu Hüreyrə və İbn Ömərin Peyğəmbərdən ﷺ belə bir hədis eşitdiklərini nəql edir: "Cümə namazını tərk edənlər, bu etdikləri işə son qoysunlar, yoxsa, Allah onların qəlblərini möhürləyər və qafillər tayfasından olarlar"[22].

İnsanın dinlənilməsi fərz olunan həftəlik xütbədən və böyük bir camaatla qılınması lazım olan namazdan məhrum edilməsindən daha böyük bir qəflət vardırmı?

Müsəlmanların camaat əlaqələri başqa bir şəkildə də ortaya çıxır, o da müsəlmanların ildə iki dəfə bayram namazını birlikdə qılmaq üçün şəhər xaricindəki bir yerə toplaşmalarıdır.

İl ərzində gerçəkləşən başqa bir böyük birlik məqamı isə həcc namizədlərinin həcc vacibini yerinə yetirmək üçün qrup halında Kəbəyə getdikləri zaman baş verir.

Kaş ki Kəbəni ziyarət edənlər həccin bu gözəl cəhətinin fərqində olsunlar, ta ki bu məsələdə həccin imkanlarını ən gözəl şəkildə dəyərləndirə bilsinlər. Həqiqətən də, bu vəziyyət həcc vacibinin sirlərinin və hikmətlərinin nəticəsidir.

---

[22] Səhihi Müslim. No: 865. Səh. 591.

Müsəlmanların birliyini və nəfslərinin paklanmasını təmin etmək məqsədilə Allahın əmr etdiyi bu cür təkrar toplaşmalar vasitəsilə bütün dünya qitələrində əvvəl məhəllə, sonra kənd, sonra ümmət səviyyəsində bir İslam qardaşlığı həyata keçməkdədir. Bu ibadətlərin davamlı olaraq icra edilməsi və (Allah tərəfindən) hökm olaraq təyin edilməsinin hikmətini sağlam bir şəkildə anlamaqla İslam qardaşlığı inkişaf edərək möhkəmlənir və dünyanın bütün bölgələrində İslamı yaymaq və müsəlmanları qorumaq hədəfi istiqamətində öz bəhrələrini verir.

### 4 – Fərdi və kütləvi rabitə

İslam cəmiyyəti fərdlərdən meydana gəlmişdir. Bu fərdlər arasında qardaşlıq anlayışının olması səbəbilə fərdlərin bir-birilə mütləq ünsiyyət qurması lazımdır.

Kütləvi ibadətlərin bəyanı və bunun müsəlmanların bir-birlərilə əlaqəsinə təsirilə əlaqədar izahlar daha əvvəldə keçdi.

Bu mövzuda xüsusilə diqqət çəkilməsi lazım olan bir neçə amil vardır. Ona görə ki bu amillərin müsəlmanları bir-birilə bağlanması, qardaşlıq anlayışına əsaslanması və bir araya gəlməsində çox böyük təsirləri vardır.

Bu sayədə müsəlmanların bir-birilə tanış olmaları, qohumlara qayğı göstərmələri, bir-birini ziyarət etmələri və Allaha dəvət edən təbliğçilərlə dəfələrlə bir araya gəlmələri reallaşır:

# İslam qardaşlığını gücləndirən amillər

## a) cəmiyyət fərdlərinin bir-birilə tanış olmalarının hasil olması;

Qardaşlıq, qarşılıqlı anlaşma, mehribançılıq kimi məsələlər tanışlıqla əlaqəli məsələlərdir. İslami tövsiyələr içində cəmiyyət fərdlərinin bir-birlərini tanımaları üçün bir çox təşviqlər vardır. Bu tanışlıq bir araya gəlmək və qardaş olmaq üçün bir başlanğıc nöqtəsidir. Fərdlər arasında tanışlıq hasil olduqca kin saxlamaq, lovğalıq və sair digər pis əxlaqlar zaman keçdikcə azalır. Çünki insanın tanıdığı birilə etdiyi müəyyən bir davranışın arxa planında cəmiyyətin özünün hesaba çəkilməsi və tənqid edilməsi vardır. Bu səbəbdən də insan cəmiyyətdəki nüfuzunu qorumaq üçün öz təkəbbürünü və hiddətini azaltmağa çalışır. Bu baxış İslami prizmadan nümunəvi bir hal olmasa da da, müsəlman kimsə bunu (cəmiyyətdəki nüfuzunu qorumaq üçün deyil) yalnız uca Allahın nəzarətində olduğunu nəzərə almaq və Allahın razılığını qazanmaq üçün edir. Bunu etmək isə ixlaslı möminlərin razılığını da (istəmədən) özü ilə gətirir. Habelə Allahın razı olduğuna qane olmayan kimsə kamil bir müsəlman sayılmasa da, bu yanaşma tərzi İslam cəmiyyətində yaşayan bir çox insanların üzərində olduğu vəziyyətdir.

Müsəlmanların bir çoxu uca Allahın nəzarətində olduqlarına diqqət yetirmirlər. Lakin onlar içində yaşadıqları cəmiyyətlərin onlara nəzarət etməsinə çox diqqət yetirirlər. Əgər cəmiyyətdəki fərdlər arasında tanışlıq olmazsa (bu gün bir çox cəmiyyətlərin şəhərlərində yaşandığı kimi), sosial

nəzarət öz təsirini itirər, cəmiyyət xaosa sürüklənər, bütün məqsədlərin icazəli olması anlayışı ortaya çıxar. Ona görə də bir qərib insan əhalisinin çoxunun onu tanımadığı bir şəhərə gələrsə, bu zaman o əgər Allaha iman gücüylə qorunmazsa, xaos çıxarmaqdan və pis əxlaqlara düşməkdən özünü uzaq tuta bilməz.

Ancaq bir yaşayış yerinin tanınmış fərdlərinin hər nə qədər də qəlblərinin dərinliklərində özlərini iyrənc yollara düşməkdən uzaqlaşdıracaq şəxsi bir gücləri yoxdursa da, ümumən onların öz qəbilələrinin və ailələrinin etibarını qorumağa çalışdıqlarını, buna görə də şan və şərəfi beş qəpiklik edən pis yollara düşməməyə çalışdıqlarını görərik.

Bu baxış bucağının İslami anlayışın müstəqil olduğu cəmiyyətlərdə böyük bir təsiri var. Belə ki, (müsəlman cəmiyyətlərində) əsl hörmət və dəyər İslam dininə sarılana yaraşarkən, alçaqlıq və dəyərsizlik isə xətalarda sərhədləri aşanlara yaraşar. Buna görə də (dinə) laqeyd yanaşan şəxs İslama sarılan müsəlmanlardan utanır və İslama sarılaraq İslami cəmiyyətdə etibar qazanmaq üçün İslamın tamamilə aşkar hökmlərinə bağlı qalmağa məcbur qalır.

Dinə laqeyd yanaşan müsəlman fərd hər nə qədər də başlanğıcda İslami anlayışın cəmiyyətdə müstəqil olması səbəbindən günahları tərk edirdisə də, daha sonralar bu günahları sahib olduğu dini şüuru səbəbilə tərk edər. Bir vaxtlar Şam əhalisinin qəhrəmanlarından olan Cərrah ibn Abdullah əl-Hikəminin belə dediyi rəvayət edilir: "Qırx il boyunca günahları utandığıma görə tərk etdim, sonra da təqva (Allah qorxusu) səbəbindən tərk etdim". Bəzi dərin mütəfəkkirlərin belə deməsi rəvayət edilir: "Günahları

alçaldıcı şeylər olaraq gördüm, kişiliyimə yaraşdırmadığım üçün onları tərk etdim, sonradan isə bu günahları etməyi dindarlığıma görə tərk etdim"[23].

Bu utancaqlığın faydası, rəzil əməllərdən çəkinməyə və fəzilətli əməllər etməyə məcbur edən İslami məfhumların olduğu İslami cəmiyyətlərdə ortaya çıxır. Uca Allah Qurani-Kərimdə insanların xalqlara, qəbilələrə bölünməsinin hikmətini bəyan etmişdir ki, bu da onların bir-birini tanıması hədəfidir.

"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır." (Hucurat. 13). Yəni ki, ey insanlar! Bir-birinizlə ünsiyyət qurub qaynaşın və soyu (əsli-nəcabəti) həqiqi dəyər ölçüsü etməyin.

Qəbilə anlayışının müstəqil olduğu cəmiyyətlərdə qəbilələrin şərəfini qorumaq anlayışı qəlblərə yerləşmiş bir faktdır. Hər nə qədər şəhər həyatında da eyni düşüncə olsa da, bu qəbilə anlayışının fəal olduğu bölgələrdəki qədər dərin və möhkəm bir təmələ sahib deyildir. Bu anlayışın insan nəfsinin rəzilliklər bataqlığına düşməsinə mane olmaqda son dərəcə təsirli bir rolu vardır. Xüsusən də, imanı zəif olan insanlarda bu cür özünənəzarət forması bəzən Allahın bəndələrinə nəzarət etməsinə iman etmək üzərində qurulmuş özünənəzarəti üstələyir.

Bu qəbiləyönümlü yanaşma Peyğəmbərin ﷺ vəfatından

[23] Cəmiul-Ulum vəl-Hikəm. 175.

sonra səhabələrin dövründə belə davam etmişdir. Lakin həmin dövrdəki qəbiləçilik məfhumunun insanı əxlaqi çirkablara düşməkdən qorumaq kimi bir rolu yox idi. Çünki Allahın iman ilə onları pak etməsindən sonra o cəngavər insanların qəbilə etibarını qorumaq qayğısı ilə çirkablardan çəkinmək kimi bir ehtiyacları yox idi. Lakin onlar düşmənlə döyüşmək əsnasında qəbilənin etibarını qazanmaq məqsədi daşımışdılar. Buna aid bir misal müsəlmanların yalançı peyğəmbər Müseyləmə ilə etdikləri "Yəmamə" döyüşündə rast gəlinir: "O gün bədəvilərdən (çöl ərəblərindən) ibarət bir qrup müsəlmanın Müseyləmənin ordusunun səflərinə qatıldığı zaman müsəlmanların ordu komandiri Xalid ibn Vəlid döyüşdə aktiv olmaları məqsədilə aralarında fərq qoyulması üçün oların ayrılmasını istəmişdi. Qadisiyyə döyüşündə də buna bənzər hallar olmuşdur. Bu döyüşdə də hər qəbilənin müəyyən bir təyin olunmuş yeri vardı"[24].

Səhabələrin dövründəki bu anlayış ancaq yüksək iman səviyyəsinə çatmamış olan insanların səhabələrin arasına qarışmasından sonra ortaya çıxmağa başlamışdır. Həmçinin Bədr döyüşündə iştirak edən səhabələrlə Uhud döyüşündə iştirak edən səhabələr və sonrakı dövrdə fəthlərdə iştirak edən əsgərlər arasında da bariz fərqliliklər vardı. Peyğəmbərin ﷺ dövründə evs və xəzrəclilər mühacirlərlə bir-birinə qarışdıqları halda Peyğəmbər ﷺ onları ayırmamış, əksinə, onları tək bir səf (sıra) etmişdir. Bu hadisə İslami iman tərbiyələri kamilləşdiyinə görə ənsar və mühacirlər üçün xüsusi bir hal idi. Lakin İslama yeni daxil olanlara gəldikdə isə onlar Allahın elçisi ﷺ ilə birlikdə Məkkənin fəthi üçün gələrkən onlardan hər kəs öz qəbiləsinin bayrağı altında

---

[24] Təbərinin Tarixi. 2/513; 2/68.

gəlmişdi. Habelə ənsar və mühacirlər Evs və Xəzrəc qəbilələri ilə eyni batalyonun içində idilər. Silahların çoxluğu və Allahın elçisinin ﷺ aralarında olması səbəbindən bu batalyona "Yaşıl tabor" deyilmişdi[25].

Bu davranış Allah elçisinin ﷺ hikmətli bir cəm etməsi olub, bununla müsəlmanların xeyrinə bir vəziyyət hasil olduğu üçün sonrakı dövrlərdə də bu müsəlmanlar üçün bir adət halını almışdır.

Burada bizim üçün bilinməsi gərəkən ən əhəmiyyətli şey cəmiyyət fərdlərinin bir-birini tanımasının cəmiyyəti çöküşdən və xaosdan qorumaq məsələsində son dərəcə əhəmiyyətli bir təsirə sahib olmasıdır.

İslamiyyət müsəlmanları bir-birilə tanış olmağa təşviq etmişdir. Bunu gerçəkləşdirmək və gücləndirmək üçün bəzi vəsilələr öyrətmişdir. Bu vəsilələrdən biri də Allah elçisinin ﷺ: "İman etmədikcə cənnətə girə bilməzsiniz, bir-birinizi sevmədikcə də tam olaraq iman etmiş olmazsınız. Sizə etdiyiniz təqdirdə bir-birinizi sevməyinizə vəsilə olacaq bir şeyi deyimmi? Aranızda salamı yayın![26]", - sözündə də işarə etdiyi kimi salamlaşmanı yaymaqdır. Salamın yayılmasında cəmiyyətin fərdlərinin tanış olmaları və sosial əlaqələrin gücləndirilməsi vardır.

İnsanın öncədən tanıdığı bir şəxsə salam verməsi bir çoxlarının həmfikir olduğu bir məsələdir. Allahın elçisi ﷺ İslamın əmr etdiyi salamın sadəcə tanıdığınız kəslərə

---

[25] Siratu ibn Hişam. 2/27.
[26] Səhihi Müslim. "İman" kitabı. No: 93.

verməklə hüdudlanmadığını, əksinə, tanıdığı, tanımadığı hər kəsə verilməsi gərəkdiyini bildirmişdir. Bir səhabə Allahın elçisinə ﷺ: "Ən yaxşı müsəlmanlıq necədir?", - deyə soruşduqda Peyğəmbər ﷺ belə demişdir: "Yemək yedizdirməyin, tanıdığın, tanımadığın hər kəsə salam verməyindir"[27].

Salamlaşma ilə qəsd edilən ən böyük məqsəd bir-birinə yad olan şəxslərin tanış olmasını təmin etməkdir. Salamlaşma sayəsində əvvəlcə tanışlıq, sonra da ardıcıl olaraq qardaşlıq duyğusu inşa edilir. Xüsusilə də, salamlaşmanın sayı artdıqca bu daha da tezliklə gerçəkləşir. Salamı ilk verən – İslami qardaşlıq məfhumunu inşa etmək üçün ilk addım atan şəxs olduğuna görə ən çox savabı qazanan tərəf olur. İslam dini salama təsadüfi bir şəkildə qarşılıq verməməyimizi, əksinə, ona daha gözəl və ya ən azından eyni şəkildə qarşılıq verməyimizi əmr edir. Ta ki salam verənin könlü qırılmasın və qarşı tərəfin İslam qardaşlığı binasını inşa etmək üçün etdiyi cəhdlər boşa çıxmasın. Bu mövzuda uca Allah belə buyurur:

"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir". (Nisa. 86).

İnsan əxlaq və yaradılış etibarilə özünə uyğun gələn kəslərə meyillidir. İnsan bəzən ilk dəfə gördüyü birini ruhları arasındakı ülfət və uyğunluğa görə bəyənir və sevir. Bax bu vəziyyət Allahın elçisinin ﷺ: *"Ruhlar qruplara ayrılmış əsgərlər kimidirlər. Onlardan daha əvvəl tanış olanlar*

---

[27] Səhih əl-Buxari. "İman" kitabı. No: 12.

*dünyada bir-birinə uyğunlaşarlar. Daha əvvəl tanış olmayanlar isə uyğunlaşmazlar"[28], -* sözünü təsdiqləyir. Lakin insan bəzən ilk görüşdə rəğbət bəslədiyi insana bu rəğbətini aşkar edə bilmir, gizləyir. Digərinin də bundan xəbəri olmur. Beləcə, bu rəğbətin qardaşlıq və birlik baxımından heç bir qiyməti olmur. O zaman ki tərəflər bir-birlərini (Allah rzası üçün) sevdiklərini öyrənərsə, bax o zaman onların arasındakı münasibətlər daha da güclənər. Beləcə, onlardan hər biri digərinin təcrübəsi ilə tanış olar, sonra da tanış olmuş qruplar bir-birinin təcrübəsini öz aralarında paylaşarlar. Bax bu şəkildə cəmiyyət bir-birinə möhkəm bir şəkildə bağlanıb yaxşılıq və gözəlliklərin müstəqil olduğu bir kütlə halına gələr. Bu mövqedən yanaşmaqla Allahın elçisi ﷺ belə buyurmuşdur: "Sizdən biri qardaşını sevirsə, qoy bunu ona bildirsin"[29].

Buradan cəmiyyətdəki İslami məfhumların sabitləşməsinə və müsəlmanlar arasında cahiliyyə məfhumlarının aradan qalxmasına olan şiddətli ehtiyacı anlamış oluruq.

Bu bizə aydın olarsa, İslami cəmiyyətdəki fərdlərin bir-birilə tanış olmalarının (cəmiyyətdə İslami məfhumları öndə tutmaqla) İslam qardaşlığının möhkəmlənməsində necə böyük təsiri olduğunu anlamış olarıq.

---

[28] Səhihi Müslim. "əl-Birr" kitabı. No: 2638. Əbu Hüreyrədən rəvayət olunub. "Ədəbul-Mufrad" kitabında isə səh 231-də, no: 900.
[29] Sünəni Əbi Davud. "Ədəb" kitabı. No: 5124.

## b) Qohumluq əlaqələri

Qardaşlıq məfhumunu gücləndirən bir digər amil isə qohumluq əlaqələridir. Aralarında qardaşlıq əlaqələrinin qüvvətləndirilməsi məsələsində insanların qohumları ilk sırada dayanır. Əvvəla, bu insanlara əhəmiyyət verib bunları bir araya gətirməli və onlar arasında qardaşlıq düyünü atmaq, aralarında anlaşılmazlıq baş verdikdə də onları barışdırmağa çalışmaq lazımdır. Uca Allah qohumluq əlaqəsini qorumağı əmr etmişdir. Necə ki ayədə də belə buyurmuşdur: "Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişilər və qadınlar törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir". (Nisa. 1).

İmam Müslimin Aişədən (Allah ondan razı olsun) nəql etdiyi rəvayətdə Peyğəmbər ﷺ buyurmuşdur: "Qohumluq əlaqələri Ərşdə asılıdır və belə deyir: "Mənə yaxın olana Allah da yaxın olsun. Mənimlə əlaqəsini kəsəndən Allah da əlaqəsini kəssin"[30]. Bu qüdsi hədislə o qohumluq əlaqələrini, onlarla yaxşı davranmağı əmr edir. İnsanın qohumları içində özünə ən yaxın olanı valideynləri olduğu üçün İslam dini valideynlərə çoxlu yaxşılıq etməyə təşviq etmişdir. Uca Allah özünə ibadət əmrilə ana-ataya yaxşılıq əmrini yan-yana xatırladaraq belə demişdir: "Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz

[30] Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2555.

söylə!". (İsra. 23). Bu ayə ata-ananın məqamının böyüklüyünə işarət edən ayələrdən biridir. Həmçinin Peyğəmbər ﷺ bir çox hədislərində ata-anaya yaxşılığı əmr etmişdir. Müslimin Əbu Hüreyrədən nəql etdiyinə görə, Allahın elçisi ﷺ: "Burnu sürtülsün, burnu sürtülsün, burnu sürtülsün", - dedikdə, səhabələr: "Ey Allahın elçisi, kimin?", - deyə soruşdular. Peyğəmbər ﷺ: "Ata-anasından ikisinin və ya birinin qocalığa çatsa da, onlara xidmət etmədiyi üçün cənnətə girməyənin"[31], - deyə cavab vermişdi. Qohumlara yaxşılıq etmək, onları ziyarət etmək və aralarında qardaşlıq düyünü atmaq İslam qardaşlığı binasının ilk təməlidir. Həmçinin insan qohumları arasında qardaşlıq anlayışını formalaşdırmaqda müvəffəqiyyət əldə etməsə, İslam qardaşlığı anlayışının qurulmasında da müvəffəqiyyətsiz olmuş sayılır. Qohumluq əlaqələri sadəcə qohumların ziyarətləşməsindən ibarət deyildir. Həqiqətən də, bəzi insanlar digər qohumları ilə olan əlaqələri tamamilə kəsirlər. Əsl qohumluq əlaqələri müsəlmanın qohumu onunla münasibətləri kəsdiyi zaman edəcəyi ziyarətdir. Bu mövzuda Buxarinin Amr ibn Asdan (Allah ondan razı olsun) nəql etdiyi bir hədisdə Peyğəmbər ﷺ deyir: "Qohumluq əlaqəsini qoruyan kimsə qohumu əlaqə saxlanıldığı zaman əlaqə saxlayan deyil, lakin qohumluq əlaqəsini qoruyan kimsə qohumu onunla əlaqəni kəsdiyi zaman onunla əlaqəni bərpa edəndir"[32].

Edilən ziyarətlərin əhəmiyyətinə işarə olaraq "المكافئ"[33]

---

[31] Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2551.
[32] Səhih əl-Buxari. "Ədəb" kitabı. no: 15.
[33] Biz bu "əl-mukəfi" sözünü "əlaqə saxlanıldığı zaman əlaqə saxlayan" kimi tərcümə etdik, çünki bu sözün mənası "qarşılıq vermək,

ifadəsinin işlədilməsində böyük bir peyğəmbəranə bəlağət vardır. Belə ki özü ilə əlaqə saxlanıldığı müddətcə qohumu ilə əlaqə saxlayaraq insanın qohumları ilə ziyarətləşməsindən sanki, sadəcə, qohumunun təqdirini qazanmaq məqsədi güdüldüyü mənası çıxır. Əsl qohum ziyarəti edən kəslər qohumları özlərilə əlaqələri kəssələr də, sırf Allah rzası üçün onlarla münasibət quranlardır. Onlar bunu etməklə qohumlarına çox böyük nümunə olurlar. Çünki insanın fitrətində gözəl əməllər etmək duyğusu var. Bu da kamilliyə çatmaq və ən gözəl sifətlərə nail olmaqda yarışmaq üçün insandaki istəyi artırar.

### c) Qonşu ziyarəti

İnsanların öyrəşdiyi həyat qanunlarından biri də qonşularla bərabər yaşamaqdır. Çünki bu insana daha çox əmin-amanlıq hiss etdirir və ehtiyacların ödənməsində daha çox dəstək olur. İslam qardaşlığını formalaşdırmağın və inkişaf etdirməyin amillərindən biri də müsəlmanın öz qonşusu ilə əlaqələri qorumasıdır. Çünki qonşular insana qohumlarından sonra fiziki olaraq ən yaxın insanlardır. Qonşular arasında İslam qardaşlığının qurulması onlara xoşbəxt bir həyatı təmin edir və əhatəli bir islam qardaşlığının formalaşmasında onları bir ortaq kimi edir.

Bu məsələdə bacarıqsız olmaları isə onların gündəlik həyatının sıxıntıya girməsinə səbəb olur və onların İslam qardaşlığının bir üzvü kimi olmaq ümidini zəiflədir.

Qonşuluq ziyarətlərinin xoşbəxt bir yaşayış və qardaşlıq

---

qarşılıqlı mükafatlandırmaq" mənasındadır.

anlayışının formalaşdırılmasındakı əhəmiyyətli roluna bağlı olaraq İslam dini israrla qonşuluq haqlarına riayət edilməsini əmr edir. Uca Allah: "Allaha itaət edin və ona heç bir şərik qoşmayın. Ata-anaya, qohumlara, yetimlərə, kasıblara, yaxın qonşuya, uzaq qonşuya yaxşılıq edin"(Nisa. 36), - ayəsində özünə ibadət etmək əmrilə qonşuluq haqqını bir yerdə xatırlatmışdır. Allahın elçisi ﷺ bir çox hədislərdə qonşuluq haqlarına riayət edilməsinə toxunmuşdur. Bu hədislərdən biri də imam Müslimin rəvayət etdiyi Aişədən (Allah ondan razı olsun) gələn bu hədisdir: "Cəbrayıl mənə qonşuluq haqlarını o qədər tövsiyə etdi ki, az qala qonşunu qonşuya mirasçı edəcəyini zənn etdim"[34].

### d) Möminlərin qarşılıqlı ziyarətləşmələri

Peyğəmbər ﷺ bizlərə qarşılıqlı ziyarətləşməyi tövsiyə etmişdir. Çünki qarşılıqlı ziyarətləşmə əlaqələri qüvvətləndirir və qardaşlığı sabit edir. O, Allah rzası üçün qarşılıqlı ziyarətləşənlərin necə böyük mükafat qazanacaqlarını belə ifadə etmişdir: "İnsan qardaşının və ya xəstə birinin ziyarətinə gedərsə, Allah ona belə deyər: Xoş yaşayasan, addımların da xoş oldu və cənnətdə özünə yer hazırladın"[35].

Bu mövzuda bir qüdsi hədisdə də belə deyilir: "Mənim üçün bir-birini sevənlərə, mənim üçün bir-birilə oturanlara, mənim üçün bir-birini ziyarət edənlərə və mənim üçün bir-birinə infaq edənlərə (xərcləyənlərə) mənim sevgim vacib

---

[34] Səhih əl-Buxari. "Ədəb" kitabı. no: 6014. 10/441. Səhihi Müslim. "əl-Birr" kitabı. "əl-vasiyyətu bil-cərr" babı. No: 2624.

[35] "Ədəbul Mufrad". Buxari. 3510. "Sünən ət-Tirmizi". 2008. "Sünən ibn Macə". 1443.

olmuşdur"[36].

Amr ibn Abəsə Allahın elçisindən ﷺ belə eşitdiyini nəql etdi: Uca Allah buyurdu: "Mənim üçün bir-birini sevənlərə mənim sevgim vacib olmuşdur və mənim üçün bir-birini ziyarət edənlərə mənim sevgim vacib olmuşdur". Bu hədisi əl-Hafiz əd-Dimyati nəql etmişdir, həmçinin Əhməd ibn Hənbəlin bu hədisi səhih bir isnadla nəql etdiyini, Təbərani və Hakimin də bu hədisi nəql etdiyini söyləmişdir və bunun səhih isnadla gəldiyini bildirmişdir[37].

Ənəsdən (Allah ondan razı olsun) gələn bir rəvayətdə isə Peyğəmbər ﷺ: "Sizdən kimlərin cənnətə girəcəyini xəbər verimmi?!" - deyincə biz də: "Bəli, ey Allahın elçisi!", - dedik, o da: "Peyğəmbər cənnətə girəcəkdir, Əbu Bəkr cənnətə girəcəkdir və şəhərin o biri tayındakı qardaşını sadəcə Allah rzası üçün ziyarət edən kəs də Cənnətə girəcəkdir". Bu hədisi əl Hafiz əl-Dimyati nəql etmişdir, Təbərani isə bunu başqa bir hədisin bir hissəsi olaraq nəql etdiyini, hədisin sənədinin isə - Allahın iznilə ceyyid (yaxşı) olduğunu bildirmişdir[38].

Həmçinin bu və buna bənzər bir çox hədislərdə müsəlmanları İslam cəmiyyətinin fərdləri arasındakı sosial əlaqələri qüvvətləndirməyə səbəb olacaq qarşılıqlı ziyarətləşmələrə rəğbətləndirmə vardır.

Allah üçün bir-birlərini sevən qardaşların müxtəlif ölkələrdə yaşaması da mümkündür. Onlar öz qardaşlarını

---

[36] İmam Malikin "Muvatta" əsəri. "Şer" kitabı. no: 16.
[37] əl-Mətcər ər-Rabih. Səh. 406. No:1630.
[38] əl-Mətcərur-Rabih. Səh. 405. No: 1607.

ziyarət etmək üçün səfərə çıxmalarına bir maneə olan tənbəllik və digər dünyəvi səbəblərə düçar ola bilirlər. Dünyalıq bir xeyir üçün deyil, sadəcə, İslam qardaşını ziyarət üçün yolun məşəqqətlərinə dözümlü olanlar üçün Allahın hansı mükafatı hazırladığını müjdə verən Peyğəmbər ﷺ tövsiyələri var. Bu mövzu ilə əlaqədar İmam Müslimin nəql etdiyi bir hədisdə belə deyilir:

"Bir kişi başqa bir kənddəki qardaşını ziyarət etdi. Bundan sonra Allah həmin yerə o şəxsin yolunu izləyən bir mələk göndərdi. O şəxs bu mələyin yanına çatanda:

- Mələk: Hara gedirsən?

- O şəxs: Bu kənddə bir qardaşımı görməyə gedirəm.

- Mələk: Onda sahibi olduğun bir şeymi var?

- O şəxs: Xeyr, onu sırf Allah rzası üçün sevdiyimə görə gedirəm.

- Mələk: Mən Allaha görə qardaşını sevdiyin üçün, Allahın da səni sevdiyini xəbər vermək üçün sənə göndərilən bir elçiyəm"[39], - dedi.

Yuxarıda keçən hədisdə bir-birini tanıyan kəslər arasında ziyarətləşmə yolu ilə qarşılıqlı sevgini artırıb bu sevgini daha da qüvvətləndirən, sabit saxlayan sosial münasibətlərin qüvvətləndirilməsi, möhkəmləndirilməsi, həmçinin, ehmalkar, xəstəliyə tutulmuş (tənbəlləşmiş) həvəslərin bu məsələdə daha çox yüksəldilməsi, rəğbətləndirilməsi var. Hansı ki qarşılıqlı ziyarətləşmə İslam qardaşlığının könül sarayının qurulmasında və bu qardaşlığın çökməyə, yıxılmağa qarşı qorunmasında ən önəmli amillərdən biridir.

---

[39] Səhihi Müslim, "əl-Birr" kitabı. no: 38.

## e) Xəstə ziyarəti

Müsəlmanların ziyarətləşməsi İslam qardaşlığının formalaşmasında və inkişafında ən əhəmiyyətli amillərdən biri olduğuna görə bu qardaşlığa əsasən, qardaşının xəstələndiyi zaman müsəlman öz müsəlman qardaşını ziyarət etməlidir.

İslami cəmiyyətin daxilində olan hər bir müsəlman İslam qardaşlığı təməli üzərində dayanan cəmiyyətin (binanın) kərpiclərindən bir kərpicdir[40]. Əgər bir müsəlman fərd xəstələnərsə, aralarındakı mübarək münasibətin bir ifadəsi olaraq onun haqqına vəfa göstərmək və özü ilə digər qardaşlar arasındakı İslam qardaşlığının mənasını təzələmək üçün müsəlman qardaşını ziyarət etmək lazımdır.

Xəstə ziyarətinin fərdi və ictimai haqlarla əlaqədar əhəmiyyətilə bağlı olaraq Allahın elçisi ﷺ xəstə ziyarətini müsəlmanın müsəlman üzərindəki beş haqqından biri olaraq saymışdır: "Müsəlmanın müsəlman üzərində beş haqqı vardır: Salamına qarşılıq vermək, xəstələndikdə ziyarətinə getmək, cənazəsində iştirak etmək, dəvət etdiyi yerə getmək və asqıranda “yərhəmukəllah” demək"[41].

Hədislərdə xəstə ziyarətilə əlaqədar olaraq böyük mükafatların vəd edildiyini görürük. Allahın elçisi ﷺ: "Xəstə ziyarətinə gedən insan qayıdana qədər Cənnətin hərifəsindədir", - dedi.

---

[40] Yəni: bu binanın bir kərpici kimi, bu cəmiyyətin kiçik bir hissəsidir.

[41] Səhih əl-Buxari. "əl-Cənəiz" kitabı. no: 1240; Səhihi Müslim. "Salam" kitabı. no: 4.

"Ey Allahın elçisi, cənnətin hərifəsi nədir?!", - deyə soruşduqda, o: "Meyvələrdir" - dedi"[42].

## f) İslam dəvətçiləri arasındakı əlaqə

Allaha itaətə dəvət edənlər ümmətin liderləri və bələdçiləridir. Dəvətçilərin bir-birilə əlaqələri qopuqdursa və onlar ümmətin birlik olmasına və dağılmasına vəsilə olan amilləri müzakirə etmirlərsə, İslam qardaşlığı naminə hər nə edirlərsə etsinlər, bu cəhdlər yenə də naqis hesab olunur.

Allaha dəvət edənlər yaşayışlarında İslam qardaşlığı ruhunun ortaya çıxdığı cəmiyyətin seçilən şəxsləridirlər. Həmçinin onların bir araya gəlməsi İslam qardaşlığının mövcud bir hal alması və İslam qardaşlığının mənasını və ehtiva etdiyi mənaları qavramağa çalışan digərləri üçün gözəl bir örnəkdir.

Allah yolunda qardaşlığı əmr edən bütün dəlillər, xüsusilə də, ümməti islah etmək və onlara istiqamət vermək məsələsində çiyinlərinə böyük bir məsuliyyət yüklənmiş dəvətçilər üçün də keçərlidir.

Dəvətçilər arasında olan münasibətlərin ən seçilən cəhətlərindən biri də ziyarət məqsədilə qurduqları məclislərin bir elm və müzakirə məclisi olmasıdır. Bu isə onların elm halqalarında əldə etdikləri biliklərin təkmilləşməsi üçün bir vasitədir.

---

[42] Səhihi Müslim. "əl-Birr" kitabı. No: 2568. Sovbanın (Allah ondan razı olsun) rəvayət etdiyi hədis.

Bu ziyarətlərin xaricində başqa bir yerdə gerçəkləşməyən son dərəcə əhəmiyyətli başqa bir məsələ yenə var ki, o da qarşılıqlı fikir mübadiləsi və faydalı qeydlər vasitəsilə müasir dindən uzaqlığın və müsəlmanların halının reallığının necə olduğunu anlamaqdır.

Əgər biz müsəlmanların halının real durumunu və müasir dinsizliklə bağlı gedən proseslərin reallığını anlamağın bir dəvətçinin təbliğ-irşad mədəniyyəti baxımından nə dərəcədə əhəmiyyətli olduğunu bilsək, biz dəvətçilərin davamlı bir şəkildə toplanmalarının əhəmiyyətini daha yaxşı idrak edərik.

Səhabələr (Allah onlardan razı olsun) dəvət əsasında qazandıqları təcrübələri, hamısı bir dəvətçi olan, elm tələbələrindən ibarət olan dostlarına dini mədəniyyətlərini artıran bir formada çatdırardılar. Təbərani Avn ibn Abdullah ibn Utbə ibn Məsud sənədilə gələn bir rəvayəti belə nəql edir: Dostları yanına çatanda Abdullah ibn Məsud (Allah ondan razı olsun) onlara: "yığışırsınızmı?", - deyə soruşdu.

Dostları: "Bəli, ey Əbu Əbdür-Rəhman. Bizdən biri yoldaşını görmədiyi zaman Kufənin o biri başına qədər də olsa, piyada gedər", - dedilər. İbn Məsud isə: "Siz bunu etdiyiniz müddətcə xeyir içində olarsınız", - dedi[43].

Bu da o deməkdir ki, əlaqəni və ziyarətləşməyi dayandırsalar, xeyir içində olmazlar. Mərifət və elmin mühüm cəhətlərindən birini və dəvətin canlı çeşmələrindən birini ehmal etməklə necə xeyir içində olsunlar ki? Həmçinin bu baş verdikdən sonra İslam qardaşlığının zəifləmə müddətində onların da pay sahibi olmaları istisna deyil.

[43] əl-Mətcər ər-Rabih. 407.

## 5 - Gözəl əxlaqlara sarılmaq

İslam qardaşlığını sabit edən və gücləndirən ən qüvvətli amillərdən biri də ümmət fərdlərinin gözəl əxlaqla zinətlənməsidir. İslam dini bu qardaşlığın hüdudlarını gözəl əxlaqa təşviq etməklə qorumuşdur. Özünə istədiyini qardaşına istəmək (isar), qardaşlığa riayət etmək bu qardaşlığın qorunmasında böyük bir izi olan ən gözəl əxlaq nümunələrindən biridir. Ümmətin xeyrinə görə öz xeyrini düşünməyi unutmaq, cəmiyyətin mənfəətini arzulamaq və başqasını öz yerinə seçmək anlayışının azad olduğu bir cəmiyyət içində İslam qardaşlığının böyüyüb şaxələnəcəyi və çiçəklənəcəyi cəmiyyətin ta özüdür. Bu cəmiyyət nəsihətlərin edildiyi, ən kiçik işlər üçün belə məşvərət mühitinin formalaşdırıldığı, beləcə, mənsublarının qarşı tərəfin həyat təcrübəsi və incə zəkasından faydalandığı bir cəmiyyətdir. Misal olaraq, iki vəzifəli şəxs qarşılıqlı fikir mübadiləsində olduqda biri digərindən məsləhət və nəsihətini əsirgəmədiyi zaman tərəflər bir-birlərinin təcrübələrindən xeyli faydalanarlar. Çünki onların hər ikisi qardaşdır və hədəfləri birdir. Bu hədəf isə İslamın və müsəlmanların izzətlənməsidir, hətta ən kiçik və böyük məsələlərdə belə vəziyyət belə olmalıdır. Biz bu uca əxlaqın nəticələrini səhabələrin həyatında görürük. Onların İslam və müsəlmanların mənfəətini şəxsi mənfəətlərindən üstün tutmalarına bağlı olaraq davranışlarına bir örnək vermək kifayət edəcəkdir.

Ömər (Allah ondan razı olsun) Əbu Ubeydə ibn Cərraha, Xalid ibn Vəlidi (Alah hər ikisindən razı olsun) vəzifədən çıxarıb onun özünü Şam ordularının komandiri təyin etdiyinə

dair bir yazı verir. Əbu Ubeydə isə komandirlik sevdasına düşmədən İslam cəmiyyətinin faydasını düşünərək bu yazını (döyüş getdiyi müddətcə) gizlədir. Əbu Ubeydə ilə Xalid ibn Vəlid arasında müsəlmanların xeyrinə olan son dərəcə qiymətli fikir mübadilələri olur.

Bir müddət sonra Xalid ibn Vəlid vəzifəsindən çıxarıldığını öyrənir və Əbu Ubeydənin yanına gələrək belə deyir: "Allah səni bağışlasın. Möminlərinin əmirinin idarəçiliyi sənə təslim etməyimlə bağlı sənə bir yazı verdiyi halda, onu mənə demirsən və idarəçilik səndə olduğu halda, keçib arxamda namaz qılırsan!"

Əbu Ubeydə: "Allah səni də bağışlasın. Bunu sənə başqasından öyrənənə qədər deməyi döyüş bitənə qədər bildirmək (səni ruhdan salmaq) istəmirdim. Daha sonra Allahın iznilə bunu sənə deyəcəkdim. Mən dünyalıq bir iqtidar arzusunda deyiləm, dünya üçün də əməl etmirəm. Çünki, bir gün gələr, bunların bitib tükəndiyini görərsən. Biz qardaşıq və Allahın əmrlərini yerinə yetirməyə çalışan kəslərik. Qardaşının dini və dünyəvi şeylərdə insana əmir olması ona bir zərər verməz. Əksinə, əmir olan şəxs bildirməlidir ki, onun özü qarşısına çıxan çoxlu həlakedici məsələlər səbəbilə fitnə və xətaya düşməyə ən yaxın insandır. Yalnız Allahın qoruduğu insanlar bu tələlərə düşməzlər. Ancaq belələrinin sayı da son dərəcə azdır", - dedi və xəlifə Ömərin yazısını Xalid ibn Vəlidə (Allah hamısından razı olsun) verdi"[44].

İndi də bu iki böyük şəxsiyyət arasında keçən hadisəni təfəkkür edək və bundan gündəlik həyatımızda əlaqəli ibrətlər çıxardaq.

---

44 Bəlazurinin "Futuh əş-Şam" əsəri. 102; "Tarixi Dəməşq". 2/126.

Bax Əbu Ubeydə Şama gedərkən orduların komandiri təyin edilir. Ancaq təvazökarlıqla hərəkət edib cəmiyyətin mənfəətini düşünərək Xalid ibn Vəlidin bu əhəmiyyətli işlə əlaqədar planlarının nəticə verərək işin sonunu görənə qədər bu vəziyyəti Xalid ibn Vəlidə bildirməkdən çəkinir. Əbu Ubeydə idarəçi olmağın gerçək mənasını qavrayan, bunun bir qənimət deyil, zərər ola biləcəyini bilən biri idi. Belə bir imtahana məruz qalmayan nə xoşbəxtdir! Ancaq belə bir şeylə imtahan olunduğu zaman ədalətli davranan və nəsihət edən üçün bu imtahan dünyada bir gözəllik, axirətdə isə çoxlu savab qazanmağa bir səbəbdir.

Xalid ibn Vəlid isə Əbu Ubeydənin bu xəbəri özündə saxlayıb gizlətməsi və vaxtında ona xəbər verməməsinə görə qınayır. Çünki əsl komandirin Əbu Ubeydə olmasına görə heç bir məsələdə onun önünə keçmək istəmir. Yalnız bu mövzuda xəlifədən bir əmr gəlsə, hər kəsin itaət etməsi lazımdır. Bax bu böyük şəxsiyyətlərin halından onların itaətkar ruhunu və necə öz fərdi mənfəətlərini gözardı etmələrini anlayırıq.

Əbu Bəkr Xalid ibn Vəlidi (Allah hər ikisindən razı olsun) ən çətin riddət döyüşlərində[45] komandir olaraq seçdiyi vaxt Xalid itaət edərək döyüşməyi seçdi. İraqda gedən döyüşlər üçün də eyni hal baş verdi. Hətta Mədain şəhəri fəth edilərkən şəhərin fəthinə çox az qalmışdı ki, Xalid ibn Vəlidin Şama tərəf yönəlməsi istənildi, o bunu da etiraz etmədən sevə-sevə etdi.

---

[45] **Riddət döyüşləri**: Peyğəmbərin ﷺ vəfatından sonra bir qism ərəblərin dindən - tam və ya qismən - dönənlərinə qarşı edilən müharibələrə deyilir. (Tərcüməçinin qeydi).

Əbu Ubeydə Şamın valisi və Şam ordusunun komandiri olduqdan sonra (o zamanlar Şam ordusunun tək bir komandiri vardı) valilik səlahiyyətini sidqi-könüldən Xalidə ötürüb ordunun başına keçir və döyüşdən sonra da içində heç bir lovğalıq duymadan yenidən valilik məqamına keçir. O buna düşkün olmağın əksinə, məsuliyyəti bir müddət sonra üzərinə götürməyi qəbul edir, dünya və dünyalıq məsələlərə qarşı istəksiz olduğunu elan edir və Allahın qoruduğu şəxslər istisna olmaqla, vəzifə sahibi olmağın təhlükələrinə işarət edir. Xalid isə valilik vəzifəsindən ayrıldıqdan sonra Əbu Ubeydənin əmrləri istiqamətində adi bir əsgər olmağı könüllü olaraq qəbul edirdi.

Son dərəcə önəmli olan başqa bir məsələ isə Xalid ibn Vəlidin Əbu Ubeydənin (Allah hər ikisindən razı olsun) yanında ən hörmətli məqamda yer tutmasıdır. Belə ki Əbu Ubeydə Xalidin fikrini öyrənmədən demək olar ki, hərəkət etmirdi. Sanki Xalid idarəçiliyindən heç bir şey itirməmişdi. Buna qarşılıq isə Xalid Əbu Ubeydəyə qarşı nəsihətdə əsla xəsis bir davranış göstərmirdi. İdarəçilikləri boyunca onların sərgilədikləri bu möhtəşəm davranış gözəl əxlaq mövzusunda təsəvvür edilə biləcək ən gözəl nümunələrdən biridir.

Bütün bunlar bu iki qocaman şəxsiyyətin sahib olduğu yüksək əxlaqı təcəssüm etdirmək üçün qısa bir baxışdır. Əgər bir araşdırmaçı onların birgə çalışma metodu haqqında daha dərin araşdırma edərsə, gözəl nümunə olmağa misal olaraq çəkilə bilinəcək yüksək, parlaq faydalar əldə edər. Bir kəsi vəzifəyə təyin etmək, digərini isə vəzifədən uzaqlaşdırmaq, sonra da ikinci olaraq vəzifəyə təyin olunanı vəzifəsindən çıxarıb birincisini yenidən o vəzifəyə təyin etmək və s. şəklindəki bir vəziyyət dünya və dünyalıq bir məqam

arxasınca qaçan şəxslər arasında meydana gəlsəydi, o zaman qısqanclıq buynuzlarının dikəldiyini, həsədin öz alovunu salıb yaş və qurunu birlikdə yandırdığını, xaosun azad olduğunu və fəsadın hər yeri sardığını müşahidə edərdik. Çünki  vəzifəyə sonradan təyin olunan komandir ilk vəzifəyə təyin olunan komandirlə müşavirə etməyi nəfsinə sığışdırmayacaq, ilk komandir də sonrakı komandirin bacarıqlı olmasına vəsilə olması üçün fədakarlığını və təcrübəsini gizlədəcəkdi. Nəticədə görülən işin keyfiyyəti aşağı düşəcək və bütün ümmət zərər görəcəkdi. Dünyanı axirətdən üstün tutmayan və imanla bəslənən o ilk xeyirli nəslin gedişindən bu yana İslam ümməti tarixinin bir çox mərhələlərində bu cür əxlaqi xəstəliklərin qurbanı olmuşdur.

Bu və bənzəri hadisələr sayəsində özünə istədiyini başqasına da istəmək əxlaqının İslam ümmətini təhlükəli çöküşlərə düşməkdən qorumaqda nə dərəcə qoruyucu bir rol oynadığını, beləliklə, ümmətin həyatının gedişatını necə dəyişdirdiyini və ancaq uzun cəhdlər sayəsində əldə edilə biləcək olan islahatın bəhrələrini necə əldə etdiyini idrak edirik. Eyni şəkildə comərdlik, vəfalı olmaq və gülərüzlülük kimi gözəl əxlaq örnəklərinin də İslam qardaşlığı binasının inşasında ən güclü amillər arasında olduğunu görürük. Həqiqətən də, bu gözəl davranışlar bir çox şəxslərin, xüsusən də, Quran dilini bilməyən əcnəbi şəxslərin İslamı qəbul etməsinə vəsilə olmuşdur. Bununla da tövhid dəvətinin kölgəsi altında bütün millətlər arasında beynəlxalq qardaşlıq anlayışı gerçəkləşmişdir. Səhabələrin özlərində əks etdirdikləri gözəl davranışları və nümunəvi əxlaqları (Allah onlardan razı olsun) insanların, hətta düşmənlərinin belə bu dinə qarşı maraq hiss etmələrində böyük təsiri olmuşdur. Belə ki onlar danışdıqları zaman doğru danışır, söz verdikləri

zaman onu yerinə yetirir, insanların namuslarına təcavüz etmir və özlərinə aman verdikləri şəxslərin mallarına toxunmurdular. Hətta müsəlmanlara məğlub olmuş bir çox xalqlar mallarının və irzlərinin qorunması məsələsində müsəlman fatehlərə öz ölkələrinin şəxslərindən daha çox güvənirdilər.

Müsəlmanlara məğlub olmuş həmin ölkələrin xalqları öz zalım iqtidarlarının öz hökmdarlarına müqəddəslik statusu verdikləri halda, müsəlmanların öz idarəçilərini və rəhbər şəxslərini müqəddəs elan etmədiyini görürdülər. Əksinə, onlar birgə oturur və yeməklərini birgə yeyirdilər. Səhabələrin özləriylə bağlı ortalığa çıxardıqları bu möhtəşəm vəziyyətə aid misalları müəyyən bir çərçivəyə salmaq mümkün deyil. Bu misallardan biri də budur: "Farslar özlərinə görə son dərəcə qiymətli olan bir qisim yeməkləri Cisr döyüşündə müsəlmanların komandiri olan Ubeyd ibn Məsud əs-Səqafiyə hədiyyə olaraq gətirdilər. Əbu Ubeyd dedi: "Eyni hədiyyədən əsgərlərə də verib onları da sevindirdinizmi?" - Farslar: "Xeyr", - deyə cavab verdilər.

Bunun üzərinə Əbu Ubeyd hədiyyəni geri qaytardı və belə dedi: "Bizim bunlara ehtiyacımız yoxdur. Əbu Ubeyd özündən başqa qanlarını axıdan və ya axıtmayan bir qövmün insanları ilə dostluq qurarsa, o necə də pis bir şəxs olar[46]".

Əbu Ubeyd özünə gətirilən hədiyyə barəsində əsgərlərini özündən üstün tutmuş və onlardan halı orta olanların yediklərindən olmadıqca bir şey yeməmişdi.

Doğrudan da, Əbu Ubeyd İslam əxlaqlarını ən gözəl

---

[46] Təbərinin "Tarix"i. 3/452-453.

şəkildə nümayiş etdirdiyi zaman əsrarəngiz bir nümunəyə çevrilmiş və beləcə, o həmin insanların zehnində müsəlmanların başqa insanlar kimi olmadığı təsəvvürünü formalaşdırmışdı. O, göstərmişdi ki, müsəlmanların həyat tərzində kasıbların və orta yaşayışı olanların varlı və idarəçilərdən bir fərqi yoxdur, əksinə, tövhid dəvəti onların hamısını uca Allah qarşısında eyni səviyyədə olan Allahın bir qulu etmişdir. Bütün bunlarla yanaşı, onlardan Allaha qulluq baxımından ən üstün olan kəsin isə Allahın qullarına ən çox təvazökarlıq və mərhəmət göstərən şəxs olduğunu zehinlərə yazmışdır. Şəkk yoxdur ki, belə dəyərli mənaların formalaşmasının İslamın əcnəbilər arasında yayılmasında da son dərəcə böyük bir təsiri olmuşdur. Çünki bu xüsuslar diqqəti çəkən və cəmiyyətdə artmaqda olan çoxluğun dəyərini ucaldan amillərdir.

Budur, həqiqətən də, gözəl əxlaqlar kimi uca mənəvi dəyərlərin İslam qardaşlığının formalaşdırılması və sabit edilməsində çox böyük təsiri vardır.

Gözəl əxlaqın İslam qardaşlığının güclənməsini və inkişafını təmin edən növləri arasında eyni zamanda aydınlıq və açıqsözlü olmaq da var. Müsəlman bir müsəlman qardaşına qarşı bütün işlərində aydın və açıqsözlü bir hərəkət etdikcə aralarındakı qardaşlıq münasibətləri ehtimal edildiyi kimi ən gözəl şəkildə davam edər. Çünki hər biri digərinə qarşı eyni hissləri daşımaqdadır. Səhabələr bu gözəl əxlaqın zirvəsində idilər. Səhabələrin heç biri qəlbində qardaşına qarşı bir tənqid və danlaq istəyi olduğu halda, içində bu hissləri daşımaqla yanaşı, ona bər-bəzəkli sözlər işlətməz və davranışları ilə də ondan tam şəkildə razı olduğunu göstərən bir mövqedə sərgiləməzdilər. Əksinə, onlar son dərəcə

açıqsözlü və aydın idilər. Əgər biri digərini bir şeyə görə tənqid edəcəksə, o bunu açıq şəkildə ifadə edər, imanı zəif şəxslərin etdiyi kimi zahirən etdiyi əməlləri təsdiqlədiyini göstərib, sonra da ardınca o olmayan yerdə onu tənqid edən bir üslub nümayiş etdirməzdilər.

Ola bilsin ki, bu açıqsözlü olmaq səbəbilə müəyyən vaxtlarda səhabələr arasında anlaşılmazlıqlar da yaranmışdır. Ancaq bu anlaşılmazlıq daha sonra güzəştə və qardaşlığa çevrilmişdir. Düşüncə və xətalardan irəli gələn anlaşılmazlıq bütün insanlar arasında, hətta bir-birini sevən çox zəkalı insanlar arasında belə meydana gələn bir hadisədir. Lakin tez bir zamanda baş verən qarşılıqlı anlaşma və tərəflərin öz daxilində olanı ortaya qoyması nəticəsində bu ixtilaf sevgiyə və ittifaqa çevriləcəkdir. Ancaq tərəflərdən hər birinin digərinə qarşı qəlbində daşıdığı hissləri deməyib susduğu zaman bunlar bir qərəzə və kinə səbəb olacaqdır ki, bu da iki qardaşı bir-birindən ayıracaqdır. Halbuki tərəflər bir-birlərini başa düşsəydilər, zehinlərindəki yanlış yozumların yanlış zənlərdən qaynaqlandığını, bunların əslində bir həqiqət olmadığı aydın olardı. Həqiqətən də, biz səhabələr arasında müəyyən vaxtlarda meydana gəlmiş ixtilafları qəribə hesab etmirik. Çünki bu vəziyyət insan olmağın təbii bir nəticəsidir. Hətta böyük səhabələrin arasında belə müəyyən zamanlarda ixtilaflar olmuşdur. Bunun bir misalını Buxari Əbu Dərdadan (Allah ondan razı olsun) gələn bir sənədlə belə nəql edir: "Əbu Bəkrlə Ömər (Allah hər ikisindən razı olsun) arasında bir mübahisə olur, Əbu Bəkr Öməri qəzəbləndirdikdə Ömər qəzəbli bir şəkildə uzaqlaşır. Əbu Bəkr də üzr istəmək üçün onun arxasınca gedir. Ancaq Əbu Bəkr bunu etməyə fürsət tapmamış Ömər qapını onun üzünə bağlayır. Sonra Əbu Bəkr peyğəmbərin ﷺ yanına gedir. Əbu Dərda (Allah ondan razı

olsun) deyir ki, biz peyğəmbərin ﷺ yanında ikən Əbu Bəkr gəldi. Bunun üzərinə Allahın elçisi ﷺ belə dedi: "Dostunuz xeyirdə sizi ötüb"[47]. Ömər (Allah ondan razı olsun) etdiyinə peşman olduqda tez peyğəmbərin ﷺ yanına gəlib salam verdi və oturub hadisəni peyğəmbərə ﷺ danışdı.

Əbu Dərdanın nəql etdiyinə görə peyğəmbər ﷺ qəzəbləndiyi zaman Əbu Bəkr (Allah ondan razı olsun) belə deməyə başladı: "Ey Allahın elçisi, əsl təqsiri olan mənəm". Allahın elçisi ﷺ isə belə dedi: "Siz dostumu mənə tərk etmirsinizmi? Halbuki, ey insanlar, mən "Sizin hamınıza göndərilmiş Allah elçisiyəm",- dediyim vaxt,- "yalan danışdın",- dediniz. Ancaq Əbu Bəkr dedi: "Doğru dedin".

Əbu Abdullah dedi: "Ğaməra, yəni (Əbu Bəkr) xeyirdə sizi ötüb[48]".

Səhabələrin həyatında olan bu əsrarəngiz səhnələrdən birinin də onların çatdıqları yüksək əxlaqlar olduğunu anlayırıq. Həmçinin bunlardan: aydın olmaq, açıqsözlü olmaq, əvf etmək və bağışlamaq əxlaqlarını sadalamaq olar.

Həqiqətən də, Əbu Bəkr və Ömər arasında baş vermiş bu ixtilaf və qəzəb (nəticə etibarilə) onların qardaşlığını azaltmadı, əksinə, ardınca gələn əfv və bağışlama ilə bu qardaşlığın gücünü və dözümlüyünü artırdı. Halbuki biz dünya övladlarını bu halın əksi üzərində görürük; (Dünya

---

[47] Hədisdə keçən غامر "ğaməra" sözü haqqında alimlər müxtəlif izahlar versələr də, biz rəvayətin özündə verilmiş izahla kifayətlənirik. (tərcüməçinin qeydi).

[48] Səhih əl-Buxari."Təfsir" kitabı. Əraf surəsi. no: 4640.

övladlarının halı) gizlində qəlbində önyarqılı olmaq, kinli və qərəzli olmaq, aşkarda isə nəzakət və gülərüz göstərmək, bir qisim insanların yanında bir üzdə olmaq, digər qisim insanların yanında başqa cür üzdə olmaq, etiqadda və düşüncədə birinci qisim insanlara (səhabələrə) müxalif olanlara sevgi və nifrət etməyi lazımlı edən əqidə fərqliliyi olsa belə xoş görünərək bütün insanların razılığını qazanmağa çalışmaq və ya bu əməllərinin arxasında hansısa dünyəvi mənfəət qazanmağa çalışmaq üzərindədir. Bunlar o kəslərdirlər ki, onlar haqqında peyğəmbər ﷺ buyurmuşdur:

"Qiyamət günü ən şərli insanın ikiüzlü adam olduğunu görərsən. O kəs ki buna bir üzlə, digərinə isə başqa bir üzlə yaxınlaşır"[49].

Aydınlıq və açıqsözlü olmaq əxlaqına aid ən əsrarəngiz misallardan biri də Səd ibn Ubadənin (Allah ondan razı olsun) Huneyn günü qənimətlərin bölüşdürülməsi zamanı bəzi ənsarlı səhabələrin qəlbində peyğəmbərə ﷺ qarşı bir şeylər əmələ gəldiyi və bu haqda danışdıqları zaman ortaya çıxan mövqeyidir.

Peyğəmbər ﷺ də bunu öyrənir və Sədə belə deyir: "Sən bu əmələ qarşı hansı mövqedəsən?". Səd deyir: "Ey Allahın elçisi! Mən yalnız öz qövmümdənəm"[50].

Bu vəziyyət səhabələrin (Allah onlardan razı olsun) doğruluq və açıq sözlülük əxlaqları ilə vəsf olunduqlarına

[49] Səhih əl-Buxari."Mənaqib" kitabı. bab. No:1. Səhihi Müslim. "əl-Birr" kitabı. no: 98.
[50] İbn Hişamın "Sira"sı. 4/175.

dəlalət edir. Səd öz daxilindəkini Allahın elçisindən ﷺ gizli saxladığı müddətcə Peyğəmbər ﷺ bundan xoşnud olmayacağını bildiyi üçün düşüncəsini açıqca bildirmişdi. Bu mövzuda Səhihi Müslimdən gələn bir rəvayət isə belədir: "Sizinlə əlaqədar mənə gəlib çatan bu xəbərlər nədir belə?!" Onlar da yalan söyləmədən: "Nə eşitdinizsə, odur",- dedilər"[51].

Bax səhabələrin əxlaqı belə ikən, buna əks olaraq dünyanın övladları isə verilən sualı inkar edirlər, sonra məsələ dəqiqləşdirildiyi zaman özlərinə bəhanələr axtarıb məsuliyyəti başqasına yükləməyə çalışdıqlarını görürük. Bu isə o şəxslərin imanının zəifliyinə və dünyəvi etibar arzularını axirət istəklərinə üstün gəlməsinə, Allahın razılığını deyil, insanların razılığını seçmələrinə dəlildir.

Budur, gözəl əxlaqların hamısı İslam qardaşlığını gücləndirir. Bunlardan bir qisminə misallar çəkdik, İslam qardaşlığı üzərində çox böyük bir təsiri olması münasibətilə açıqsözlü, aydın olmaq və müsəlman qardaşını özündən üstün tutmaq məsələlərinə toxunduq.

Gözəl əxlaq könüldəki sevgini qüvvətləndirir və insan öz təbəssümü və gülərüzlü olması ilə digər insanları özünə çəkə bilir. Allahın elçisi ﷺ bir çox hədislərində buna təşviq etmişdir. Bu hədislərdən biri də budur: "Yaxşı əməllərdən heç birini aşağı görmə, bu qardaşının üzünə təbəssüm etmək belə olsa"[52].

---

[51] Səhihi Müslim. "Zəkat" kitabı. no: 134.
[52] Səhihi Müslim. "əl-Birr" kitabı. 2626.

## 6 - İslamdakı şərəf meyarlarına bağlı olmaq

Cahiliyyə dövründə mənəvi dəyər ölçüsü müxtəlif meyarlara söykənirdi. Bunlardan ən önəmlisi isə insanın əsil-nəcabəti idi. İnsanlar hər nə qədər də soykökünün yaxınlığı və uzaqlığı baxımından müxtəlif olsalar da, cahiliyyə dövründə şərəfli bir soykökünə sahib olmaq insanın səviyyəsinin böyüklüyünü aydın edən birinci amil idi. Bəziləri də keçmişə söykənən köklü bir nəsil ilə öyünürdü. Beləcə farslar və rumlular kimi böyük bir millət olurdular. Bəziləri də yaxın bir keçmişə söykənən bir nəsil ilə öyünürdülər ki, bunlar da ərəblər kimi qəbilələrdən ibarət idilər.

Cahiliyyə dövründəki meyarlardan biri də müəyyən sərhədləri olan, siyasi olaraq sərhədlərə alınmış bir bölgə ilə bağlılıq idi. Eyni torpağı və eyni dini bölüşsələr də, fərqli dilə sahib olanlar özlərini digərlərindən daha üstün bir səviyyədə görürdülər. Rəng fərqi də bu meyarlardan biri idi. Ağdərililər özlərini qaradərililərdən daha üstün görürdülər. Həmçinin dərisinin ağlığa və qaralığa yaxınlıq dərəcəsinin fərqlərinə görə münasibət fərqlilikləri də vardı.

Uca Allah Məhəmmədi elçi olaraq göndərdi və bütün bu cahiliyyə meyarlarını batil etdi və insanlıq üçün mərhəmətli, uca və qiymətli dəyərlər gətirdi, hansı ki bu, uca Allahın: "Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır" (Hucurat. 13), - ayəsində də buyurulduğu kimi təqva dəyəridir.

Bu mövzuda Buxari Əbu Hüreyrədən (Allah ondan razı

olsun) gələn belə bir hədis nəql edir: "Peyğəmbərdən insanların ən dəyərlisinin kim olduğu" soruşuldu.

O da: "Onların ən təqvalısıdır",- dedi[53]. Eyni mövzuda bir oxşar rəvayəti də Əbu Hüreyrədən gələn sənədlə Müslim nəql etmişdir: "Allah bədənlərinizə, görkəmlərinizə deyil, qəlblərinizə baxar"[54].

İslamın gətirdiyi bu dəyərli meyarların bir xüsusiyyəti də geniş əhatəli səciyyəyə malik olmasıdır. Bu meyarlar bir vətənə aid olub, digərinə aid olmayan, bir dilə aid olub digərinə aid olmayan, bir rəngə aid olub digərinə aid olmayan meyarlar deyildir. Əksinə, bütün insanlar bu meyarlarda şərikdirlər. Buradan da bu dəyərli meyarların İslam qardaşlığı ilə olan əlaqəsini anlamış oluruq. Çünki bunlar ümumi, beynəlxalq miqyaslı meyarlardır. Bu meyarların ümumi bəşər övladları arasındakı möminlər, Allahdan qorxanlar arasında qardaşlıq anlayışını qurmaq gücü vardır. Beləcə, bu rəzilliklər bataqlığına batmış və çökmüş cəmiyyətlərin içindəki təmiz, saf qalmış fərdlər bu bataqlıqdan xilas olaraq aralarında bir-birinə bağlı, möhkəm qardaşlıqlar qururlar.

Tarix bizə İslamın ilk dövrlərində o kiçik cəmiyyət daxilindəki müsəlman bir ərəbin fars, romalı, həbəşistanlı müsəlmanlarla İslam qardaşlığı anlayışı çərçivəsində necə birgə (eyni) olmasını nəql etmişdir. Əgər şərəf meyarı rəng, ölkə, dil və ya soykökü kimi məfhumları önə çıxaran amillər olsaydı, onların birgə olmaları mümkün olmazdı. İnsanlar

---

[53] Səhih əl-Buxari. "Ənbiya" kitabı. no: 3383; Səhihi Müslim. "əl-Fədail" kitabı. no: 2378.

[54] Səhihi Müslim. "əl-Birr" kitabı. 2564.

cahiliyyə cəmiyyətində həqir görülən şəxslərin hörmətini Allah elçisinin ﷺ (müsəlman cəmiyyətində) hansı səviyyədə ucaltdığına şahid olmuşdular. Həmçinin cahiliyyə cəmiyyəti insanların zehinlərinə soyköklərinin və ya hər hansı bir cahiliyyə meyarının hörmətli etdiyi kəslərin "ağa" (üstün) olması düşüncəsini həkk etmişdir.

Buna ən aydın misallardan biri də İbn Məsuddan (Allah ondan razı olsun) gələn bir sənədlə İbn Hacərin nəql etdiyi bu hadisədir:

"Suheyb, Əmmar, Bilal və Həbbab kimi müsəlmanların zəif olanlarından bəziləri Allahın elçisinin ﷺ yanında ikən, Qureyşin liderlərindən bir qrup Peyğəmbərin yanına gəldilər və dedilər: "Qövmün içində razı qaldığın bunlardırmı? İçimizdən Allah qatında dəyərli olanlar bunlardırmı? Biz bunlaramı tabe olacağıq? Bunları yanından qov, əgər bunları yanından qovsan, bəlkə, sənə tabe olarıq". Bunun üzərinə bu ayə nazil oldu: "Rəbbinin Üzünü diləyərək səhər və axşam çağı Ona dua edənləri yanından qovma. Nə sən onların verəcəkləri hesabata azca da olsa cavabdehsən, nə də onlar sənin verəcəyin hesabatında azca da olsa cavabdehdirlər. Onları qovsan, zalımlardan olarsan. Beləliklə, Biz onların bir qismini digəri ilə sınadıq ki, onlar desinlər: "Məgər Allah bizim aramızdan ancaq bunlara lütf göstərmişdir?" Allah şükür edənləri daha yaxşı tanıyan deyildirmi?" (Ənam. 52-53)[55]. Bu rəvayətin bir bənzərini də Heysəmi, Təbərani və Əhməd ibn Hənbəlin rəvayətindən nəql etmiş və belə demişdir: "Əhməd ibn Hənbəlin ravilərindən Kərdus ibn Abbas əs-Saləbi istisna, digərləri siqa (mötəbər) ravilərdir[56].

---

[55] Təbərinin Təfsiri. 7/200.
[56] Məcməuz-Zəvaid. Heysəmi. 7/21.

Bunu bənzər bir şəkildə Müslim də qeyd etmişdir"[57].

Bu zəif şəxslərin hörmətini artıran məhz İslam idi. Bu da İslamın mənimsədiyi dəyər ölçülərinin ən bariz, seçilən xüsusiyyətlərindəndir. Buna görə bütün insanlar mümkün olduqca eyni səviyyədədirlər. Bunun müqabilində cahiliyyənin şərəf meyarı dar, hüdudlanmış və zalım bir xüsusiyyətə sahibdir. Çünki cahiliyyə cəmiyyətinin pis adətlərinin soykökünü və rəngini bəyənmədiyi kimsələrin öz soylarını ucaltmaq və rənglərini dəyişdirmək imkanları yox idi.

## Bu qardaşlıq əlaqəsinin tətbiqində tarixi vəziyyət

Beynəlxalq qardaşlıq münasibətlərinə əməl etməyin mümkünlüyünə diqqət yetirdiyimiz zaman bunun həyata keçirilməsinin mümkün olduğunu görürük. Çünki bu hər nə qədər vicdan azadlığına, düşüncə azadlığına və cahiliyyə cəmiyyətinin anlayış yükündən qurtulmağa söykənən yüksək bir düşüncə olsa da, insanın gücünü aşan bir şey deyildir. Əksinə, insanlıq bunu axtarır və bunun gerçəkləşməsini təmənna edir. Ancaq dar və çərçivəyə salınmış irqçilik çağırışları insan təfəkkürünü səviyyədən salır və bu yüksək mənəvi istəyin həyata keçirilməsinin qarşısında bir əngələ çevrilir.

[57] Səhihi Müslim. Fədailus-Səhabə. No: 46.

Bu dar çərçivəli irqçilik baxışı beynəlxalq İslam qardaşlığı qalasının qarşısındakı ən çətin düyünlərdən biridir. Çünki irqçiliyin gücü və (dünyada) möhkəmlənməsi islah edənlər qarşısında ağır bir qaya (daş) kimi dayanmışdır.

Bu regional sərhədli qəbilə anlayışı öz gücünü pis əxlaqı bəsləyən bir qaynaqdan almaqdadır ki bu, eqoistlik hissidir. Bu hiss əvvəlcə insanın öz xeyirlərini, sonra qəbiləsinin, daha sonra isə öz ölkəsinin vətəndaşlarının xeyirlərinin əsas götürülməsini gərəkli edir. Bu dar əhatəli anlayışın tamamilə aradan qalxması ancaq səmavi bir təlimatla mümkündür. Bütün insanlığı eyni uca hədəfə çatdırmaq nöqtəsində bir-birinə isindirməsi səbəbilə, müsəlmanlar ilahi proqram çərçivəsində bu hərtərəfli qardaşlığı ən gözəl şəkildə təmsil edə bilərlər.

Uca Allah yalnız insan səyilə ərəb qəbilələrinin birləşməsinin və aralarında bir qəlb isinişməsinin mümkün olmadığını bu ayədə aydın şəkildə vurğulamışdır: "Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, qüdrətlidir, hikmət sahibidir". (Ənfal. 63).

Bu uca münasibətin gerçəkləşməsi mümkündür. Bu da ancaq bu dinə möhkəm sarılmaqla həyata keçirilə bilər. İslamın ilk əsrlərində bu beynəlxalq qardaşlıq praktiki olaraq gerçəkləşmişdir.

İslamın gəlməsindən əvvəlki və sonrakı dünya cəmiyyətinin ümumi vəziyyətini nəzərdən keçirdiyimiz zaman

iki dövr arasında böyük bir fərq olduğunu görürük. Cahiliyyə dövründə dünya cəmiyyəti qəbilələrə və kiçik dövlətlərə bölünmüşkən, Allahın elçisi ﷺ İslam dini vasitəsilə dəvətin hüdudlarını formalaşdıraraq ilk öncə ərəb cəmiyyətini birləşdirməyə başladı. Belə ki Quran ərəbcə nazil olmuş, Peyğəmbər ərəblərin içindən göndərilmişdir. Peyğəmbər ﷺ əvvəlcə Məkkə əhalisini İslam sayəsində birləşdirdi və ərəblərin öyündükləri irq fərqlilikləri ortadan qaldırdı. Beləcə, Bilal Həbəşi ilə Suheyb Rumi kimi möminlər Qureyşin xaricindəki ərəblərlə eyni səviyyədə oldu. AllahuTəala İslam vasitəsilə Evs və Xəzrəc qəbilələrini birləşdirmiş və beləcə onların arasında baş verən məhvedici döyüşlərə səbəb olan kinli irqçilik anlayışını aradan qaldırmışdı. Aralarındakı axırıncı döyüş olan "Buas" döyüşünün acıları hələ təzə ikən İslam dini aralarında yayıldı və bu sayədə qardaş oldular. Peyğəmbərə ﷺ olan yardımları və səmimiyyətlərinə görə hamısı birgə "əshab" adlandırıldılar. Aralarındakı bu birlik daha əvvəllər xəyal etdikləri birlik üçün böyük bir addım təşkil etməkdə idi. Ancaq aralarında İslamın yayılması bu birliyin gerçəkləşməsi üçün yetərli olmuşdur.

Bunun ardınca Ərəb qəbilələrinin qruplar şəklində İslama girmələrilə birlikdə qəbiləçilik anlayışı aradan qalxmağa, bunun yerini din qardaşlığı anlayışı almağa başladı. Bundan dolayı, öz qəbiləsindən olsa belə, qeyri-müsəlmanlara nifrət etməyə, daha əvvəl (İslamdan əvvəl) özlərilə döyüşənlərdən olsa belə, möminləri sevməyə başladılar.[58]

Ərəb qəbilələrinin çoxu bu prinsipdə ittifaq etdilər.

---

[58] İslam əqidə sistemində bu düşüncə "vəla vəl-bəra", yəni "İslamda dost-düşmən" etiqadına əsaslanır. (tərcüməçinin qeydi).

Əvvəlcə hədəfləri, axırda isə praktikadakı proqramları eyni oldu. Beləcə, İslam ordusu bir neçə il əvvələ qədər əlində silahla bir-birilə meydan döyüşü edən o qəbilələrdən təşəkkül etməyə başladı və İslam sayəsində heç bir insanın bacara bilməyəcəyi birlik möcüzəvi bir şəkildə gerçəkləşdi. Çünki ərəblər sosial həyatlarındakı tabeçilik və idarə edilməyin nə demək olduğunu bilmirdilər. Belə ki qəbiləçilik ərəblərin comərdliklə, sərtliklə və cəsarətlə əlaqədar böyük bir sərmayəyə sahib olmalarına baxmayaraq, cəmiyyətlər arasındakı mövqelərini və güclərini yox edəcək bir həddə gətirmişdi. Bunlar (comərdlik, cəsarət və sərtlik) şəhər həyatının rahatlığına alışan başqa cəmiyyətlərin sahib olmadığı güc vəsfləri idi. Başqa cəmiyyətlər buna görə rahatlığı və sükunəti sevirdi. Ancaq güclü hünərləri olan ərəblərin bu sarıdan olan böyük sərmayələri (potensialları) düzgün bir məqsədə yönəldilməmişdi. İslam dini gəlib bu qəbilələri eyni hədəf üçün hərəkət edən tək bir ümmət halına gətirdi. Ancaq buna qarşılıq İslam dini yüksəlişdə olan bu ümmətin təməlindəki güc qabiliyyətlərini həzm etmək cəhdində olmadı, əksinə, bu sərmayəni artırıb inkşaf etdirdikdən sonra qısa bir müddətdə ona daha uzağa addımlar atmaqda yardım etdi. Halbuki bir Ərəb irqinə mənsub bir kəs daha əvvəllər də sosial həyatda özünə bir hörmət qazanmaq üçün qəhrəmanlıqla öyünürdü. İslam isə gələrək bu yaxın baxışlı düşüncələri silib yox etdi. Həmçinin dünyaya bağlı bütün hədəfləri dəyərsiz etdi. Bunun yerinə axirət hədəflərini gətirdi. Həqiqətən də, axirət yönlü hədəflər dünya işlərində daha çox nəticə əldə etmək nöqtəsində çox təsirli töhfələrə malikdir. Şöhrət və hörmət qazanmaq üçün döyüşən və ya çalışan bir şəxs ancaq insanların onu seyr etdikləri vaxt çalışar. Çünki onlardan əhvalını artıracaq bir qarşılıq gözləməkdədir. Nəticə olaraq, belə insanlar özlərini

mədh edən və şöhrətini yayan kəslərin olmadığı vaxtlarda çalışıb səy göstərmək surətilə daha artıq nəticə (və ya qazanc) əldə etmək fürsətini itirmiş olurlar.

Bunun əksi olaraq, axirət savabını uman şəxs isə insanların onu görüb-görmədiyinə fikir verməz. Çünki çalışmağın mükafatını vermək onların işi deyildir, mükafatı verməli olan Allahdır. Allah isə hər an insana nəzarət edir.

Ərəblər İslamın gəlişindən sonra peyğəmbərin ﷺ tövsiyələrinə söykənərək bu yüksək anlayışı daşımağa başladılar. Müslim bu mövzuda Əbu Musadan (Allah ondan razı olsun) belə rəvayət edir: "Allahın elçisindən ﷺ qəhrəmanlıq üçün döyüşən, irqçilik üçün döyüşən və riyakarlıq üçün döyüşən üç ayrı insandan hansının Allah yolunda olması barəsində soruşuldu. Peyğəmbər ﷺ belə buyurdu: Kim Allahın adını uca tutmaq üçün döyüşərsə, o kəs Allah yolundadır"[59].

Ərəblərin İslam qardaşlığı bayrağı altında toplanmaları onlar üçün həyata keçmiş dəyəri ölçüyə gəlməyən böyük bir nemətdir. Uca Allah: "Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz" (Ali İmran.103),- ayəsilə də onlara bu neməti xatırlatmışdır. Həqiqətən də, bu əhəmiyyət verilməyə, xatırlanmağa və qorunmağa dəyər bir nemətdir.

---

59 Səhih əl-Buxari. "Tövhid" kitabı. no: 7458. Səhihi Müslim. "İmarət" kitabı. "Allahın adını uca tutmaq üçün döyüşən kimsə" mövzusu. no: 149.

Hələ əvvəllərdən çölün ortasında təkliyə çəkilmiş və həqir bir cəmiyyət olan ərəblərin digər cəmiyyətlər içindəki etibarını Qurani-Kərim artırdı. Onları cəmiyyətlərin rəhbərləri və yol göstərənləri etdi. Doğurdan da, Allah bu töhfə ilə ərəblərə böyük bir lütf bəxş etmişdir. Uca Allah bir ayədə belə buyurur: "Sizə sizləri xatırladan bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz?" (Ənbiya. 10). Başqa bir ayədə isə belə buyurur: "Doğrusu, Biz onlara zikr gətirdik, onlar isə özlərinə verilən zikrdən üz döndərirlər". (Muminun. 71). Ayədə keçən "əz-zikr" ifadəsi şərəf mənasındadır ki, bu haqda İbn Abbas belə demişdir: "Ərəblərin izzət və zikrləri (şərəfləri) ancaq bu Quranla mümkündür. Onlar Qurana sarıldıqları və onu millətlər arasında yaydıqları müddətcə buna (bu şərəfə) sahib olarlar"[60].

Bundan bizə aydın olur ki, inadkar, qədim adət-ənənələrindən çətinliklə əl çəkən bir cəmiyyət içində İslam yoluyla qardaşlığı təsis etmək mümkün olmuşdur. İslamın yenidən inşa etdiyi bu gənc cəmiyyət vasitəsilə bu dinin cəmiyyətlər arasında yayılması nəticəsində beynəlxalq qardaşlıq yayılmışdır. Dünya ilk dəfə ərəblərlə birgə fars, rumlu, həbəşistanlı və digər irqdən olanların birgə yaşayıb hamısının eyni hədəf üçün çalışdığı və xalqları parçalayan, cəmiyyətləri bir-birindən ayıran cahiliyyə irqçiliyinin aradan qalxdığı beynəlxalq bir cəmiyyətə şahid olmuşdur.

[60] Təfsirul-Quranil-azim. İbn Kəsir. 3/184.

# İslam qardaşlığını pozan və zəifədən amillər

Bundan öncə təqdim olunan mövzular bizə İslam qardaşlığının bəzi nişanələrini, bu qardaşlığı ərsəyə gətirən və inkşaf etdirən bəzi amilləri ortaya çıxardı. Ancaq İslam qardaşlığını pozan və zəifləməsinə səbəb olan amillər öyrənilməli və mütləq şəkildə bu qardaşlığa qarşı yönəldilmiş zərərlərdən qorunma tədbirləri alınmalıdır. Yıxıcı amillərin mövcud olduğu halda, qurucu amillərin məqsədinə çatması zəif və ya faydasız bir təsirə gətirib çıxarır. Budur, dini bir ixtilaf olmadıqca bütün çatışmazlıqlara baxmayaraq, İslam qardaşlığı tam olaraq aradan qalxmaz. İslama düzgün bir yanaşma olduğu müddətcə dini ixtilafın dərəcəsinə nisbətdə İslam qardaşlığı da var olacaqdır.

Böyük günahların işlənməsinə baxmayaraq uca Allahın qatili öldürülmüş şəxsin qardaşı sayması bu qardaşlığın davam etməsinin dəlillərindən biridir. Necə ki uca Allah bu haqda belə buyurmuşdur: "Ey iman gətirənlər! Öldürülənlərə görə qisas almaq sizə vacib edildi. Azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından qisas alın! Əgər qatil qardaşı (ölənin varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda insafla davranmalı və qanbahası ona müvafiq qaydada ödənilməlidir". (Bəqərə. 178). Uca Allah bir-biri ilə döyüşmələri səbəbilə böyük günah işləmiş olan müsəlman tərəfləri də eyni şəkildə qardaş saymışdır: "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və

insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də, qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin". (Hucurat. 9-10). Bu ifadə səhabələrə görə son dərəcə aydın idi. Doğrudan da, onlar möminləri dindən çıxarmayan günahlar işləmiş olsalar belə, özlərinə qardaş olaraq görürdülər. Onlar döyüş meydanında özlərilə döyüşənləri belə qardaş sayırdılar. Əlidən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, xəvaricləri əməl və etiqaddakı fərqlilikləri səbəbilə böyük günah qazanmalarına baxmayaraq, qardaşlıqlarının[61] davam etdiyinə hökm etmişdir. Belə ki Əli (Allah ondan razı olsun) onları küfrdə ittiham edən və münafiq olduqlarını hökm edən kəslərə qəzəblənmişdir. Bu barədə İbn Kəsir Əlqamə ibn Amirdən belə bir rəvayət etmişdir:

- "Əlidən (Allah ondan razı olsun) soruşuldu: "Nəhrəvanlılar müşrikdirlərmi?"

---

[61] Müəllifin bu sözü yanlış anlaşıla bilər deyə bu izaha ehtiyac var: İlk öncə alimlər qardaşlığı iki qismə bölmüşlər. Birincisi ümumi İslam qardaşlığıdır, ikincisi isə xüsusi İslam qardaşlığıdır. Birinci qismə ümmətdən olan 73 firqənin ümumi qardaşlığı daxildir. Bu firqələrlə xüsusi qardaşlıq baş verməsə də, onlar müsəlman olduqları üçün kafir hesab edilmirlər. Çünki, peyğəmbərimiz onları ümmətdən hesab etmişdir. Müəllifin qeyd etdiyi məna da bu qardaşlıq növünə aiddir. Baxmayaraq ki, ümmətin alimləri xəvariclərin müsəlman olub-olmamasında ixtilaf etmişlər. Üstün olan rəy isə xəvariclərin qiblə əhlindən olan bidətçi müsəlmanlar olmasıdır. Xüsusi İslam qardaşlığı isə əqidə, fikir və metod olaraq eyni yol üzərində olanların qardaşlığıdır. Təəssüflər olsun ki, bir çox insanlar bu iki məfhumu bir-birilə qarışdırırlar. Əgər müəllifin işarədə etdiyi hekayədə xəvariclər xüsusi İslam qardaşlığı kateqoriyasına daxil olsaydılar, imam Əli (Allah ondan razı olsun) onlarla vuruşmazdı. (Tərcüməçinin qeydi).

- O dedi: "Onlar şirkdən qaçdılar".
- Deyildi: "Onlar münafiqdirlərmi?"
- O dedi: "Münafiqlər Allahı çox az xatırlayarlar" .
- Deyildi ki: "Onlar mömindirlərmi?"
- O dedi: "Onlar bizə qarşı həddini aşmış qardaşlarımızdır. Biz də bizə qarşı həddi aşmaları səbəbilə onlarla vuruşduq"[62].

**İslam qardaşlığını zəifldədən amillər çoxdur. Ən əsası isə bunlardır:**

## 1 - Pis əxlaq

İslam ümmətinin içində yayıldığı zaman İslam qardaşlığını zəiflədən amillərin ən böyüyü pis əxlaqdır. Bunların içində isə İslam qardaşlığı əsasını yıxan amillərin ən güclüsü, eyni zamanda ən çirkini eqoistlik və həsəddir. Bu pis əxlaqın hakim olduğu cəmiyyətlərin münasibətləri dağılır və insan öz cəmiyyətinə zərər vermək bahasına olsa belə, insanlar arasındakı şəxsi şan və şərəfini ucaltmağa və ya maddi bir qazanc əldə etməyə çalışan "tək başına bir millət" olur. Beləcə, cəmiyyətin fərdləri bir-birindən uzaqlaşır və aralarındakı qardaşlıq duyğusu zəifləyir.

Ola bilsin ki, öz mənfəəti üçün çalışan bu fərd cəmiyyətin xilası ilə bağlı çox əhəmiyyətli bir döyüşdə komandir olarsa, zəfərin şərəfini özünə aid etmək məqsədilə müdrik insanlarla məşvərət etməmək üçün eqoistliyə qərq olar. Bu səbəbdən də nəsihət edənlərin israrlı nəsihətlərinə qarşı qulaqlarını tıxayar və qürurlu ağlından qaynaqlanan planlara görə

[62]"əl-Bidayə vən-Nihayə. İbn Kəsir. 7/290.

ordunu gərəksiz əməllərə təhrik edər.

Hər nə qədər də o şəxs özünün gördüyü fərdi işi çoxsaylı ağıl sahibləri qarşısında böyük görsə belə, yenə də doğru-düzgün olan əməl qat-qat yüksəklərə qalxar, öz fikrinin doğru olduğunu düşünən və öz ağlı ilə qürurlanan şəxs isə bu həqiqətdən qafil qalar! Heç kimin Allahın elçisindən ﷺ daha ağıllı olduğunu iddia etməsinin qeyri-mümkün olmasına baxmayaraq, uca Allah öz elçisinə ﷺ: "Görəcəyin işlər barədə onlarla məsləhətləş" (Ali İmran. 159),- ayəsilə məşvərət etməyi əmr etmişdir. Peyğəmbər ﷺ bu əmri tam olaraq tətbiq etmiş, əshabından bəzilərinin məsləhətlərinə müraciət etmişdir.

Həqiqətən də, o Bədr döyüşündə ordunun yerini təsdiq etmək barəsində Həbbab ibn Münzirin (Allah ondan razı olsun) məsləhətinə müraciət etmişdir.

- Bu barədə Həbbab belə demişdir: "Ey Allahın elçisi! Bu barədə xəbəri vəhy sayəsindəmi, yoxsa öz düşüncənə əsasən döyüş üslubu və tələ qurmaq qayəsilə özünmü müəyyən etdin?"

- Allahın elçisi ﷺ dedi: "Bunun səbəbi vəhy olmayıb, əksinə, öz düşüncəm, döyüş üslubu və tələ qurmaq qayəsidir".

- Həbbab dedi: "Əgər vəziyyət belədirsə, onda, məncə, bu yer uyğun deyil. İnsanları düşmənə ən yaxın olan suya tərəf istiqamətləndir, orada qalıb digər quyuların sularını qurudaq, sonra da bu yaxın quyunun üzərinə bir hovuz quraq, özümüz sudan içək, düşməni isə sudan məhrum etmək yoluyla onlarla vuruşaq".

Allahın Rəsulu ﷺ buyurdu: "Doğrudan da, düzgün bir

rəy bildirdin"[63].

Uca Allah: "İşləri barədə öz aralarında məsləhətləşərlər" (Şura. 38), - ifadəsilə möminlərin aralarında gerçəkləşdirmiş olduqları məşvərət əməlindən dolayı onları mədh etmişdir. Amma eqoistlik, dərəbəylik və həsəd qardaşlaşmış ümmət binasını yıxan və bu qardaşlığın gələcəyini itirən ən çirkin amillərdəndir.

Qardaşlıq binasını yıxan ən çirkin əxlaqlardan biri də qeybət və sözbazlıqdır. Bəzən insan tez qərar verib müsəlman qardaşının onun yanında olmadığı vaxtda onu tənqid edən sözlər işlədir ki, bu söz haqqında danışdığı kəsin qulağına çatdıqda haqqında danışılan bu sözlərə görə ona qəlbində bir küskünlük (soyuqluq) daşıyar və onunla əlaqəni kəsər.

Ümmət əsasının sağlam iplərini açan və qardaşlıq anlayışını aradan qaldıran qeybət bu gün İslam cəmiyyətində təhlükə siqnalı verəcək qədər yayılmışdır. Qeybət cəmiyyətdə sürətlə yayılan və öyrəşənin ondan qurtulmasının çox çətin olduğu günahlardandır. Allahın özünə güclü bir iman verdiyi və Allahın ona nəzarət etdiyi, şüurunu qazandırdığı kəslər bundan istisnadır. Buna əsasən, İslam dini qeybəti pis görmək və ondan nifrət etdirmək barəsində son dərəcə güzəştsiz bir davranış sərgiləmişdir. Uca Allah qeybət edəni qardaşının ətini yeyənə bənzətmişdir. Bu, son dərəcə çirkin və bütün insanları iyrəndirən bir şeydir. Bu barədə uca Allah belə buyurmuşdur: "Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş

---

[63] Siratu İbn Hişam. 2/452.

qardaşının ətini yemək istəyərmi? Siz ki bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir". (Hucurat. 12). Ümmətin irəliləməsini təmin edən qardaşlıq anlayışını yıxması ilə pis nəticələrini müşahidə etdiyimiz bu çirkin günahdan nifrət etdirmək barədə bundan daha gözəl bir bənzətmə yoxdur.

Peyğəmbər ﷺ qeybətdən nifrət etdirmək üçün qeybət edənləri leş əti yeyənlərə bənzətmişdir.

Əbu Hüreyrə (Allah ondan razı olsun) rəvayət edir ki: "Peyğəmbər ﷺ Maiz ibn Malik əl-Əsləminin ona dördüncü müraciətində rəcm (daşqalaq) əmrini verdi. Bir dəfə Allahın elçisi ﷺ yanındakı bir qrup səhabəsi ilə Maizin məzarının yanından keçərkən onlardan biri belə dedi: "Bu həlak olan şəxs dəfələrlə Allahın elçisinin yanına gəldi və bir it kimi öldürülənə qədər hər dəfə Allahın elçisi onu rədd edirdi". – Bu danışıqlar qarşısında susan peyğəmbər ﷺ bir ayağı havaya dikəlmiş bir eşşək leşinə çatdıqda belə dedi: "İkiniz bundan yeyin". Bunun üzərinə o iki şəxs: "Ey Allahın elçisi, eşşəyin leşindənmi?",- deyincə, Allahın elçisi ﷺ dedi: "Az öncə qardaşınızın irzinə toxunmaq səbəbilə əldə etdiyiniz (çirkinlik) bundan daha çoxdur. Nəfsim əlində olan Allaha and olsun ki, o bu an cənnət çaylarının birində gəzir"[64].

Habelə peyğəmbər ﷺ qeybəti insanların ondan nifrət etməsi üçün çox pis bir qoxusu olan müəyyən bir hiss olunan şeyə bənzətmişdir. Cabir ibn Abdullah deyir ki: "Biz Peyğəmbər ﷺ ilə birlikdə oturarkən bir ara ətrafı iyrənc və çox pis qoxu sardı. Bunun üzərinə Allahın elçisi ﷺ belə dedi:

---

[64] Ədəbul-Mufrad. Buxari. Bab: 307. No: 737.

"Bunun nə olduğunu bilmirsinizmi? Bu, möminlərin qeybətini edənlərin qoxusudur"[65]. Sosial münasibətləri qoparmadakı və qardaşlıq şüurunu zəiflətmədəki qorxulu nəticələri səbəbilə İslam dininin qeybət barəsində bax bu şəkildə güzəştsiz bir mövqe sərgilədiyini görürük.

Qeybət tam bir qorxaqlıq və rəzillikdir. Qeybət edən insan ürəkli və səmimi olsaydı, tənqid etdiyi kəslərin qarşısında onlara məmnuniyyətini ifadə edib onların etdiklərini dəstəklədiyini göstərdikdən sonra heysiyyətlərinə toxunmaqdansa, çıxıb onları üzlərinə qarşı mərdcəsinə tənqid edərdi. Bu hal İslam qardaşlığında bir qüsur meydana gətirir. Bununla da bu qardaşlığa nə dəyər verilir, nə də onun qiyməti başa düşülür.

Nəmmamlığa (söz daşımaq, aravuranlıq etmək) gəldikdə isə bu əməl İslami qardaşlığın əsasını pozmaqda qeybətdən daha çox şiddətlidir. Çünki qeybət bəzən haqqında danışılan kəsin qulağına çatar, bəzən də çatmaz. Qulağına çatmadığı zaman bu kəs ilə haqqında danışılan kəs arasındakı əlaqələr qopmaz. Lakin nəmmamlıq bir nəfərə başqasının onun haqqında dediyi pis sözləri çatdırmaqdır. Bu isə haqqında danışılan şəxsin qəti olaraq qulağına çatır və öz funksiyasını yerinə yetirir ki, bu funksiya da sevənlərin arasını ayırmaqdır. Bu, günah yüklü, yox edici bir silahdır. Bu silahı həsəd və kin daşıyan kəslər birlikdə olmaları və birləşmələrini istəmədikləri kəslərin arasını ayırmaq üçün istifadə edirlər. Neçə-neçə ailələr bu səbəblə dağılmış, bu səbəblə qarşıdurmalar yaranmış və bundan dolayı cəmiyyətin xeyrinə olan bir çox şeylər itirilmişdir. Bu səbəblə uca Allah başqaları

---

[65] Ədəbul-Mufrad. Buxari. Bab: 305. No: 732.

haqqında deyilən bir sözü, xüsusilə də əhəmiyyətli mövzulardakı sözləri tezliklə qəbul etməkdən çəkinməyi əmr etmişdir: "Ey iman gətirənlər! Əgər bir fəsadçı sizə bir xəbər gətirsə, onu araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz". (Hucurat. 6). Bu ayə Vəlid ibn Uqbə (Allah ondan razı olsun) haqqında nazil olmuşdur. Peyğəmbər ﷺ onu Bəni Müstəliq qəbiləsinin zəkatlarını toplamaq üçün göndərdikdə o, başına bir iş gələr deyə narahat olmuş, bunun üzərinə geri dönüb onların zəkatı vermədiklərini iddia etmişdir. Bu haqda sonrakı rəvayətlər isə müxtəlifdir. Belə ki bir başqa rəvayətə görə onlar Allahın elçisinin ﷺ göndərdiyi məsul şəxsi gözlətdilər və bu iş üçün bir heyət göndərdilər. Bir başqa rəvayətə görə isə Allahın elçisi ﷺ Xalid ibn Vəlidi (Allah ondan razı olsun) bir ordu ilə onların üzərinə göndərdi, ancaq Xalid onlardan mənfi bir (əks-reaksiya) hərəkət görmədi[66]. Buradan da bizə nəql olunan xəbərləri dəqiqləşdirmək barəsində hansı mövqe sərgiləməyimiz gərəkdiyini anlayırıq. Ta ki əsilsiz xəbərlərin səbəb olduğu pis nəticələri yox edək. Nəmmamlığın, sevənlərin arasını ayırmaqda və uzun bir keçmişi olsa belə, sevgini nifrətə çevirməkdə son dərəcə güclü bir təsiri vardır. Bəzi müdrik şəxslər nəmmamlığı cəmiyyəti fəsada aparmaqda sehrdən daha təsirli hesab edirlər. İbn Abdil-bər Yəhya ibn Kəsirdən belə rəvayət etmişdir: "Bir falçının bir il ərzində etmədiyi fitnə-fəsadı bir yalançı və sözgəzdirən bir saatda edər"[67]. Bu aydın bir məsələdir. Sehrin əhatə etdiyi çevrə dardır. Çünki sehr insanlardan sadəcə bir qismini öz təsirinə sala bilir və ancaq gizli bir formada yayılır.

---

[66] Təfsirul-Quranil-Azim. İbn Kəsir. 4/223.

[67] Fəthül-Məcid li-Şərhi Kitəbit-Tövhid. Səh. 269. Bəbu: Mə cə`ə fi bəyəni şeyin min ənvais-sihr.

Nəmmamlığa (sözbazlığa) gəldikdə isə xalis dini tərbiyədən uzaq olması səbəbindən qəlbini kin-küdurət tutmuş və qəlbi fəsadlı olan hər bir insanın bunu etməsi mümkündür. Sözgəzdirmənin asanlıqla yayılmasını təmin edən şeylərdən biri də sözgəzdirənlik edən şəxsin insanlara sanki onları ətrafdakı təhlükəyə qarşı xəbərdarlıq etmək istəyən kəslər kimi hərəkət edərək yaxınlaşmasıdır. Bu kimi hallarda qəlblər fitri olaraq deyilənləri təsdiq etməyə meyilli olur. Uca Allah nəmmamlığı pisləmiş və onu qeyri-müsəlmanların etdiyi əməllərdən biri olaraq vəsf etmişdir: "İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara". (Qələm. 10-12).

Günahının iyrəncliyinə və zərəninin böyüklüyünə əsasən, Allahın elçisi ﷺ bu əməli edən şəxsi cənnətdən məhrum olmaqla təhdid etmişdir. Buxari və Müslimin Həməm ibn Harisin hədisindən nəql etdiyinə görə: "Bir nəfər qəbilə başçısı üçün sözbazlıq işini yerinə yetirirdi. Biz məsciddə oturarkən ordakılar dedilər ki, bu şəxs qəbilə başçısı üçün işləyən (söz aparıb gətirən) bir şəxsdir. Həməm dedi ki,o şəxs gəlib yanımızda oturdu. Bunun üzərinə Huzeyfə dedi ki, mən Allahın elçisinin ﷺ belə dediyini eşitdim: "İnsanları gizlincə dinləyən kəs cənnətə girməz". Müslimdən gələn digər rəvayətə görə isə belə deyilir: "Nəmmamlıq edən cənnətə girməz"[68].

Həqiqətən də, Peyğəmbər ﷺ iki nəfərin qəbrində əzab çəkməkdə olduğunu xəbər verərək belə demişdir: "Bunlardan biri ayaqyolunda sidiyindən qorunmurdu, digəri isə

---

[68] Səhihi Müslim. "əl-İman" kitabı. no: 168-169. Səhih əl-Buxari. "Ə`dəb" kitabı. no: 6056. Fəthul-Bari.10/472.

aravuranlıq edirdi"[69].

Aravuranlıq (sözbazlıq) bir-birilə isinişmiş kəslərin arasını ayırmaq yolu ilə sosial münasibətləri kəsdiyinə görə pis, dağıdıcı bir əxlaqdır. Sözbazlığın yayılmasını dayandıracaq və sözbazlıq edənlərin yolunda bir maneə təşkil edəcək amillərdən biri də onların sözlərini təsdiq etməməyimiz və məsələni dəqiqləşdirib həqiqəti, reallığı araşdırmağımızdır ki, bu çirkin söz səbəbilə aramızdakı qardaşlıq bağlarını qoparmayaq.

- Allahın elçisi ﷺ qeybətin və nəmmamlığın xüsusiyyətlərini və bunların bir-birindən fərqliliklərini ən mükəmməl şəkildə açıqlamış, bu barədə belə demişdir: "Qeybətin nə olduğunu bilirsinizmi؟"

- Səhabələr: "Allah və onun elçisi daha yaxşı bilir".

- Peyğəmbər ﷺ: "Qardaşını (onun üzünə deyildiyi tədqirdə) xoşuna gəlməyəcəyi bir şeylə xatırlamağındır".

- Səhabələr: "Əgər dediyimiz cəhətin qardaşımızda olduğunu görsən, bu barədə nə deyirsən؟"

- Peyğəmbər ﷺ: "Əgər dediyin cəhət onda varsa, bu qeybət olar, əgər bu cəhət onda yoxdursa, o zaman ona iftira atmış olarsan"[70].

Nəmmamlıq (sözbazlıq) haqqında isə belə demişdir: "Tikanlı kolun nə olduğunu sizə xəbər verimmi? İnsanlar arasında qaralayıcı sözlərdir"[71].

İslam qardaşlığını zəiflədən pis əxlaqlardan biri də bir-biri

[69] Səhih əl-Buxari. "Ədəb" kitabı. no: 6055. Fəthul-Bari.10/472.
[70] Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2587.
[71] Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2606.

ilə qarşılıqlı şəkildə əlaqələri kəsməkdir. İslam dini bunu qadağan etmiş və bundan şiddətlə çəkindirmişdir. Çünki bu qardaşlığa tamamilə ziddir. Bununla İslam qardaşlığının səmərələrindən olan bütün xeyrə aparan səbəblər aradan qalxar və şəri özünə çəkən səbəblər ortaya çıxar, hansı ki bu, zahirdə olan düşmənçilikdir.

İslam dini üç gündən çox küsülü qalmağı haram etmişdir. Necə ki Allahın elçisi ﷺ belə demişdir: "Bir möminə üç gecədən çox qardaşıyla küsülü qalması yaraşmaz. Belə ki biri üzünü bir tərəfə, digəri də başqa tərəfə çevirərlər. Bunların ən xeyirlisi salamı ən birinci verəndir[72]". Allahın elçisi ﷺ bir başqa hədisdə isə bu günahın nə dərəcə çirkin olduğunu belə açıqlamışdır: "Qardaşıyla bir il küsülü qalan onun qanını tökmüş kimidir"[73].

Küskünlük pis bir əxlaq olub çox pis nəticələri vardır. Həmçinin küskünlük küsülən kimsənin psixologiyasında ciddi zədələrə səbəb ola bilər. Xüsusilə də, əgər bu küskünlük qohumluq əlaqəsini kəsməklə olarsa, bunun çirkinliyi daha çox olar. Çünki bu küskünlüklə İslam qardaşlığı əlaqəsini kəsməklə qohumluq əlaqəsinin kəsilməsi birgə yer alır. Bu barədə uca Allah belə buyurmuşdur: "Əgər haqdan üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz". (Məhəmməd. 22). İslam dini əlaqələri kəsməyə zəmin təşkil edən hər şeyi haram etmiş, fəzilətlər barəsində etdiyi tövsiyələr vasitəsilə güclü əsaslarla İslam qardaşlığını qorumuş və bu səbəblə pis zənn, casusluq,

---

[72] Müslim. "əl-Birr" kitabı. no: 2560.

[73] Səhih əl-Buxari. "əl-İstizan" kitabı. no: 6237; Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2559.

üz çevirmək və s. əməlləri qadağan etmişdir. Bununla əlaqədar olaraq uca Allah belə buyurmuşdur: "Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın". (Hucurat. 12). Peyğəmbər ﷺ də belə buyurmuşdur: "Zənnə qapanmaqdan çəkinin! Həqiqətən, zənn ən yalan sözdür. Bir-birinizin eybini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!"[74].

İslam qardaşlığını zəiflədən pis əxlaqlardan biri də günah və düşmənçilik məqsədilə gizlində pıçıldaşmaqdır. Uca Allah: "Ey iman gətirənlər! Gizli danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə danışmayın. Yaxşı işlər və Allahdan qorxmaq barədə danışın, hüzuruna toplanılacağınız Allahdan qorxun! Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər" (Mücadələ. 9-10), - deməklə bunu qadağan etmişdir.

İslam dini digər insanların qəlbini yaraladığı təqdirdə mütləq olaraq pıçıldaşmağı haram etmişdir. Allahın elçisinin ﷺ bu sözündə də ifadə etdiyi kimi: "Əgər üç nəfərsinizsə, insanlara qarışmayınca iki nəfər digəri olmadan gizlində pıçıldaşmasın. Çünki bu onu (üçüncü şəxsi) kədərləndirər"[75].

---

[74] Səhih əl-Buxari. "əl-Fəraid" kitabı. No: 6066. Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2563.

[75] Səhih əl-Buxari. "əl-İstizan" kitabı. no: 6290; Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2565.

Bu söhbət hissləri qorumaq üçün olan uca bir prinsipdir. Çünki qəlbin yaralanması münasibətləri qoparan ən güclü amillərdəndir.

Əlaqələrin qopmasına aparan ən güclü amillərdən biri də qəlblərdəki kin və nifrəti qidalandırmaq və bunun qəlbdə düzəlməyən bir hala gələnə qədər, qəlbdən silinib atılması imkansız olana qədər artması üçün səy göstərməkdir. Allahın elçisi ﷺ bir-birilə küsüşənlərə barışana qədər cənnət qapılarının bağlı qaldığını xəbər verir: "Cənnət qapıları bazar ertəsi və çərşənbə günləri açılır. Allaha şərik qoşmayan bütün qullar bağışlanır, ancaq özü ilə qardaşı arasında düşmənçilik olanlar istisnadır. Sonra isə belə deyilər: "Bu ikisi barışana qədər onları gözləyin"[76].

Əlaqələrin kəsilməsinə vəsilə olduğu üçün İslamın qadağan etdiyi bir çox əməllər vardır. Bunlardan bəziləri bunlardır: lağ etmək, gizlində və aşkarda tənə etmək və pis ləqəblər qoymaq. Bunlar İslam qardaşlığını zəiflədən amillərdəndir. Bu barədə uca Allah belə buyurmuşdur: "Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fəsadçı adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır". (Hucurat. 11). Həmçinin uca Allah bu sözündə də lağ etmənin kafirlərin xüsusiyyətlərindən olduğunu bildirmişdir: "Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər".

[76] Səhihi Müslim. "əl-Birr" kitabı. no: 2565.

(Mutaffifin. 29-30). Necə ki Allah bu pis əxlaqa malik olanları: "Hər bir qeybət edənin, tənə vuranın vay halına!" (Huməzə. 1),- ayəsində də "Vəyl" adındakı cəhənnəmlə təhdid etmişdir.

Buradan da anlayırıq ki, İslam dini İslam cəmiyyətində əlaqələrin kəsilməsinə aparan səbəbləri haram etmişdir. Bu isə İslam qardaşlığını dağılmaq və yıxılmaqdan qorunması üçündür.

## 2 - İrqçiliyə, nasizmə təşviq

Qövmiyyətçilik[77] müdafiə etmək və dəstək çıxmaqdır. Bu kəlmə (ərəbcəsi) "asabə" kəlməsindən törəmişdir ki, bu isə ata tərəfindən olan qohumlar üçün işlədilir. Çünki onlar onun təəssübünü çəkər, o da onların təəssübünü çəkər. Yəni onlar onun başına toplaşarlar, o da onlarla güc əldə edər[78].

O zaman qövmiyyətçilik: "İnsanın qohumlarını, qəbiləsini və ya qövmünü haqsız yerə müdafiə etməsidir". Necə ki Vasil İbn Əsqadan gələn hədisdə o belə xəbər verir: "Belə dedim: "Ey Allahın elçisi ﷺ, qövmiyyətçilik nədir? Allahın elçisi ﷺ dedi: "Zülm etdiyi zaman qövmünə bu zülmdə dəstək verməyindir"[79]. Əbu Davud bu hədisi nəql etmiş və mötəbərliyi barəsində bir şey deməmişdir.

---

[77] Orijinalda verilmiş العَصَبِيَّةُ ifadəsini Azərbaycan dilində "əsabiyyətçilik" kimi ifadə etmək dilimizə uyğun olmadığı üçün, bu söz tərcümə əsnasında irqçilik, nasizm, qövmiyyətçilik, bəzən də milli dözümsüzlük, yerlipərəstlik kimi mənalarla ifadə edilmişdir.

[78] "Ən-Nihəyə". İbnil-Əsir. 3/245.

[79] Sünən Əbu Davud. "Ədəb" kitabı. "Fil-Asabiyyə" babı. No: 5119.

Bu hal uca Allahın müsəlmanı ucaltdığı səviyyədən daha aşağı bir səviyyəyə endirir. Belə ki uca Allah müsəlmanın zehnini dar çərçivəli dünyəvi əlaqələri təfəkkür etməkdən daha geniş miqyaslı olan dini münasibətləri təfəkkür etməyə ucaltmışdır. Əgər onun təfəkkürü bu uca əlaqədən aşağı səviyyəyə düşərsə, o zaman o, dar çərçivəli dünyəvi əlaqələrə bağlanmış olar. O zaman da bu dairə o qədər darlaşar ki, hətta sahibini öldürücü eqoistlik, kin-küdurət və lovğalıq girdabına batırar. İslam qardaşlığını zəiflətməsi, kəsintiyə uğratması və pis nəticələrə gətirib çıxarmasından dolayı Peyğəmbər ﷺ qövmiyyətçilikdən şiddətlə çəkindirmişdir. Bu mövzudakı ifadələrindən biri də milli dözümsüzlük (yerlipərəstlik, qəbiləpərəstlik) nümayiş etdirən şəxsdən uzaq olduğunu elan etməsidir.

Cubeyr ibn Mutimdən (Allah ondan razı olsun) gələn rəvayətdə olduğu kimi peyğəmbər ﷺ belə demişdir: "Qövmiyyətçiliyə dəvət edən bizdən deyildir, qövmiyyətçilik üçün vuruşan bizdən deyildir və qövmiyyətçilik üçün öldürülən də bizdən deyildir"[80]. Əbu Davud bu hədisi "yaxşı" bir sənədlə rəvayət etmişdir.

Bu ona görədir ki, Allah elçisinin ﷺ sünnəsi, metodu İslama dəvət etmək, İslam üçün döyüşmək və İslam uğrunda ölməkdir. Buna zidd bir davranış sərgiləyən bu barədə sünnəni tərk etmiş sayılır[81]. Bu səbəbdən də

---

80 Sünən Əbu Davud. "Ədəb" kitabı. no: "Fil-Asabiyyə" babı. No: 5121. Qeyd: Fayda üçün qeyd edim ki, əminamanlıq içində olan bir ölkə daxilində azsaylı xalqları bir-birinə qarşı çıxarmaq, milli dözümsüzlüyə səbəb olmaq da bu qeyd olunan hədislərdəki mənaya daxildir. (Tərcüməçinin qeydi).

81 Bu mövzunun anlaşılması zamanı bəzi yanlışlara yol verilir; Bəzi

Peyğəmbər ﷺ qövmiyyətçilik yolunda öldürülən insanın cahiliyyə yolu üzrə öldüyünə hökm vermişdir. Nəsai və Müslimin Cundub əl-Bəcəlidən bu mövzuya aid rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə-belə buyurmuşdur: "Milli dözümsüzlüyə (qəbiləpərəstliyə) yardım edərkən və ya zəlalət bayrağı altında olduğu halda, öldürülən şəxs cahiliyyə yolunda öldürülmüşdür"[82]. Hədisdə keçən تحت راية عمية "təhtə rayətin immiyətin" ifadəsi haqqında İbn Əsir belə demişdir ki, فعّيله من العماء "Fəilətun" qəlibində olub "Amə" kəlməsindən törəmişdir, الضلالة "zəlalət" anlamındadır. Bu isə "nəfs (hava) və ya qövmiyyət uğrunda öldürmək" kimi mənalarda işlədilir. Bəziləri isə bu kəlmənin ilk hərfini kəsrəli deyil, damməli olaraq oxumuşlar[83].

---

insanlar bu cür hədisləri elə başa düşürlər ki, guya insan öz vətənini müdafiə edə bilməz və ya guya düşmənə qarşı vuruşa bilməz və s. Halbuki bütün bunlar yanlış mənalardır. Ona görə də bu fikirlərin İslam düşmənlərinin hədəflərinə xidmət etməsindən çəkinmək lazımdır. Sadəcə insan bilməlidir ki, bütün döyüşlərdə insanın niyyəti "Allahın adını uca tutmaq üçün vuruşmaq" olmalıdır. Əgər insanda bu niyyət olarsa və insan zəlalət bayrağı olan qruplaşmalar uğrunda deyil, müsəlman ölkə rəhbərinin başçılığı altında döyüşərsə, istər vətən torpağından işğalçı düşmənlərin çıxarılması, istərsə də düşmənə hücum etmək üçün vuruşmaq olsun, onun döyüşü Allah yolunda hesab olunar. Bu əzəmətli niyyəti bilməyənlərə isə sadəcə öyrətmək və maarifləndirmək tövsiyə olunur. Bu mövzularda (özü də müsəlman cəmiyyətlərində) yersiz, hikmətsiz şəkildə dərinə getmək isə fitnələrin tüğyan etdiyi bir dünyada müsəlmanlara zərər verdiyi üçün tərk olunmalıdır. (Tərcüməçinin qeydi).

[82] Səhihi Müslim. "əl-İmarət" kitabı. no: 1850. "Müsəlmanların camaatına tabe olmağın vacibliyi" babı; Sünən ən-Nəsai. "Haqsız yerə qan tökməyin haramlığı" kitabı. "Zəlalət bayrağı altında döyüşməkdən çəkindirmək haqqında gələnlər" babı. 7/123.

[83] ən-Nihəyə. 3/304.

İslam qardaşlığının pozulmasına və zəifləməsinə səbəb olan amillərdən biri də  birlik olan ümmətin övladları arasında cahiliyyə yerlipərəstliyinin mövcudluğunu qoruması və yayılmasıdır. Bu, birliyi və İslam qardaşlığını yıxan ən təsirli amillərdən biridir. Həqiqətən də, İslamdan əvvəlki cəmiyyətlərdə milli dözümsüzlük vasitəsilə döyüşlərin və fitnələrin atəşinin necə alışdırıldığını, millətləri kiçik dövlətciklərə, hətta özbaşına hökm edən və digər qəbilələrə kin bəsləyən kiçik qəbilələrə necə böldüyünü girişdəki tarixi müqəddimədə gördük.

Daha sonra bu tarixi müqəddimədə İslam qardaşlığı rabitəsinin praktiki tətbiq olunmuş halını, Peyğəmbərin ﷺ İslam sayəsində bu əlaqələri necə həyata keçirdiyini və bütün dünyanı tək bir bayraq altında birləşdirmək vasitəsilə bir-birilə döyüşən (böyük) gücləri necə aradan qaldıra bildiyini gördük. Bunu isə İslam qardaşlığının ən çətin düşməni olduğu üçün bütün formaları ilə cahiliyyə dövründə olan qəbiləpərəstliyə son qoymaqla gerçəkləşdirmişdir. Daha əvvəl də ifadə edildiyi kimi Peyğəmbər ﷺ bu səbəbdən milli dözümsüzlüyü, qövmiyyətçiliyi qadağan etmiş və bunu şiddətli şəkildə pisləmişdir. Allahın elçisinin ﷺ dövründə bu cür cahiliyyə çağırışı yüksəldikdə Allahın elçisi ﷺ buna qəzəblənmiş və bu çağırışları pisləmişdir. Bu mövzudakı rəvayətlərdən biri də Buxarinin Amr ibn Dinardan nəqlən rəvayət etdiyi bu hədisdir: "Amr ibn Dinar demişdir ki, Cabir ibn Abdullahın (Allah ondan razı olsun) belə dediyini eşitdim: "Bir döyüş üçün yola çıxmışdıq. Mühacirlərdən biri ənsarlı bir şəxsi şikəst etdikdə ənsarlı: "Ey ənsarlar, köməyə gəlin",- deyə bağırdı. Bunun üzərinə Peyğəmbər ﷺ: "Bu ifadələri

tərk edin, bu çox iyrənc bir şeydir"[84], - dedi.

Buxari, Mərur ibn Suveyddən gələn bir hədisdə Peyğəmbərin ﷺ Əbu Zərə bir nəfəri anasına və soyuna görə qınadığından dolayı qəzəblənməsini belə nəql etmişdir:

"İbn Suveyd deyir ki, Rəbzədə Əbu Zərr və xidmətçisini birgə cübbə geyinmiş halda gördüm. Bu halı ondan soruşduqda o belə dedi: "Mən bir nəfərə xoşagəlməz söz deyib onun anasını aşağıladım, bunun üzərinə Peyğəmbər ﷺ mənə belə dedi: "Sən onu anasına görəmi aşağıladın? Sən özündə cahiliyyə dövrünün izlərini daşıyan birisən. Xidmətçiləriniz Allahın sizin xidmətinizə verdiyi qardaşlarınızdır. Kimin idarəsi altında bir qardaşı varsa, ona yediyindən yedizdirsin, geyindiyindən geyindirsin. Onlara gücləri çatmayan bir məsuliyyət yükləməyin, əgər yükləsəniz, onlara yardım edin"[85].

Pis vəsflərə görə tanınan yəhudilər Mədinədə Peyğəmbər ﷺ dövründə İslam dəvətinə hansı silahla qarşı çıxacaqlarını çox yaxşı bildilər. Bu səbəbdən Evs və Xəzrəc qəbilələri arasında milli dözümsüzlük (yerlipərəstlik) atəşini qızışdırmağa çalışdılar. İbn İshaqın nəql etdiyinə görə: "Müsəlmanlara həsəd aparan, onlara ifrat qərəz bəsləyən, küfrdə israr edən və ifrat qoca olan Şəs ibn Qays bir gün Peyğəmbərin səhabələrindən söhbət etmək üçün bir yerə yığışan evs və xəzrəcdən olan bir topluma baş çəkdi. Çünki Onların cahiliyyə dövründəki düşmənçilikdən sonra aralarının düzəlməsi və iffət içində olmaları onu narahat etmişdi. Bundan sonra öz-özünə belə dedi: "Qaylə oğullarının liderləri

---

[84] Səhih əl-Buxari. "Təfsir" kitabı. no: 4907.
[85] Səhih əl-Buxari. "İman" kitabı. no: 30.

bu torpaqlarda yığışdılar. Xeyr, vallahi liderləri yığışsa da, biz onlarla eyni torpaqları paylaşmarıq". Onlarla olan bir yəhudi gəncə: "Onların yanına gedib otur və Buas döyüşünün keçmişini və əvvəlini xatırlat. Sonra o dövrdə onların bir-birlərinə qarşı dedikləri şeirləri oxu", – deyə əmr etdi. İbn İshaq deyir: "Bu gənc deyilənləri eynilə etdi. Bunun üzərinə oradakılar bir-birinə qarşı söz atmağa, mübahisəyə və öyünməyə başladılar. Hətta iki ayrı məhəlləli olan Evs qəbiləsindən Harisə ibn Haris oğullarından biri olan Evs ibn Qayzi və Sələmə oğullarından xəzrəcli Cabir ibn Sahr adındakı iki nəfər miniklərin üzərinə sıçradı, bir-birlərinə söz atdıqdan sonra biri digərinə: "İstəsəniz, bir də döyüşərik",- dedi. İki tərəf də qəzəblənib belə dedi: "Görüş yerimiz "Harrə" olsun. Gəlin silah başına, silah başına!",- sonra ora tərəf yola düşdülər. Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda Peyğəmbər ﷺ özü ilə birgə olan bir qrup mühacir səhabə ilə onların yanına gəlib çatdı və belə dedi: "Ey müsəlmanların toplumu! Sizə Allahı xatırladıram. Allah sizi İslama yönəltdikdən, onunla sizi nemətləndirdikdən, cahiliyyə əməlləri ilə əlaqənizi kəsdikdən, sizləri küfrdən qurtarıb qəlblərinizi birləşdirdikdən sonra və mən içinizdə olduğum halda belə cahiliyyə əməlləri edirsiniz?" Bunun üzərinə oradakı toplum bu etdiklərinin şeytanın bir təhriki və düşmənlərin bir tələsi olduğunu anladılar, etdiklərindən dolayı peşman olub ağladılar. Evs və xəzrəclilər bir-birilə salamlaşıb Allahın elçisinin ﷺ sözlərinə qulaq asaraq və itaət edərək geri qayıtdılar"[86].

Bu, mənfur cahiliyyə yerlipərəstliyinin nəticələridir. Allahın elçisi ﷺ əgər bu fitnə ətəşini söndürməyə

---

[86] Siratu ibn Hişam. 2/211-213.

yetişməsəydi, az qalmışdı ki, Mədinədəki müsəlmanların birliyi pozulacaqdı. Ancaq bu milli dözümsüzlük sonrakı dövrdə müsəlman ümmətinin birliyini darmadağın etdi, ümmət kiçik dövlətciklərə bölündü. Beləcə, bir-birlərinə kəskin şəkildə düşmənçilik etməyə başladılar. Sonradan gələn müsəlmanların isə nə evs və xəzrəcin çağırışına cavab verəcəkləri və etdiklərinə kədərlənmələrini təmin edəcək, onların sahib olduğu kimi güclü bir imanları, nə də onlara təsir etməyi bacaran rəbbani bir komandirləri var. Hər nə qədər də arabir iman şüruna təkrar qovuşsalar da, sonrakıların bu birliyi dar bir çərçivədə qalmaqdadır.

Yaxın bir keçmişdə Osmanlı dövləti İslam birliyinə bənzər bir quruluşu ilə bir çox İslam dövlətlərini bir araya gətirdi. Digər dövlətlər ondan çəkinməyə başladılar və uzun müddət onunla mücadilə etdilər. Ancaq o sağlam və güclü bina qarşısında uğursuzluğa və məğlubiyyətə düçar oldular. Axırda Qərb ölkələri həssas tirlərə necə vurmağın gərəkdiyini öyrəndilər. Bu səbəbdən də ərəblərlə türklər arasında irqçilik atəşini alovlandırdılar. Bəzi ərəblər (və türklər) bu günahkar qışqırıqlara aldandılar və qoyunların sallaqxanaya sürülməsi kimi özlərini həlaka sürüklədilər.

Allahın: "Ey iman edənlər! Əgər mənim yolumda döyüşmək və rzamı qazanmaq üçün çıxmışsınızsa, mənim də düşmənim, sizin də düşməniniz olanlara sevgi göstərərək onlarla dostluq qurmayın"(Mumtəhinə.1),- şəklindəki sözlərini unudaraq qeyri-müsəlmanların sözlərinə etibar etdilər və: "Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlilmi vermək istəyirsiniz?"(ən-Nisa.144), - ayəsində özlərinə təmas edilən münafiqlərin əxlaqlarından da təsirləndilər.

Düşmənlərinin ərəb irqçiliyi çərçivəsindəki mənfur çağırışlarını müsəlman qardaşlarının əleyhində olacaq şəkildə təkrarladılar. Əgər dərindən düşünərək dinlərinə qayıdıb ona sarılsaydılar, mənfur irqçiliyin özlərini bələdçi və rəhbər olaraq sayıb onlara bağrını açan bütün İslam dünyasından qoparan tikanlı bir yol olduğunu anlayardılar. Ancaq bu, dəmirdən qurulmuş bir qəfəs olub İslam düşmənləri və onların xain planları sayəsində bu qəfəsi çox sağlam bir şəkildə qapamışlar.

Ərəblərin türklərdən ayrılması nəticəsində İslam birliyinin dağılması bu pis təbliğatın nəticələrindən biridir. Bundan sonra ərəb millətçiliyi ərəbləri tək bir bayraq altında toplaya bilməmişdir. Çünki "ərəb millətçiliyi" beynəlxalq bir çağırış xüsusiyyətini daşımır, əksinə, bu millətçilik hələ yolun başlanğıcında ikən digər insanlara qarşı düşmənçiliyi gizlətməkdə olan cahiliyyə qövmiyyətçiliyidir. Çünki bu təbliğat İslam ölkələrində mövcud olan, Allahın müsəlmanlardan təmizlədiyi, cahiliyyə fikirlərinə dönmələri üçün edilən azğın bir təbliğatdır. Bu təbliğat vasitəsilə buludların İslam nurunu dağıdıb qapqara günlərə qayıtmaları, İslamın qaranlıq otaqlarının qapısını açıb özlərini aydınlıq və hürriyyətə qovuşdurduğu kəslərin yenə qaranlıq həbsxanaya qayıtmaları, İslamın sağlam qardaşlıq təməllərini tərk edərək bu qardaşlığın köklərini dərinləşdirdikdən sonra ərəb olmayan müsəlmanlara qarşı düşmənçiliyə sürükləmək istənilir. Bu mənfur irqçilik təbliğatı Ərəb torpaqlarında uğurlu olmadı. Çünki bu torpaqlar İslamın beşiyi hesab olunur. "Ərəb millətçiliyi" fikrini təkrarlayan və ona çağırış edənlər əsasən bu dindən çıxan və bu dinsizliyini dinə qarşı mübarizə üçün silah kimi istifadə etmək istəyənlər və ya bu dağıdıcı təbliğatların təsirinə düşməkdən qoruyan İslam dərdi

ilə dərdlənməyən müsəlmanlardan aldanmış kimsələr və bu dağıdıcı təbliğatların tələsinə düşməkdən qoruyan İslami qavrayışı olmayan kimsələrdir. Belə bir təbliğatların nəticəsi olaraq bəzi türklər irqçilik təbliğatı etdilər. Əslində (müsəlman ölkələrində) bu təbliğatı başladanlar ya İslamdan çıxmış, ya da batil inancına davam edib müsəlman kimi görünən kəslərin elə özləri idilər. Ona görə də bu təbliğat sahibləri İslamdan və ona çağırmaqdan uzaqlaşmış və Qərbin cahiliyyə həyat prinsiplərini mənimsətmək məqsədini daşımışlar. Bundan sonrakı dövrlərdə isə bütün İslam ölkələrində hüdudlu irqçiliyə söykənən irqçilik anlayışı güclənmişdir.

## İslam qardaşlığının ehtiyacı olan məsələlər

Ötən mövzulardan İslam qardaşlığının bəzi xüsusiyyətlərinə və onu qüvvətləndirən amillərə nəzər yetirdik. Bu fəsildə isə İslam qardaşlığının ehtiyac duyduğu bəzi məsələlərdən danışmaq istəyirik. Bu lazımlı məsələlərdən bəziləri bunlardır:

### 1 - Gözəl əxlaqlara sahib olmaq

İslam qardaşlığı dəstək olmağı, yardım etməyi və öz istədiyini qardaşı üçün də istəməyi lazımlı edir. Bunlar

qardaşlıq və sevgi hissinin təbii nəticələridir. Bu da bu qardaşlığın insanın nəfsində necə qüvvətli və sabit bir yer tutduğunu göstərir. Əgər bu qardaşlığın nəticələri aşkar olmursa və bu qardaşlıq cəmiyyətdə tətbiq olunmursa, o zaman bu İslami bir qardaşlıq deyil, quru bir iddia və haqsız sahiblənmədən başqa bir şey deyildir. Qardaşlıq sevgi üzərində qurulur. Sevgi isə mənəvi bir məsələdir ki, onun konkret nəticələri ortaya çıxmadıqca, cəmiyyət onu tətbiq etmədikcə və fərdlərin arasında bu cərəyan etmədikcə bu iddianın heç bir qiyməti yoxdur. Gücün çatdığı halda sıxıntıya düşən kəsə yardım etmədiyin zaman bu şəxsə qarşı hiss etdiyin sevginin nə qiyməti var? Bu səbəbdən də Peyğəmbər ﷺ bu təbii nəticələri İslam qardaşlığına, üzərində olan sevgiyə bağlamışdır. Bu hədisində ifadə etdiyi kimi: "Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu yardımsız qoymaz və onu təhqir etməz"[87]. İslam qardaşlığının nəticələrindən biri də insanın müsəlman qardaşına vasitəçilik etməklə və digərinə zərər vermədən fayda verməsidir. Bunda ola bilsin ki, bu vasitəçilik olmadan etməsi çətin gələcək bir əməldə müsəlman qardaşına yardım etmək vardır. Bu barədə Allahın elçisi ﷺ belə buyurub: "Vasitəçi olun ki, savaba nail olasınız və beləcə, Allah elçisinin ﷺ dili ilə Allahın istədiyi gerçəkləşsin[88]".

Əgər müsəlman şəxs vasitəçi olmağın bu mükafatı haqqında düşünərsə, o zaman müsəlman qardaşı üçün bunu sevərək və şövqlə etməyə çalışacaqdır. Ənsarın mühacir qardaşlarına öz istədiklərindən onlara da istəməsiylə əlaqədar çox əsrarəngiz nümunələr gördük. Bu isə yalnız

---

[87] Bu hədis daha öncə keçdi.
[88] Səhih əl-Buxari. "Ədəb" kitabı. no: 6028.

Peyğəmbərin ﷺ onların arasında həyata keçirdiyi qardaşlığın təsirinin bir nəticəsidir. İslam qardaşlığının ehtiyaclarından biri də müsəlman qardaşına yardım etməyin, məruz qaldığı zülmü ondan uzaqlaşdırmağın və onu başqalarına zülm etməkdən çəkindirməyindir.

Bu barədə Allahın elçisi ﷺ belə buyurmuşdur:
- "Zalım da olsa, məzlum da olsa, müsəlman qardaşına köməkçi ol". Bunun üzərinə bir səhabə belə dedi:
- "Məzlum olsa, yardım edəcəyəm, bəs zalım olsa, ona necə yardım edəcəyəm?"
- Peyğəmbər ﷺ cavabında belə dedi: "Onu zülm etməkdən çəkindirərsən, ona bu işdə mane olarsan, bu da ona yardım etməkdir"[89].

Eyni üsulda Allahın elçisi ﷺ bir başqa hədisində belə buyurmuşdur: "Bir müsəlman bir müsəlmanı şərəfinin tapdanacağı və namusunun zədələnəcəyi bir yerdə onu yardımsız buraxarsa, şübhəsiz ki, Allah da onu yardıma çox ehtiyac olduğu halda yardımsız buraxar. Kim də bir müsəlmana şərəfinin tapdanacağı və namusunun zədələnəcəyi bir yerdə yardım edərsə, şübhəsiz ki, Allah da o insana yardıma çox ehtiyacı olduğu bir halda yardım edər"[90].

Zülmün dünya və axirətdə çox qorxulu nəticələri vardır. Müsəlman bir fərd olaraq müsəlman qardaşına verəcəyin ən böyük hədiyyələrdən biri də onu zülm etməkdən çəkindirməyinidir. Bəzən bir müsəlman başqa bir müsəlman qardaşının zülmə məruz qaldığı bir hala şahid olur, lakin onu müdafiə etməyə gücü çatdığı halda onun müdafiə etmir. Bu

---

[89] Səhih əl-Buxari. "əl-İkrah" kitabı. no: 6952.
[90] Sünən Əbu Davud."Ədəb" kitabı. no: bab: 41. Hədis no: 4884.

baxış cəmiyyəti vahid bir toplum olaraq qəbul edən İslam qardaşlığı anlayışına uyğun gəlməyən fərdi bir baxışdır. Saleh sələflər bu məsələdə ən mükəmməl misallardan olan davranışları sərgiləmişlər. Belə ki onlar aralarında ortaq bir dini əlaqə olmadığı halda zülmə məruz qaldıqları zaman zimmilərə[91] belə yardım edirdilər.

Bu barədə ən möhtəşəm örnəklərdən biri də imam Zəhəbinin Amir ibn Qeys ət-Təmiminin tərcümeyi-halından yazarkən nəql etdiyi bu misaldır: "Malik ibn Dinar belə demişdir: "Filankəsin mənə nəql etdiyinə görə, bir nəfər bir zimmiyə baş çəkdiyi əsnada "Rahbə" deyilən yerə çatdı, orada bir nəfərin zülmə məruz qaldığını gördü və tez ridasını[92] yerə atıb: "Mən sağ ikən Allahın zimmi bəndəsinin əziyyətdə qalmasına razı olmaram",- deyərək onu xilas etdi. Zəhəbi deyir: "Onun Şama getməsinin səbəbi sürgün edilməsi idi və o bu yolla zimmini xilas etdi"[93].

---

[91] **Zimmi:** müsəlmanların idarəçiliyi altında yaşayan kitab əhli (yəhudi və xristianlar) olub hüquqları, təhlükəsizlikləri İslama əsasən qorunan qeyri-müsəlmanlardır. (Tərcüməçinin izahı).

[92] **Rida:** Şərqdə geniş yayılmış bir kişi geyiminin bir hissəsidir. Bu geyim iki hissədən ibarət olur. Bədənin üst hissəsini örtən parçaya rida, aşağı hissəsini örtən parçaya isə izar deyilir. (Tərcüməçinin qeydi).

[93] Siyər Əaləmin-Nubələ. Zəhəbi. 4/18.

## 2 – Müştərək məsuliyyət

Şübhəsiz ki, müştərək məsuliyyət, qarşılıqlı əlaqələr və söz birliyi İslam qardaşlığının təbii nəticələrindəndir. İstər fikri hücumlar olsun, istərsə də maddi hücumlar olsun, bu ümməti xarici hücumlara qarşı qoruyan ən güclü amillərdən biri də müştərək məsuliyyətdir. Əgər ümmətin övladları tək bir səf halında durarlarsa, düşmənlərin gücü nə qədər böyük olursa olsun, bu onların birliyinə son qoymağa və şəxsiyyətlərini zəiflətməyə imkan verməz. Bu ümmət etdiyi mübarizənin ilk hissələrində büdrəsə belə, qalib gələn bu kütlələrin qələbəsinə baxmayaraq, birlik və söz birliyindən istifadə etməkdə olan bu məğlub kütlələrin içində onların heç bir etibarı yoxdur. Eyni şəkildə ümmətin prinsiplərinə zidd olan fikri cərəyanlar da ümmətin fərdləri arasında (geniş) yayılma imkanı tapmaz. Ona görə ki bu fərdlər onlarla mübarizə aparmaq barəsində birgədir və qarşılıqlı məsuliyyət içindədirlər.

Müştərək məsuliyyət, qarşılıqlı əlaqələr və söz birliyi ümmətin fərdləri arasındakı qardaşlıq təməlinə söykənir. Əslinə qalanda düşmənlər arasında bir müştərək məsuliyyətin həyata keçməsi ağlın fövqündə bir şeydir[94].

[94] Müəllif bunu təməl əsas olaraq belə görür. Lakin düşmənlərin bu birliyi nə üçün baş verir? Bunun baş verməsi düşmənlərin müstəmləkəçilik üzərində, xalqları və millətləri soyub talan etmək üzərində ittifaq etmələrindən başlayaraq bir çox burada qeyd etməyə lüzum görülməyən məsələlərdir ki, düşmənlərin batil məqsədlər üzərində bir araya gəldiyini görmək mümkündür. Əziz vətənimiz Azərbaycana qarşı bəzi Qərb ölkələrinin yürütdüyü ikili standartlı həmlələri, batilin yanında olmaları və daha nələri müasir misallar olaraq çəkib mövzunu uzatmağa da lüzum yoxdur. Deməli, binayi-qədimdən bəri müsəlmanlara və Şərqə qarşı fərqli baxış üçün hazır nəzəriyyələrin

Əksinə, düşmənlik həsəd, eqoistlik və hiyləgərlik kimi bəzi əxlaqi xəstəliklərin yayılmasına səbəb olur. Bu xəstəliklər qəlbləri uzaqlaşdırır və kollektiv çalışmalarının uğur qazanmasına əngəl törədir.

Allahın elçisi ﷺ bütün müsəlmanların sağlam bir bina kimi olmaları üçün müştərək məsuliyyətə və söz birliyinə son dərəcə əhəmiyyət verirdi. Bu barədə o ﷺ belə demişdir: "Mömin mömin üçün bir-birinə dayaq olan bina kimidir. Sonra barmaqlarını bir-birinə keçirdi"[95]. Bir başqa hədisində isə bu mənada belə buyurmuşdur: "Möminləri bir-birinə olan mərhəmətlərində, sevgilərində və şəfqətlərində sanki bir bədən kimi görərsən. Bu bədənin bir üzvü narahat olarsa, digər əzaları da buna yuxusuzluq və qızdırma ilə dəstək olar"[96]. Bu izaha bu birliyi ən sağlam və ən güclü bir şəkildə təsvir edəcək izah demək olar. Bir müsəlman fərd (ümmət binasında) bir kərpic kimi öz ümmətilə bərabər olmadığı zaman onun heç bir əhəmiyyəti qalmır. Lakin onun həmin binanın quruluşunda tutduğu yeri nəzərə alındığı zaman o dəyər qazanır, o, binadakı həmin yerdə olmazsa, binanın bütün quruluşu bundan təsirlənər.

Uca Allah təfriqəçilik və ixtilafı qadağan etmişdir. Çünki bu vəziyyət ümmətin birliyini parçalayan ən güclü amillərdəndir. Uca Allah bu barədə belə buyurmuşdur:

---

qoyulması və bunun üzərində yardımlaşma qeyri-müsəlmanlar arasında real bir haldır. Müsəlmanların zəifliyi durumunda isə həmin nəzəriyyələr daha aktiv şəkildə çalışır və onları zahirən birləşdirir. Bu isə uca Allahın müqəddəs kitabında (əl-Bəqərə. 120) xəbər verdiyi reallıqla uyğun gəlir. (Tərcüməçinin qeydi).

[95] Səhih əl-Buxari. "əl-Məzalim" kitabı. no: 2446. Əbu Musənin rəvayəti.

[96] Səhih əl-Buxari. "Ədəb" kitabı. no: 6011. Numan ibn Bəşirin rəvayəti.

"Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir". (Ali İmran. 105).

Həmçinin uca Allah bizlərə bir-birimizlə mübahisə etməyi qadağan etmişdir. Çünki bu uğursuzluğa düçar olmağımıza və gücümüzün zəifləməyinə səbəb olur. Necə ki uca Allah buyurmuşdur: "Allaha və Onun elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz". (Ənfal. 46).

Uca Allah tək bir yolla getməyimizi əmr edir. Müxtəlif yollarla getməyimizi isə qadağan edir. Çünki bunlar (digər yollar) şeytani yollardır. Ayədə ifadə edildiyi kimi: "Bu mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki o yollar sizi Allahın yolundan uzaqlaşdırar". (Ənam. 153) Haqq yolu isə birdir. Çünki onu insanların, zamanın və sosial şərtlərin dəyişməsilə dəyişməyən tək olan Allah qoymuşdur. Batil yollar isə çoxdur. Çünki bu batil yollar bəşəri şeytanların şəriəti və onların xəstə ağıllarının vəhyləridir. Hər bir ağılın yolu isə başqa ağılın yoluna ziddir. Ağılların çıxardığı "şəriət" və "yollarda" hər ağıl sahibinin öz rəyi olur və onların hər biri özünə uyğun olanı qəbul edir, uyğun olmayanı isə inkar edir. Bəşər övladının öz ağlından icad etdiyi bu nizamda anlaşılmazlığa düşüldüyü zaman özünə müraciət ediləcək bir qaynaq yoxdur. Lakin Allahın qoyduğu nizamda müraciət ediləcək qaynaq Quran və Sünnədir. Necə ki uca Allah buyurmuşdur: "Ey iman gətirənlər! Allaha və elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun elçisinə müraciət edin. Bu sizin

üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır". (Nisa. 59)

Qarşılıqlı anlaşma, qarşılıqlı münasibətlər və müştərək məsuliyyət müsəlmanlar üçün düşmənlərə qarşı bir güc deməkdir. Bunun əksi olaraq, təfriqəçilik və ixtilaf isə müsəlmanlar arasında qardaşlığı zəiflətmək və yıxmaq deməkdir. Bax bu səbəbdən düşmənləri onları heç ummadıqları bir yerdən yaxalayar. Çünki onların hər biri əvvəllər də digərlərinin bir qardaşı olması şüuruna sahib deyildi və onlarla müştərək məsuliyyəti bölüşməmiş, bərabər olmamışdı. Müştərək məsuliyyət və qarşılıqlı əlaqələri təmin edən bir çox amillər vardır. Ancaq bunlar içərisində bizim üçün daha mühüm olanı İslam qardaşlığıdır. O bunu təmin edən şeylərin ən güclüsü və ən təsirli olanıdır. Biz bu birliyin ən gözəl nümunəsini İslam qardaşlığı sayəsində ərəb qəbilələri arasında baş verməsinin şahid oluruq. Daha sonralar isə aralarında İslam qardaşlığının təşəkkül tapması səbəbilə ərəblərlə digər millətlər arasında bu birliyin baş verməsinin şahidi oluruq. Bu xüsusiyyət başqa heç bir ümmətə verilməmişdir. Lakin bu ümmətin mədəniyyətini silən və varlığını hissələrə ayıran əsas amil onun fərdləri arasındakı təfriqədən başqa bir şey olmamışdır. Yaxın bir keçmişdə izlədiyi ümumi bir siyasət nəticəsində ilk əvvəl liderləri arasındakı İslam qardaşlığının yox olmasından dolayı Əndəlüs torpaqları tamamilə itirilmiş və düşmənlərin əlinə keçmişdir.

## Bu gün insanların İslam qardaşlığına olan ehtiyacı

Bu gün bəşər övladı pis bir reallıq içindədir. Belə ki beynəlxalq qardaşlıq anlayışı yox olmuş, bir yandan da güclü zəifi əzməkdədir. Dünyanın super gücləri örtülü bir siyasət vasitəsilə sanki dünyanın xəzinələrini mənimsəmək üçün ittifaq qurmuşlar. Bu, əslində müstəmləkəçilik adı ilə məşhur olan kölələşdirmə dövrünə bir qayıdışdır. Əgər bu vəziyyət o köhnə kölələşdirmə zamanında olduğu kimi düşmən əsgərləri tərəfindən İslam ölkələrini işğal etmək şəklində açıqca edilmiş olsaydı, dünya müsəlmanlarının fərdləri tərəfindən çox güclü bir dirənişlə qarşı-qarşıya qalardılar. Lakin insanların bir çoxu yeni kölələşdirmə formasının fərqində deyillər. İntellektual insanlara gəldikdə, onların bir qismi bu kölələşdirməyi dəstəkləməkdə, bu müstəmləkəçiliklə ittifaq qurub İslam cəmiyyətləri içərisində öz mənfəətləri istiqamətində fəaliyyət göstərməkdə və bu müstəmləkəçilərin çiyinləri üzərində müsəlmanların torpaqlarına müstəqil olacaqları ən uyğun fürsəti gözləməkdədirlər. Hərbi müstəmləkəçiliyin ortadan qalxmasında indiyə qədər eyni şeyi bu şəxslərin sələfləri də etmişdir. Bunu etmələrinin səbəbi isə İslam dininin insanların həyatlarına bir nizam və intizam verdiyi kimi, əxlaqlarına və ibadətlərinə də bir nizam və intizam verməsindən dolayı ona ifrat dərəcədə nifrət edirlər. Bundan əlavə, onlar bu qayə ilə həyatın bütün yönlərinə şamil olan İslamı ən gözəl şəkildə anlayan mötədil müsəlmanlara qarşı da nifrət edirlər. Bununla yanaşı digər müsəlman qrup isə İslam dini ilə qürur duyan və İslam düşmənlərinə qarşı mübarizə aparmağa çalışan (din qeyrətli) kəslər olsalar da, bu qrupdan olan müsəlmanların dini

anlayışı (dini başa düşməsi) bir az qıtdır[97]. Bu səbəbdən də onlar əxlaqlar, ibadət və fərdi hallarla bağlı olaraq İslamın tətbiq olunduğu hallarda razı qalır, qane olduqlarını göstərirlər. Ancaq İslamın müsəlmanın bütün həyatını nizamlamadığı və tətbiqdən kənarda qaldığı zaman əskik qalacağını bilmirlər. Müsəlman intellektuallardan meydana gələn digər bir qrup isə islamın əməldə, tətbiqdə olmasının əhəmiyyətini başa düşür və buna çalışırlar.

Bu əsrin əvvəllərindən bəri, xüsusən, dünya müstəmləkəçiləri İslamın gətirdiyi hərtərəfli qardaşlıq anlayışı ilə mübarizə aparmış və İslami anlayışın sanki köhnəlmiş, sadəcə rəvayət edilən, sadəcə məğlub, aciz kəslər səviyyəsində təmsil olunan bir din kimi vəsf etməyə çalışmışlar. İslami anlayışı təmsil edən bu azlıq içərisində (təəssüflər olsun ki) insanlığın əxlaqi çöküşünə və problemlərinə faydalı həll yolu tapmada bacarıqlı liderlərə sahib olduqları halda, Qərbdən gələn dağıdıcı fikri cərəyanların səbəb olduğu təfriqələrə və rəzil adətlərə tabe olan, bunlarla öyünərək bunların bir müasirlik və mədəniyyət nümayişi olduğunu iddia etməkdə olan kəslər də vardır. İnsanlığın əxlaqi çöküşünə və problemlərinə faydalı həll yolu tapmaq isə ancaq hərtərəfli qardaşlığa dəvət və İslama tam şəkildə əməl etməklə mümkündür. Ancaq, təssüflər olsun ki, belə olmadığı üçün onlar İslami tövsiyələrdə olan böyük faydaları, elmi bilgiləri, həqiqətləri yayaraq İslamı müdafiə etməyi bacaracaqları enerjini də itirirlər. Beləcə, haqq onu təmsil edən insanların zəifliyinə görə təsirini itirir. Çünki onu

[97] Ehtimal edilir ki, müəllif bu sözlərlə dini qeyrəti olan, eyni zamanda da dini anlayışı qıt və dar olan bəzi radikal qrupları qəsd edir. (tərcüməçinin qeydi).

təmsil edən insan bu acınacaqlı halıyla haqqı çox pis şəkildə təmsil edir. Halbuki haqq zəif olmayanda daha gözəl olur!

# Qeydlər

........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
........................................................................................
................................................................................
........................................................................................
........................................................................................

# Kitabın içindəkilər:

Tərcüməçinin ön sözü.......................................................3
Müəllifin müqəddiməsi.....................................................9
İslamdan əvvəlki cəmiyyətlərin vəziyyəti.........................12
İslam himayəsində hərtərfli qardaşlıq..............................14
İslam qardaşlığının xüsusiyyətləri....................................25
1 - Mənbəsinin ucalığı....................................................26
2 - Qəlbləri bir-birilə birləşdirməklə üstün bir gücə malik olması..............................................................................27
3 - Təməlli quruluşu və dərinliyi.......................................27
4 - Davranışlara güclü təsiri.............................................29
5 - Davamlı və sabit olması..............................................30
6 - Ümumi və beynəlxalq olması......................................32
7 - Məsuliyyət hissiylə yaşamağın vacibliyi........................33
İslam qardaşlığını gücləndirən və sabit edən amillər..........34
İslam qardaşlığını inkişaf etdirən və onu sabitləşdirən ən önəmli məsələlərdən bəziləri............................................34
1 - Ortaq hədəf..............................................................34
2 - Allah üçün sevmək......................................................35
3 – Camaatla İbadətə davam etmək...............................40
4 – Fərdi və kütləvi rabitə.................................................45
İslam qardaşlığını gücləndirən amillər..............................46
a) Cəmiyyət fərdlərinin bir-birilə tanış olmalarının hasil olması..............................................................................46
b) Qohumluq əlaqələri......................................................53
c) Qonşu ziyarəti..............................................................55
d) Möminlərin qarşılıqlı ziyarətləşmələri.............................56
e) Xəstə ziyarəti...............................................................59
f) İslam dəvətçiləri arasındakı əlaqə..................................60
5 - Gözəl əxlaqlara sarılmaq.............................................62

6 - İslamdakı şərəf meyarlarına bağlı olmaq......................73
Bu qardaşlıq əlaqəsinin tətbiqində tarixi vəziyyət...............76
İslam qardaşlığını pozan və zəiflədən amillər.....................82
İslam qardaşlığını zəiflədən amillər..................................84
1 - Pis əxlaq............................................................84
2 - İrqçiliyə, nasizmə təşviq..........................................95
İslam qardaşlığının ehtiyacı olan məsələlər......................103
1- Gözəl əxlaqlara sahib olmaq.....................................103
2 - Müştərək məsuliyyət..............................................107
Bu gün insanların İslam qardaşlığına olan ehtiyacı...........111
Qeydlər...............................................................114
Kitabın içindəkilər.................................................117

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:

Sahibfarmanoğlu@gmail.com

**Kitabın adı:** "İslam qardaşlığı beynəlxalq əlaqədir".
**Redaktədən sonrakı tarix:** 8.02.2024.
**Kitabın səhifələrinin sayı:** 118.
**Kağız ölçüsü:** A5    21 × 14.8.
**Müəllif:** Əbdüləziz ibn Abdullah əl-Humeydi.
**Tərcüməçi:** Sahib Fərman oğlu Əsədov.
**Redaktorlar:**
Sərvər Ağayev, Səfərbəy Səfərbəyov,
Nail Paşayev, Qabil Şükürov.
**Kitab üzlüyü:** Mehman Hidayətov.

Dəyərli müsəlmanlar!

Sizə təqdim olunan bu kitab müəllifi dr. Əbdüləziz ibn Abdullah əl-Humeydinin "İslam qardaşlığı beynəlxaq əlaqədir" adlı kitabının Azərbaycan dilinə tərcüməsidir.

Müəllif bu kitabda Allahın elçisi Muhəmmədin ﷺ İslam qardaşlığı haqqında olan mübarək tövsiyələrinə toxunmuş, səhabələrdən bu qardaşlığa gözəl örnəklər vermiş, İslam qardaşlığını zəiflədən və gücləndirən müxtəlif amillərə toxunmuşdur.

Kitabın bu mövzuda yazılmış digər kitablardan fərqi bu İslam qardaşlığının beynəlxalq müstəvidə olan faydalarının, əhəmiyyətinin və reallıqlarının izahıdır.

Bu kitab müsəlmanları vahid bir ümmət şüurunda olmağa, keçmiş müsəlmanların izzətli olmalarının doğru səbəblərinə diqqət yetirməyə təşviq edir və İslam qardaşlığı mövzusunda yol verilmiş səhvlərə də mümkün qədər aydınlıq gətirir.

Allah müsəlmanlara faydalı etsin!

Yazdı: Sahib Əsədov



Sələfin Əxlaqı

selefinexlaqi